RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 237 (9982) 6 noyabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Prezidentdən xoş müjdə

## Qarabağ və Şərqi Zəngəzurda bizim çox zəngin təbii resurslarımız var

Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyində səsləndirdiyi fikirlər bu baxışın bariz nümunəsidir: "Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır və əlbəttə ki, biz burada Azərbaycan alimlərinin fəal iştirakını gözləyirik. Bu istiqamətdə aparılan digər islahatlar nəticəsində əldə edilmiş uğurlar rəqəmsallaşma ilə bağlıdır. Biz rəqəmsallaşmanı ölkəmizdə geniş miqyasda tətbiq edirik və bunun faydasını görürük. Yəni bəlkə də geniş ictimaiyyət bunu yaxından izləmir. Ancaq biz görürük ki, rəqəmsallaşma olan sahələrdə artıq işin keyfiyyətinin əmsalı da artır, səmərə də artır və nəticə etibarilə daha gözəl nəticələr hasil edilir. Ona görə təsadüfi deyil ki, artıq bir müddət bundan əvvəl bizim hökumət strukturunda nazirliyə "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" adı verilmişdir və bu istiqamətdə də addımlar atılır".

"World Mining Data 2025" hesabatının nəticələrinə əsasən, Azərbaycanda Sİ texnologiyalarının inkişafı üçün strateji əhəmiyyət kəsb edən mineral ehtiyatlar sırasında qızıl, mis və gümüş mühüm yer tutur. Ölkənin dünya bazarındakı payı qızıl üzrə 0,08, mis üzrə 0,01, gümüş üzrə isə 0,02 faiz təşkil edir. Region miqyasında Gürcüstan gümüş, İran mis və gümüş, Qazaxıstan isə hər üç metal üzrə istehsal göstəriciləri ilə fərqlənərək beynəlxalq bazarda əhəmiyyətli mövqe qazanıb. Azərbaycanın strateji mineral ehtiyatları təkcə iqtisadi deyil, həm də texnoloji baxımdan böyük potensiala malikdir. Prezident İlham Əliyev AMEA-dakı çıxışında bu fakta da toxunaraq, ölkənin təbii sərvətlərinin gələcək inkişaf üçün əhəmiyyətini belə ifadə edib: "Hesab edirəm ki, yaxın bir neçə ay ərzində bizə çox yaxşı xəbərlər gələcək. Bizim çox zəngin təbii resurslarımız var - qızıl, gümüş, mis yataqları, polimetal yataqlar. Onların aşkarlanması, kəşfiyyatı, işlənməsi bizə böyük xeyir gətirəcək, Qarabağ və Şərqi Zəngəzur regionlarımızda iş yerlərinin böyük sayda yaradılmasına gətirib çıxaracaqdır".

6

## Gələcək inkişafın strateji manifesti

Azərbaycan son 10 ildə inkişaf və zəfərlərlə dolu bir dövr yaşayıb. Torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası və suverenliyin tam təmin olunması müasir Azərbaycan tarixinin ən şanlı səhifəsidir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda gedən bərpa və yenidənqurma işləri, həyata keçirilən enerji, sənaye və geoloji layihələr ölkəmizin gələcək inkişafında mühüm yer tutur.

Prezident İlham Əliyevin Azərbaycan dili ilə bağlı dərinməzmunlu fikirləri hər birimizi düşündürməlidir: "Bu çağırış hər bir ziyalının, jurnalistin, müəllimin, ictimai xadimin və vətəndaşın məsuliyyətini artırır. Ana dilimizin saflığının qorunması milli kimliyimizin əsas sütunudur və dövlət başçısının bu məsələni prioritet səviyyəsində qaldırması strateji əhəmiyyət daşıyır".

7

## Qürur və fəxarət günü

### Bakı tarixi Zəfərimizin beş illiyi münasibətilə möhtəşəm parada hazırlaşır



Zəfər paradı 2020-ci il noyabrın 8-də Böyük Qələbənin və 44 günlük Vətən müharibəsinin şanlı qalibiyyətinin qeyd olunması məqsədilə təşkil olunur. Zəfər paradı Azərbaycanın Silahlı Qüvvələrinin, xüsusilə də ordu və polisin peşəkarlığının, döyüş hazırlığının və vətənpərvərliyinin təntənəsidir. Hərbi parad qalibiyyətin yalnız siyasi rəhbərlik tərəfindən deyil, həm də Azərbaycanın güclü ordu quruculuğu ilə mümkün olduğunu göstərir. Bu, eyni zamanda Azərbaycan Ordusunun beynəlxalq miqyasda tanınması və gücünün nümayişidir.

5

## Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında səmərəli əməkdaşlıq həyata keçirilir

### Prezident İlham Əliyev Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir, OPEC Fondunun prezidenti Əbdülhəmid Əl-Xəlifə, Əbu-Dabi İnkişaf Fondunun baş direktoru, Əbu-Dabi İxracat Ofisinin (ADEX) İcraiyyə Komitəsinin sədri Məhəmməd Saif Əl-Süveydi, Səudiyyə İnkişaf Fondunun baş icraçı direktoru Sultan Əbdülrəhman Əl-Marşad və Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun baş direktoru vəzifəsini icra edən Valed Əl-Bahar daxildir.



Dövlətimizin başçısı Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların xüsusilə indiki dövrdə - Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-tikinti işləri apardığı zaman ölkəmizdə sosial infrastrukturun inkişafı ilə bağlı layihələrə dəstək vermək niyyətini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar qonaqların təmsil etdikləri maliyyə institutları və ölkələrin xalqları ilə qardaşlıq, dostluq münasibətlərimizi genişləndirir.

Azərbaycanda əsas infrastruktur layihələrinin artıq tamamlandığını deyən dövlətimizin başçısı su, nəqliyyat və digər sahələr üzrə dövlət proqramlarının icra edildiyini və gələcəkdə də müxtəlif istiqamətlər üzrə dövlət proqramlarının qəbul olunacağını vurğuladı.

Görüşə görə nümayəndə heyətinin adından dövlətimizin başçısına təşəkkür edən İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir işğaldan azad edilmiş Qarabağda, Şuşada olmaqdan məmnunluğunu bildirdi, orada aparılan işlərin dərin təəssürat hissi doğurduğunu dedi.

Söhbət zamanı Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında uğurlu və səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulandı, ölkəmizdə yaradılan əlverişli investisiya və biznes mühitinə toxunuldu, əməkdaşlığın perspektivləri müzakirə edildi. Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

## Addım-addım Zəfərə doğru...

2020-ci il noyabrın 8-də Qarabağın tacı, Azərbaycanın mədəniyyət mərkəzi Şuşa düşmən işğalından azad edildi. Hələ müharibənin davam etdiyi günlərdə Prezident İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində müxbirin Şuşa ilə bağlı sualına cavabında bildirmişdi: "İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

5




## 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

8

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Qırx dörd günlük Vətən müharibəsində Azərbaycanın Qələbəsinin beşinci ildönümü münasibətilə Pakistan xalqı və Hökuməti adından, eləcə də şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi çatdırıram.

Bu tarixi gün Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmək üçün göstərdiyi cəsarətin, birliyin və sarsılmaz qətiyyətin parlaq təcəssümüdür. Bu qətiyyətli Qələbə nəticəsində sevimli Şuşa şəhəri də daxil olmaqla Azərbaycanın əzəli torpaqları azad edilib.

Bu əlamətdar hadisə həmçinin Ermənistanla tarixi razılaşmanın əldə edilməsini, bununla da Qafqaz regionunun davamlı sülh və yeni iqtisadi imkanlar dövrünə qədəm qoymasında Zati-alinizin dövlət xadimi kimi müstəsna xidmətlərini və uzaqgörən liderliyini yüksək qiymətləndirmək üçün yaxşı fürsətdir.

Zati-aliləri, 2025-ci il noyabrın 8-də Bakıda Zəfər Günü ilə bağlı tədbirlərdə Sizinlə birlikdə iştirak etməyi səbirsizliklə gözləyirəm. Əminəm ki, səfərim xüsusilə də 2025-ci il iyulun 4-də Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının XVII Zirvə görüşü zamanı əldə olunan mühüm razılıq çərçivəsində qarşılıqlı faydalı gündəliyimizi inkişaf etdirmək üçün gözəl fürsət yaradacaqdır.

Ən qısa zamanda Zati-alinizə münasib vaxtda Pakistana səfərinizi səbirsizliklə gözləyirik. Bu baxımdan məmnunluqla bildirirəm ki, heyətlərimiz həmin səfər zamanı bir sıra qarşılıqlı faydalı təşəbbüslərin rəsmi şəkildə başladılması üçün bəzi məsələləri yekunlaşdırmaq istiqamətində səylə çalışırlar.

Bu xoş fürsətdən istifadə edərək, Pakistanın qardaş xalqlarımızın rifahı naminə əlaqələrimizi çoxşaxəli, qarşılıqlı faydalı strateji və iqtisadi tərəfdaşlıq səviyyəsinə yüksəltmək əzmində olduğunu bir daha vurğulayıram.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri.

8 Noyabr - Zəfər Gününün beşinci ildönümü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı - ICESCO adından və şəxsən öz adımdan səmimi təbriklərimi, ən xoş arzularımı çatdırmaqdan böyük şərəf duyuram.

Bu tarixi hadisə təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə deyil, həm də ədalətin təntənəsi və Cənubi Qafqazda sülh, inkişaf və yenidənqurma sahələrində yeni bir dövrün başlanması ilə əlamətdardır. Ərazilərin azad edilməsi xüsusən də Azərbaycan xalqının və bütün islam dünyasının kimliyini, mənəvi dəyərlərini təmsil edən mədəni irs sahəsində mühüm bərpa prosesinə yol açmışdır.

Bu baxımdan ICESCO-nun azad edilmiş ərazilərə son illərdə iki beynəlxalq texniki missiya göndərdiyini və onların vəziyyəti yerində qiymətləndirdiyini, işğal zamanı zərər dəymiş mədəni irsin qorunması və bərpası üçün tövsiyələr verdiyini məmnuniyyətlə xatırlayıram. Biz bu səyləri təkcə Azərbaycanın deyil, bütün dünyanın münaqişədən sonrakı bölgələrində mədəni irsin qorunması üçün bir model kimi son dərəcə əhəmiyyətli hesab edirik.

Qarabağa hər səfərim zamanı oradakı sürətli dəyişiklikləri böyük heyranlıqla izləmişəm. Şəhər və kəndlərin yenidən qurulması, mədəni və dini abidələrin, təhsil müəssisələrinin bərpası və ictimai həyatın dirçəlişi bunun bariz sübutudur.

Bu mühüm nailiyyətlər Sizin uzaqgörən liderliyinizin və Azərbaycanın daha firavan, daha sabit gələcəyi ilə bağlı əzminizin göstəricisidir.

Zati-aliləri, bu şanlı Zəfər bayramı münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, müdrik rəhbərliyinizlə Azərbaycan Respublikasına davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

***Səlim bin Məhəmməd ƏL-MALİK,***
***ICESCO-nun baş direktoru***

# Azərbaycan elminin inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32 ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə **qərara alıram:**

1. Azərbaycan elminin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə**

Əfəndiyev Qalib Məmməd oğlu
Əliyev Adil Abas Əli oğlu
Kərimov Raqub Şahmar oğlu
Məmmədbəyli Eldar Hüseynqulu oğlu
Məmmədzadə İlham Ramiz oğlu

**"Şöhrət" ordeni ilə**

Əlquliyev Rasim Məhəmməd oğlu
Feyzullayev Əkpər Əkpər oğlu
Hüseynova İradə Məmməd qızı
Şükürov Kərim Kərəm oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Abasov Səfa İslam oğlu
Ayda Zadə Kamil Rəcəb oğlu
Əliyev Əlövsət Qaraca oğlu
Əliyev İmir İlyas oğlu
Əsədov Mirsəlim Mirələm oğlu
Əzizova Fəridə Əhəd qızı
Qasımov Oktay Kazım oğlu
Mehdiyev Arif-Ala Əli-Ovsəd oğlu
Mədətov Rəhim Səlim oğlu
Mustafayev İslam İsrafil oğlu
Mustafayev Tehran Əlişan oğlu
Rəsulov Mahir Əbdüləli oğlu
Sərdarlı Rauf Mədət oğlu
Şahmuradov İlham Əyyub oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov Eldar Mehdi oğlu
Abdullabəyova Gülər Həsən qızı
Bağırov Əkrəm Daxil oğlu
Bəhramov Cəbi Əmirvar oğlu
Bunyatzadə Könül Yusif qızı
Əliyev Təvəkkül Rəsul oğlu
Əliyeva Nuray Yadigar qızı
Xavəri Sərxan Abbas oğlu
İbadullayeva Səyyarə Cəmşid qızı
Qafarov Ramazan Oruc oğlu
Quliyeva Xatirə Nəcəfqulu qızı
Qurbanov Füzuli Məhəmməd oğlu
Mahmudov Məsud Əhməd oğlu
Məmmədli Əliağa Əyyub oğlu
Məmmədli Tahir Yadigar oğlu
Rzayev Seyfəddin Gülverdi oğlu
Seydəliyev Nəriman Fərman oğlu
Şükürlü Yusif Hacıbala oğlu
Şükürov Ağahüseyn Məmmədhüseyn oğlu.

2. Azərbaycan elminin inkişafında xüsusi xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Həmidov İmamverdi Yavər oğlu
Mustafazadə Tofiq Teyyub oğlu
Şərifov Kamandar Kazım oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2025-ci il*

# Bakı Metropoliteni əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Bakı Metropoliteninin inkişafında əldə etdikləri yüksək nailiyyətlərə və hərəkətin təhlükəsizliyinin təmin edilməsi sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

İsmayılov Elçin Əlpaşa oğlu

**"Tərəqqi" medalı ilə**

Aslanov Aslan Məmmədəli oğlu
Bayramov Rizvan Fərmayıl oğlu
Heydərov Mehman Səfiyar oğlu
İbrahimov Əliqismət Sərdər oğlu
Kazımov Sənan Məsim oğlu
Məmmədov Bəxtiyar Miryusif oğlu
Məmmədov Tural Cavanşir oğlu
Yusubov Namiq Nəsrullah oğlu
Zamanov Anar Arif oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2025-ci il*

# Milli Məclisin Sədri Sahibə Qafarova Braziliyaya işgüzar səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarova BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyasında (COP30) iştirak etmək üçün Braziliya Federativ Respublikasının Belem şəhərinə işgüzar səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Braziliya Hərbi Hava Qüvvələrinin Belem hava limanında Milli Məclisin Sədrini Azərbaycanın Braziliyadakı səfiri Rəşad Novruz və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində nümayəndə heyətimiz COP30 tədbirlərində iştirak edəcək, sessiyada müzakirə olunan məsələlərə münasibət bildirəcək.

*"Azərbaycan"*

# Prezidentin köməkçisi Hikmət Hacıyev Böyük Britaniyanın dövlət naziri ilə görüşüb

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Birləşmiş Krallığın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyev bu barədə özünün "X" sosial media hesabında paylaşım edib.

Prezidentin köməkçisi strateji tərəfdaşlıq ruhunda keçən görüşdə əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi məqsədilə nəqliyyat əlaqələri, süni intellekt, kibertəhlükəsizlik, rəqəmsallaşma, təhsil, həmçinin müdafiə və hərbi əməkdaşlıq kimi yeni istiqamətlər üzrə müzakirələrin aparıldığını qeyd edib.

# Aİ-nin xüsusi nümayəndəsi Azərbaycan-Ermənistan sülh prosesi üzrə irəliləyişlər barədə məlumatlandırılıb

**Noyabrın 5-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan-Avropa İttifaqı (Aİ) əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri, Azərbaycan-Ermənistan normallaşma prosesi, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub.

Azərbaycan və Aİ arasında siyasi, iqtisadi, nəqliyyat, enerji təhlükəsizliyi və s. istiqamətlər üzrə əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq platformaları və alətləri üzrə danışıqların əhəmiyyəti diqqətə çatdırılıb.

İki tərəf arasında yüksək səviyyədə təmasların və son aylarda keçirilmiş dialoqların məmnunluq doğurduğu, bu istiqamətdə səylərin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Xüsusi nümayəndə Vaşinqton Zirvə Görüşü çərçivəsində əldə edilmiş nailiyyətlərə dəstək verilməsi istiqamətində Avropa İttifaqının hazırlığını ifadə edib.

Nazir Ceyhun Bayramov öz növbəsində Azərbaycan-Ermənistan normallaşma, sülh prosesi üzrə əldə olunan irəliləyişlər və perspektivlər barədə qarşı tərəfə məlumat verib, ölkəmizin mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə mövzusunda beynəlxalq tədbir olub

**Oktyabrın 28-31-də Avstriya Respublikasının paytaxtı Vyana şəhərində Narkotiklərlə bağlı qanunlara riayət olunmasının təmin edilməsi üzrə milli idarələrin rəhbərlərinin 16-cı iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə ölkəmizi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Daxili İşlər Nazirliyinin aidiyyəti əməkdaşlarından ibarət nümayəndə heyəti təmsil edib.

İclasda narkotik maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı respublikamızın üzv olduğu beynəlxalq konvensiyaların müddəalarından irəli gələn vəzifələrin icrası, Azərbaycanda narkotiklərin qaçaqmalçılığına qarşı aparılan mübarizə, ölkənin narkotik maddələrin daşınması üçün tranzit marşrutu kimi istifadə edilməsinin qarşısının alınması istiqamətində, habelə bu sahədə qəbul olunmuş 2019-2024 və 2025-2030-cu illəri əhatə edən dövlət proqramları çərçivəsində görülmüş tədbirlər barədə nümayəndə heyəti tərəfindən ətraflı məlumat verilib. Bildirilib ki, ötən müddətdə Azərbaycan tərəfi ilə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı BMT-nin müvafiq qurumu (UNODC), İNTERPOL və digər beynəlxalq və regional təsisatlar arasında səmərəli əməkdaşlıq əlaqələri yaradılıb. Eyni zamanda son vaxtlarda ABŞ-nin Narkotiklərlə Mübarizə İdarəsi (DEA) ilə qurulmuş işgüzar münasibətlərə də toxunulub.

Həmçinin vurğulanıb ki, 2019-2024-cü illər ərzində Azərbaycanın hüquq-mühafizə orqanlarının narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı apardığı mübarizə çərçivəsində 47 min 863 fakt aşkar edilib. Bundan əlavə, qeyd olunan dövrdə 33,5 ton müxtəlif növ narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsinin qarşısı alınıb, 510 nəfəri əcnəbi olmaqla, ümumilikdə 39 min 2 şəxs cinayət məsuliyyətinə cəlb edilib. Rəsmi statistikaya görə, son iki ildə qonşu ölkələrdən Azərbaycan vasitəsilə 10 narkotik qaçaqmalçılığı cəhdi qeydə alınıb və nəticədə 600 kiloqram narkotik vasitə müsadirə edilib.

Eləcə də tədbirdə Azərbaycan nümayəndə heyəti tərəfindən tərəfdaş dövlətlərin istintaq orqanları və əməliyyat qurumları arasında əlaqələrin və əməliyyat məlumatlarının mübadiləsinin genişləndirilməsi, o cümlədən beynəlxalq nəqliyyat dəhlizləri vasitəsilə narkotik vasitələrin daşınmasına ölkələrin birgə nəzarətinin təşkili ilə bağlı təkliflər irəli sürülüb.

Bundan başqa, müasir dövrümüzdə göstərilən sahədə yaranmış təhdidlər sırasında internet üzərindən narkotik vasitələrin satışının həyata keçirilməsinin, cinayətkarların pilotsuz uçuş aparatlarından narkotiklərin daşınmasında istifadə etmələrinin yer alması narahatlıq doğuran hallar kimi diqqətə çatdırılıb.

Xüsusilə qeyd olunub ki, ümumbəşəri bəlaya çevrilmiş narkotiklərin qeyri-qanuni dövriyyəsi, bu işlə məşğul olan cinayətkar qruplaşmaların zərərsizləşdirilməsi yönündə birgə səylərin gücləndirilməsinə, qarşılıqlı fəaliyyətin və informasiya mübadiləsinin daha da intensivləşdirilməsinə ciddi ehtiyac var.

# Bakıda Ərəb Koordinasiya Qrupunun yüksəksəviyyəli "dəyirmi masa"sı keçirilib

**Bakıda İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Ərəb Koordinasiya Qrupunun (ƏKQ) yüksəksəviyyəli "dəyirmi masa"sı keçirilib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov Ərəb Koordinasiya Qrupuna daxil olan institutlarla səmərəli tərəfdaşlıq əlaqələri qurulduğunu vurğulayıb. Bildirilib ki, İslam İnkişaf Bankı (İİB) və OPEC Fondu ölkəmizdə dayanıqlı inkişaf, sosial rifahın artırılması və iqtisadi infrastrukturun gücləndirilməsi üzrə layihələrin maliyyələşdirilməsində iştirak edib, həmçinin qrupa daxil olan digər üzv qurumların ölkəmizdə həyata keçirilən layihələrə qoşularaq Azərbaycanın sosial-iqtisadi tərəqqisinə töhfələr veriblər.

İqtisadiyyat naziri ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti barədə məlumat verərək, qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımlar və əldə edilən nəticələr barədə məlumat verib. Həmçinin işğaldan azad edilmiş ərazilərin bərpası və bu ərazilərin iqtisadi dirçəlişi istiqamətində həyata keçirilən proqramlar, sahibkarlıq fəaliyyətinin təşviqi üçün tətbiq edilən güzəşt və stimullar, Qarabağ və Şərqi Zəngəzurun geniş iqtisadi potensialı qonaqların diqqətinə çatdırılıb.

İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir Azərbaycan və ƏKQ arasında möhkəm tərəfdaşlığı qeyd edib, əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu diqqətə çatdırıb. O, "dəyirmi masa"nın qarşılıqlı fəaliyyətin genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib. Həmçinin bankın Azərbaycanla güclü infrastrukturun qurulması, istehsal potensialının reallaşdırılması, rəqəmsal transformasiya və digər istiqamətlərdə tərəfdaşlığın genişləndirilməsi, xüsusilə işğaldan azad edilmiş ərazilərdə perspektiv layihələrdə iştirakda maraqlı olduğu qeyd edilib.

OPEC Fondunun prezidenti Əbdülhəmid Əl-Xəlifə fondun Azərbaycanla əlaqələrinin möhkəm etimada əsaslandığını vurğulayıb. Enerji, nəqliyyat, su təchizatı, kənd təsərrüfatı sahələrində işbirliyi qeyd edilib. Fondun infrastrukturun inkişafı, ətraf mühitin qorunması, ərzaq təhlükəsizliyi və digər prioritet sahələrdə tərəfdaşlığa önəm verdiyi diqqətə çatdırılıb. Həmçinin qurumun Azərbaycanla əlaqələrin daha da inkişaf etdirilməsinə önəm verdiyi bildirilib.

Tədbirdə çıxış edən Əbu-Dabi İnkişaf Fondunun baş direktoru Məhəmməd Saif Əl-Süveydi bildirib ki, son illər Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında güclü iqtisadi tərəfdaşlıq münasibətləri formalaşıb və birgə layihələrin həyata keçirilməsi bu əlaqələrin daha da möhkəmlənməsinə, qarşılıqlı iqtisadi əməkdaşlığın dərinləşməsinə töhfə verəcək.

Səudiyyə İnkişaf Fondunun baş icraçı direktoru Sultan Əbdülrəhman Əl-Marşad Azərbaycanla dostluq və etimada əsaslanan tərəfdaşlığın mövcud olduğunu qeyd edib. Bugünkü görüşdən sonra qarşılıqlı münasibətlərdə ölkəmizin milli inkişaf hədəflərinə uyğun yeni mərhələnin başlanacağına və əməkdaşlığın daha sıx şəkildə inkişaf edəcəyinə inandığını vurğulayıb.

Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun baş direktoru vəzifəsini icra edən Valed Əl-Bahar fondun əsas missiyasının üzv ölkələrin və tərəfdaş dövlətlərin iqtisadi və sosial inkişafına dəstək vermək olduğunu bildirib. Qeyd edilib ki, Şərq və Qərb arasında mühüm körpü rolunu oynayan ölkəmiz zəngin təbii sərvətlərə, məhsuldar torpaqlara və yüksəkixtisaslı insan resurslarına malikdir. Azərbaycanla iqtisadi şaxələndirmə, sosial-inkişafın təmin edilməsi, eləcə də texniki yardım istiqamətində əməkdaşlığın genişlədirilməsi üçün böyük potensial mövcuddur.

"Dəyirmi masa" çərçivəsində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədri Zaur Mikayılov, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov, "Bakı Metropoliteni" QSC-nin sədri Vüsal Aslanov ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun olaraq, dayanıqlı inkişaf, şəhərsalma, su ehtiyatlarının idarə edilməsində səmərəliliyin artırılması, nəqliyyat infrastrukturunun modernləşdirilməsi ilə bağlı layihələr barədə məlumat veriblər. "Dəyirmi masa" çərçivəsində perspektiv layihələrlə bağlı təqdimatlar nümayiş etdirilib.

Tədbirdə iştirak edən maliyyə nazirinin birinci müavini Anar Kərimov və Nazirlər Kabinetinin şöbə müdiri Ruslan Rüstəmli ölkəmizin Ərəb Koordinasiya Qrupu ilə əməkdaşlığa önəm verdiyini bildirib, tərəfdaşlığın inkişafı üçün imkanları vurğulayıblar.

Görüşdə həmçinin işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində həyata keçirilən tədbirlərlə bağlı məlumat verilib, bu ərazilərin investisiya potensialı diqqətə çatdırılıb.

"Dəyirmi masa"da təqdim olunan strateji infrastruktur və inkişaf layihələri ilə bağlı müzakirələr aparılıb, birgə maliyyələşmə perspektivləri barədə fikir mübadiləsi edilib.

"Dəyirmi masa" çərçivəsində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Ərəb Koordinasiya Qrupunun üzvləri arasında Niyyət Bəyannaməsi" imzalanıb. Sənədi Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov, İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir, OPEC Fondunun prezidenti Əbdülhəmid Əl-Xəlifə, Əbu-Dabi İnkişaf Fondunun baş direktoru Məhəmməd Saif Əl-Süveydi, Səudiyyə İnkişaf Fondunun baş icraçı direktoru Sultan Əbdülrəhman Əl-Marşad və Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun baş direktoru vəzifəsini icra edən Valed Əl-Bahar imzalayıblar.

Niyyət Bəyannaməsinə əsasən, tərəflər "Azərbaycan 2030: Sosial-iqtisadi inkişaf üzrə Milli Prioritetlər" sənədinə uyğun olaraq, Azərbaycan Respublikasında infrastruktur layihələrinə Ərəb Koordinasiya Qrupunun üzv qurumları tərəfindən güzəştli maliyyələşmə imkanlarının cəlb olunması istiqamətində əməkdaşlığın genişləndirilməsi niyyətlərini ifadə ediblər. Sənəd həmçinin məlumat və təcrübə mübadiləsinə əsaslanan əməkdaşlığın təşviqini nəzərdə tutur.

Daha sonra "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Əbu-Dabi İnkişaf Fondu arasında Anlaşma Memorandumu" imzalanıb. Sənədi Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Əbu-Dabi İnkişaf Fondunun baş direktoru Məhəmməd Saif Əl-Süveydi imzalayıblar.

İmzalanmış sənədlər Azərbaycanın Ərəb Koordinasiya Qrupu ilə tərəfdaşlığını yeni mərhələyə yüksəldərək birgə fəaliyyətin səmərəliliyinin artırılması, işgüzar platformaların və investisiyaların təşviqi üçün yeni mexanizmlərin yaradılmasını əhatə edir.

# 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı xarici ölkələrin parlamentlərinə və beynəlxalq parlament təşkilatlarına göndərilib



**Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il 31 oktyabr tarixli plenar iclasında qəbul edilmiş 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı xarici ölkələrin parlamentlərinə və beynəlxalq parlament təşkilatlarına göndərilib.**

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Qeyd edək ki, bəyanatda 2020-ci ilin sentyabr-noyabr aylarında 44 günlük Vətən müharibəsində əldə edilən Zəfərin milli tariximizin ən şərəfli və taleyüklü hadisələrindən biri olduğu, döyüş meydanında qazanılan Qələbənin siyasi-diplomatik müstəvidə də təsdiq edildiyi vurğulanır. Bəyanatda bildirilir ki, bu ilin avqust ayında Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Azərbaycan Respublikası Prezidentinin və Ermənistan Respublikası Baş nazirinin Birgə Bəyannamə imzalaması və iki ölkə arasında sülh sazişinin paraflanması münaqişə dövrünə son qoymuş və regionumuzda uzunmüddətli sülh və sabitliyin yolunu açmışdır.

Sənəddə həmçinin Azərbaycan Respublikasının Milli Məclisinin İkinci Qarabağ müharibəsində qələbənin tarixi əhəmiyyətini qeyd edərək, dövlətimizin müstəqilliyinin, ərazi bütövlüyünün və suverenliyinin möhkəmləndirilməsi işinə sadiqliyini bir daha ifadə etdiyi, Azərbaycan Respublikası Prezidentinin bölgədə sülh və əməkdaşlıq mühiti yaradılmasına yönələn səylərini dəstəklədiyi vurğulanır.

*"Azərbaycan"*

# Pakistan Parlamenti Senatının və Milli Assambleyasının sədrləri Milli Məclisin Sədri Sahibə Qafarovaya Zəfər Günü münasibətilə təbrik məktubları ünvanlayıblar

**Pakistan İslam Respublikası Parlamenti Senatının Sədri Syed Yusuf Raza Gilani və Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq Milli Məclisin Sədri Sahibə Qafarovaya 8 Noyabr - Zəfər Günü münasibətilə təbrik məktubları ünvanlayıblar.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məktublarda Pakistan Parlamenti Senatının və Milli Assambleyasının spikerləri Zəfər Gününün beşinci ildönümü münasibətilə spiker Sahibə Qafarovaya və Milli Məclisin üzvlərinə təbriklərini çatdırıblar.

Məktublarda bildirilib ki, bu əlamətdar gün Azərbaycan xalqının sarsılmaz ruhunun, möhkəmliyinin və əzminin sübutudur. Azərbaycan xalqının Prezident İlham Əliyevin uzaqgörən rəhbərliyi altında apardığı tarixi mübarizə nəticəsində Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpası tarixə əbədi olaraq həkk olunacaq əlamətdar nailiyyətdir.

Məktublarda deyilir ki, Ermənistanla münasibətlərdə son müsbət irəliləyişlər Cənubi Qafqazın bütün xalqları üçün sabitlik, qarşılıqlı əməkdaşlıq və ortaq rifah əsasında qurulmuş gələcəyə yenidən ümid verir.

Pakistan Parlamenti Senatının və Milli Assambleyasının sədrləri məktublarında iki ölkənin parlamentləri arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildiriblər, qardaş Azərbaycan xalqına tərəqqi və firavanlıq arzularını ifadə ediblər.

*"Azərbaycan"*

# Ərəb Parlamentinin Prezidenti Mohamed Ahmed Alyammahi Milli Məclisin Sədri Sahibə Qafarovaya Zəfər Günü münasibətilə təbrik məktubu ünvanlayıb

**Ərəb Parlamentinin Prezidenti Mohamed Ahmed Alyammahi Milli Məclisin Sədri Sahibə Qafarovaya 8 Noyabr - Zəfər Günü münasibətilə təbrik məktubu ünvanlayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məktubda Ərəb Parlamentinin Prezidenti Zəfər Gününün beşinci ildönümü münasibətilə spiker Sahibə Qafarovaya və Milli Məclisin üzvlərinə təbriklərini çatdırıb.

O bildirib ki, bu əlamətdar gün Azərbaycan Respublikasının müasir tarixinin ən görkəmli səhifələrindən birini təşkil edir. Qeyd edilir ki, bu şərəfli gün nəinki qələbəni xatırladır, həm də Azərbaycan xalqının möhkəm iradəsinin yenidən canlanmış simvolu kimi çıxış edir və müdrik rəhbərlik altında əldə edilmiş görkəmli milli və inkişaf nailiyyətlərini, daha rifahlı gələcək uğrunda rəhbərliklə xalq arasında əzmkarlıq və birlik ruhunu təcəssüm etdirir.

Məktubda həmçinin parlament dialoquna, ərəb və Azərbaycan xalqlarının təhlükəsizliyi, sabitliyi və inkişafı uğrunda səylərin birləşdirilməsinin təşviqi kimi ortaq məqsədlərə xidmət edən müxtəlif sahələrdə Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlığın genişləndirilməsinə sadiqlik nümayiş etdirilir, dost Azərbaycan xalqının daha da inkişafı və firavanlığı üçün səmimi arzular ifadə olunur.

*"Azərbaycan"*

# Sosial müdafiənin gücləndirilməsi və vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi dövlət siyasətinin prioritetlərindəndir

## Milli Məclisdə komitələrin birgə iclasında 2026-cı il üçün DSMF-nin, İSF-nin büdcələri, yaşayış minimumu və ehtiyac meyarı müzakirə olunub



**Noyabrın 5-də Milli Məclisin Əmək və sosial siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev iclasın gündəliyinə 4 məsələnin - "Dövlət Sosial Müdafiə Fondunun 2026-cı il büdcəsi haqqında", "İşsizlikdən Sığorta Fondunun 2026-cı il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında" və "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələrinin birinci oxunuşda daxil edildiyini bildirib.

Komitə sədri Musa Quliyev "Dövlət Sosial Müdafiə Fondunun 2026-cı il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta Fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələrini birlikdə müzakirəyə təqdim edib. O, bildirib ki, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2026-cı il üçün gəlirləri 8 milyard 323 milyon manat təşkil edəcək. DSMF-nin 2026-cı il üçün nəzərdə tutulan xərcləri isə 8 milyard 483 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin göstəricisindən 807 milyon manat və ya 10,5 faiz çoxdur.

Bildirilib ki, DSMF-nin ehtiyatından 2026-cı ilin xərclərinə yönəldilən vəsait 159 milyon 970 min manat təşkil edəcək. Fondun gəlirlərinin 6 milyard 591 milyon manatının, yaxud 79,2 faizinin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar hesabına formalaşması nəzərdə tutulub. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 68 faizi qeyri-büdcə sektorunun, 32 faizi isə büdcədən maliyyələşən təşkilatların hesabına təmin ediləcək.

Dövlət Sosial Müdafiə Fondunun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,6 faizini və ya 8,2 milyard manatını əhaliyə ödənişlər təşkil edəcək. Əmək pensiyalarının orta aylıq məbləğinin 2025-ci ildə 540 manat, 2026-cı ildə isə 590 manat olacağı proqnozlaşdırılır. Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 576 manatdan 53 manat artaraq 629 manata yüksəlməsi gözlənilir.

2026-cı ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə 203,6 milyon manat vəsait nəzərdə tutulub ki, bu da cari ilin təsdiqlənmiş proqnozuna nisbətən 2,6 faiz, yaxud 5,2 milyon manat çoxdur.

Komitə sədri vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təqdim edilmiş qanun layihəsi ölkə qanunvericiliyinin tələblərinə uyğun hazırlanmaqla sosial və büdcə siyasətinin ümumi məqsədlərinə, Azərbaycan Respublikasının büdcə sisteminin vahidlik və müstəqillik prinsiplərinə müvafiqdir və gələn il şəhid ailələrinin, qazilərin, pensiya və müavinət alan bütün vətəndaşlarımızın sosial rifahının yaxşılaşması üçün etibarlı təminat yaradacaqdır.

Sonra komitə sədri "İşsizlikdən Sığorta Fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihəsi barədə məlumat verib. O, bildirib ki, 2026-cı ildə fondun gəlirləri 238,3 milyon manat, fondun 2026-cı il yanvarın 1-nə yaradılmış ehtiyatından 2026-cı ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsaitin həcmi isə 28,1 milyon manat nəzərdə tutulub. Gələn ildə işsizlikdən sığorta haqları üzrə yığımların 236,6 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da 2025-ci ilin təsdiq edilmiş müvafiq göstəricisindən 30,3 milyon manat çoxdur.

2026-cı ildə İşsizlikdən Sığorta Fondunun xərcləri 266,4 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da keçən illə müqayisədə 5,7 milyon manat çoxdur. Gələn il fondun xərclərinin 28 milyon manatı işsizliyə görə sığorta ödənişləri üçün nəzərdə tutulub. Bu, cari ildəkindən 11 milyon manat çoxdur. İSF-nin xərclərinin 77 milyon manatı, yaxud 29 faizi özünüməşğulluq tədbirlərinin maliyyələşməsinə yönəldiləcək.

İclasda çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev bildirib ki, dövlət başçısı tərəfindən həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri də əhalinin sosial rifahının yaxşılaşdırılması, sosial müdafiənin gücləndirilməsi və nəticədə hər bir vətəndaşımıza layiqli həyat səviyyəsinin təmin edilməsidir. Son 7 ildə Azərbaycanda 5 sosial islahat zərfi həyata keçirilmiş, bu islahatlar 4 milyon vətəndaşımızı əhatə etmiş, maliyyə tutumu isə illik əlavə olaraq 7,6 milyard manat təşkil etmişdir.

Cari ildə 5-ci sosial islahat zərfi çərçivəsində 1 yanvar tarixindən minimum əməkhaqqı 16 faiz, 1 fevral tarixindən isə minimum pensiya 14,3 faiz artırılıb. 1 yanvar tarixindən hərbi qulluqçuların aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılıb. Ümumilikdə 5-ci sosial islahat paketi 1,9 milyon vətəndaşı əhatə etmişdir. Cari ildə əhaliyə pensiya ödənişləri ötən illə müqayisədə 10 faiz, pensiyaların orta məbləği isə 9 faiz artırılmışdır.

Görülmüş işlərin məntiqi nəticəsi olaraq növbəti ildə dövlət büdcəsində sosialyönlü xərclər 2025-ci illə müqayisədə 236 milyon manat çox olmaqla 17 milyard 146 milyon manat təşkil edir. Sosialyönlü xərclərin dövlət büdcəsində xüsusi çəkisinin 41,1 faiz olması nəzərdə tutulur. Bununla yanaşı, 2026-cı ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərclərinin 4 milyard 873 milyon manat həcmində olması proqnozlaşdırılır. Bu göstərici 2025-ci ilin proqnoz edilən göstəricisindən 121,2 milyon manat və ya 2,6 faiz çoxdur.

Nazir qeyd edib ki, Dövlət Sosial Müdafiə Fondunun 2026-cı il üçün gəlirlərinin 79,2 faizinin və ya 6,6 milyard manatının məcburi dövlət sosial sığorta daxilolmaları üzrə formalaşacağı proqnozlaşdırılır. Bu isə cari ilin müvafiq göstəricisindən 593,7 milyon manat və ya 10 faiz çoxdur.

Ümumilikdə, 2025-ci ilin təsdiq edilmiş göstəriciləri ilə müqayisədə 2026-cı il üçün büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 3,6 faiz və ya 73,4 milyon manat, qeyri-büdcə sektoru üzrə daxilolmalar isə 13,1 faiz və ya 520,3 milyon manat artımla nəzərdə tutulub.

2026-cı ildə fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait 1 milyard 700 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da 2025-ci il üzrə təsdiqlənmiş transfert məbləğindən 100 milyon manat və ya 6,3 faiz çoxdur. Bildirilib ki, dövlət büdcəsindən transfertin DSMF-nin gəlirlərindəki payının 2026-cı ildə 20,4 faizə düşməsi proqnozlaşdırılır.

Fondun 2026-cı il üzrə ümumi xərclərinin 96,6 faizi və ya 8 milyard 196 milyon manatı əhaliyə ödənişlərin payına düşür. Bu göstərici 2025-ci illə müqayisədə isə 788 milyon manat çoxdur. Bu məbləğin 7 milyard 993 milyon manatı əmək pensiyalarının, 203,6 milyon manatı isə sosial sığorta hesabına verilən müavinət xərclərinin payına düşür. 2026-cı il üzrə əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 2025-ci ilin təsdiqlənmiş xərcləri ilə müqayisədə 782,4 milyon manat və ya 10,9 faiz artımla nəzərdə tutulub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev İşsizlikdən Sığorta Fondunun 2026-cı il üçün büdcəsi barədə deyib ki, fondun gəlirlərinin 236,6 milyon manatı, yaxud 99,3 faizi işsizlikdən sığorta haqları üzrə yığım hesabına formalaşacaq ki, bu da 2025-ci ilin təsdiq edilmiş müvafiq göstəricisindən 30,3 milyon manat və ya 15 faiz çoxdur. Büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 51,9 milyon manat, qeyri-büdcə təşkilatları üzrə isə 184,7 milyon manat proqnozlaşdırılır. Sığorta haqları üzrə yığımın 78 faizi qeyri-büdcə sektorunun payına düşəcək.

Fondun 2026-cı il üzrə xərclərinin 77 milyon manatı özünüməşğulluq proqramının təşkilinə, 26 milyon manatı peşə hazırlığının və əlavə təhsilin təşkilinə, 28 milyon manatı işsizliyə görə sığorta ödənişlərinə, 1,5 milyon manatı peşəyönümlü məsləhət xidmətlərinin göstərilməsinə, 3,7 milyon manatı haqqı ödənilən ictimai işlərin təşkilinə, 1 milyon manatı peşə standartlarının hazırlanmasına, 6 milyon manatı sosial iş yerlərində əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsinə, 2 milyon manatı sosial müəssisələrin yaradılmasına və məqsədli proqramların həyata keçirilməsinə, 1 milyon manatı isə digər aktiv məşğulluq tədbirlərinə yönəldiləcək. Ümumilikdə, 2026-cı ildə İSF-in vəsaiti hesabına 450 minə yaxın şəxsin aktiv məşğulluq tədbirlərinə cəlb olunması gözlənilir.

Anar Əliyev çıxışının sonunda dövlət büdcəsindən növbəti il üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətləri üzrə ayrılan vəsaitlərin həcmi və strukturu barədə də məlumat verib.

İclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək, Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun 2026-cı il üzrə dövlət büdcələri layihələri barədə Palatanın rəylərini təqdim edib. O, bildirib ki, rəylər üç əsas istiqamət üzrə qruplaşdırılıb. Birinci istiqamət fondun büdcəsinin proqnozlaşdırılması ilə bağlıdır və burada əsas makroiqtisadi parametrlər, təsiredici amillərin dinamikası və ölkənin sosial-iqtisadi vəziyyəti nəzərə alınıb. O, ikinci istiqamətin fondun gəlirləri ilə bağlı olduğunu söyləyərək, əsas gəlir mənbəyinin sosial sığorta haqlarından daxilolmaların təşkil etdiyini vurğulayıb. Üçüncü istiqamət isə fondun xərclərini əhatə edir və qeyd olunub ki, bu xərclərin əsas hissəsini əhaliyə ödənişlər təşkil edir. Vüqar Gülməmmədov əlavə edib ki, DSMF və İSF-nin büdcə layihələri müvafiq qanunvericiliyin tələblərinə uyğun hazırlanıb. Rəydə fondların gəlir və xərclərinin təhlili aparılıb, pensiya təminatı sisteminin dayanıqlığı ilə bağlı qeydlər və Palatanın müvafiq tövsiyələri öz əksini tapıb.

İclasda çıxış edən Azərbaycan Respublikası maliyyə nazirinin müavini Himalay Məmişov bildirib ki, gələn il büdcə xərclərinin 68 faizdən çoxu sosialyönümlü sahələrə yönəldiləcək. 2026-cı ildə sosial müdafiə və sosial təminat xərcləri 4,9 milyard manat təşkil edəcək, bu da əvvəlki ilə nisbətən 2,6 faiz çoxdur.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov təqdim edilən qanun layihələri barədə fikirlərini açıqlayaraq, rəhbərlik etdiyi komitə tərəfindən DSMF və İSF-nin büdcə layihələrinin dəstəkləndiyini söyləyib. Komitə sədri Azərbaycanda dövlət siyasətinin iqtisadi siyasətlə sosial siyasətin uzlaşdırılmasına əsaslandığını və bunun ölkə Prezidenti tərəfindən qeyd edilən əsas prinsiplərdən biri olduğunu vurğulayıb. O, sosial xərclərin artırılmasında rasional iqtisadi siyasətin, o cümlədən makroiqtisadi sabitlik və maliyyə dayanıqlığının önəmli amillər olduğunu və bu baxımdan makroiqtisadi sabitliyin, iqtisadi artımın təmin edilməsinin iqtisadi siyasətin əsas hədəfləri olaraq müəyyən edildiyini bildirib.

Komitə sədri büdcədənkənar fondların, o cümlədən DSMF-nin və İSF-nin həm də dövlət büdcəsi ilə bilavasitə bağlı olduğunu deyib. Həm büdcə siyasətində, həm vergi siyasətində edilən dəyişikliklərin DSMF və İSF-in gəlir və xərclərinə təsir göstərdiyini söyləyib. Komitə sədri Dövlət Sosial Müdafiə Fondunun dayanıqlığının təmin edilməsinin, dövlət pensiya təminatı sisteminin gücləndirilməsinin vacibliyindən danışıb. O, vurğulayıb ki, həm DSMF, həm də İSF artan dinamikaya malikdir və bu, ölkəmizdə iqtisadi inkişafın nəticəsidir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında" qanun layihəsini təqdim edərkən bildirib ki, sənədə əsasən, 2026-cı il üçün yaşayış minimumu ölkə üzrə 300 manat, əmək qabiliyyətli əhali üçün 317 manat, pensiyaçılar üçün 245 manat məbləğində müəyyən edilib.

Komitə sədri "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi barədə bildirib ki, layihədə ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2026-cı il üçün ehtiyac meyarının həddi 300 manat məbləğində müəyyən olunub.

Tədbirdə iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli də çıxış edib. O, son illər ərzində Azərbaycan iqtisadiyyatında dinamik artımın müşahidə edildiyini, 2025-ci ildə ÜDM-in gözlənilən artımının qeyri-neft-qaz sektoru hesabına təmin ediləcəyini, ortamüddətli dövr üçün qeyri-neft-qaz sektoru və onun sahələri üzrə davamlı inkişafın proqnozlaşdırıldığını qeyd edib. ÜDM-in növbəti ildə 2,9 faiz, 2026-2029-cu illərdə orta hesabla 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in növbəti ildə və ortamüddətli dövrdə 5 faiz artacağının proqnozlaşdırıldığını nəzərə çatdırıb.

Nazir müavini qeyd edib ki, "Yaşayış minimumu haqqında" qanunun 4-cü maddəsinə müvafiq olaraq, təkliflər irəli sürülərək "Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında" qanun layihəsi hazırlanıb. O bildirib ki, əmək qabiliyyətli əhali üçün, pensiyaçılar üçün və uşaqlar üçün yaşayış minimumunun dəyəri proqnozlaşdırılarkən Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilən göstəricilər cari və növbəti illər üçün gözlənilən inflyasiya göstəriciləri ilə uyğunlaşdırılmaqla hesablanıb.

Daha sonra Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov müzakirə olunan məsələlərlə əlaqədar təmsil etdiyi qurumun mövqeyini açıqlayıb. O, yaşayış minimumunun tərkibi üzrə Dövlət Statistika Komitəsi tərəfindən məlumatların təqdim edildiyini deyib, həm cari il üçün hesablanmış proqnoz göstəricisinin, həm də növbəti il üçün olan göstəricilərin komitənin məlumatı ilə uyğunluq təşkil etdiyini bildirib.

Qanun layihələrinin müzakirəsində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov, Əmək və sosial siyasət komitəsi sədrinin müavini Elşad Musayev, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, deputatlar - Əlibala Məhərrəmzadə, Vüqar Bayramov, Müşfiq Cəfərov, Rövşən Muradov, Əli Məsimli, Soltan Məmmədov çıxış ediblər, növbəti ilin dövlət büdcəsi layihəsi ilə bağlı fikirlərini açıqlayıblar.

Komitələrin birgə iclasında gündəlikdəki 4 qanun layihəsinin hər biri birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Şəhid analarının iştirakı ilə Vətən müharibəsində Zəfərin 5 illiyinə həsr olunmuş tədbir keçirilib









**Noyabrın 5-də 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərin 5 illiyinə həsr olunan tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən tədbirə ölkəmizin müxtəlif bölgələrindən gələn Birinci Qarabağ müharibəsi, Vətən müharibəsi, Aprel və Tovuz döyüşləri, eləcə də antiterror əməliyyatları zamanı şəhid olmuş qəhrəmanlarımızın anaları dəvət olunublar.

"Fire Land Group" tərəfindən təşkil olunan tədbir həm də "Mənim oğlum qəhrəmandır!" layihəsinin 5 illik yubileyinə təsadüf edib.

Çıxış edənlər Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuzun şücaətindən və 44 günlük Vətən müharibəsində tarixi Zəfər nəticəsində torpaqlarımızın erməni işğalından azad edilməsindən, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan Vətən övladlarının qəhrəmanlıqlarından danışıblar.

Tədbir zamanı "44" adlı tammetrajlı bədii filmin treylerinin təqdimatı olub. Film Vətən müharibəsində Zəfərə gedən yoldan, ordumuzun qəhrəmanlığından bəhs edir.

Daha sonra Azərbaycanın tanınmış incəsənət xadimləri çıxış ediblər.

Şəhid Hüseyn Tağıyevin anası Mətanət Məmmədova AZƏRTAC-a müsahibəsində Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dərin təşəkkürünü bildirərək deyib: "Biz şəhid anaları, həyat yoldaşları və qazilər müxtəlif tədbirlərdə bir araya gəlirik. Bizləri unutmurlar, həmişə yad edirlər. Buna görə hər kəsə minnətdaram".

Şəhid baş leytenant Rahim Mikayılovun anası Ulduz Mikayılova isə müsahibədə oğlunun şəhidlik zirvəsinədək ucalan döyüş yolundan danışıb, dövlətimizin şəhid ailələrinə dəstəyini yüksək qiymətləndirib.

Tədbirin sonunda şəhid ailələri Leyla Əliyeva və Arzu Əliyevaya xatirə hədiyyəsi təqdim ediblər. Onlar dövlətimizin və Heydər Əliyev Fondunun hər zaman şəhid ailələrinə göstərdiyi diqqət və qayğıya görə təşəkkürlərini bildiriblər.

Artıq beş ildir ki, "Mənim oğlum qəhrəmandır!" və "Mənim atam qəhrəmandır" layihələri çərçivəsində şəhidlərimizin xatirəsi yad edilir, onların ailələri bir araya gətirilir. Bu illər ərzində keçirilən silsilə tədbirlərdə ümumilikdə 5000-ə yaxın şəhid anası və 1700-dən çox şəhid övladı iştirak edib.

O cümlədən bu il ramazan ayı ərzində "Mənim oğlum qəhrəmandır!" layihəsi üzrə Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən görüşlərdə Azərbaycanın bütün bölgələrindən 2000-ə yaxın şəhid anası bir araya gəlib.

Qeyd olunan tədbirlər şəhid ailələrinə diqqət və qayğının, onların qəhrəman övladlarının xatirəsinə ehtiramın ifadəsi olmaqla yanaşı, bu istiqamətdə dövlət tərəfindən görülən işlərə dəstək məqsədi daşıyır.

# Leyla Əliyeva və Arzu Əliyeva arıçılıq məhsullarının sərgi-satış yarmarkasını ziyarət ediblər







**Noyabrın 5-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva 25-ci Yubiley Arıçılıq Məhsullarının Ənənəvi Respublika Sərgi-Satış Yarmarkasını ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, ziyarət zamanı Leyla Əliyeva və Arzu Əliyeva stendlərə baxış keçirib, arıçıların təqdim etdikləri müxtəlif növ bal və arıçılıq məhsulları ilə maraqlanıb, istehsal prosesi, keyfiyyət göstəriciləri barədə məlumat alıblar. Onlar arıçılarla mövsümi məhsuldarlıq və satış imkanları barədə səmimi söhbət edib, xatirə şəkilləri çəkdiriblər.

Qeyd edək ki, yarmarkada bu il 43 regiondan 280-dən çox fermer iştirak edir. IDEA İctimai Birliyinin təşəbbüsü ilə gənclər arasında ekoloji sahibkarlığın təşviqi məqsədilə həyata keçirilən "Gənc arıçı" layihəsinin iştirakçıları yarmarkada fəal şəkildə iştirak ediblər. Yarmarkaya 4 "Gənc arıçı" ailəsi tərəfindən ümumilikdə 1128 kiloqram bal təqdim edilib.

Xocalı rayonunda fəaliyyət göstərən "Güllü Yaylaq" arıçı kooperativi yarmarkada ilk dəfə təmsil olunub. Kooperativin yaradıcısı - Xocalı rayonunun Ballıca kəndindən olan Qənirə Əsədova uzun illərdir arıçılıqla məşğuldur. Kooperativin məqsədi qadınların kənd təsərrüfatında məşğulluğunu artırmaq, yerli arıçılıq ənənələrini qorumaq və ekoloji cəhətdən təmiz məhsulların istehsalını təşviq etməkdir. Hazırda "Güllü Yaylaq" kooperativi 5 üzvdən ibarətdir və yarmarkaya 6 növ arıçılıq məhsulu daxil olmaqla 400 kiloqram məhsul təqdim edib.

Həmçinin Leyla Əliyevanın təşəbbüsü ilə bu ilin sentyabrında Kəlbəcər rayonunda keçirilmiş "Kəlbəcər bal festivalı 2025"in iştirakçıları yarmarkada məhsullarını təqdim ediblər. Xüsusi vurğulanmalıdır ki, Prezident İlham Əliyevin çıxışlarında Kəlbəcər balına göstərdiyi diqqət və dəstək bu bölgənin balının keyfiyyətinə və tanınmasına verilən ən yüksək dəyərin göstəricisidir. Bu gün Kəlbəcər balı öz təbii xüsusiyyətləri və keyfiyyəti ilə seçilərək, Azərbaycanın milli brendlərindən birinə çevrilməkdədir.

Qeyd edək ki, yarmarkada 100 tondan çox bal və 15 növdən çox müxtəlif arıçılıq məhsulu satışa çıxarılıb.

# Bakı Kitab Mərkəzində "Zəfər sevinci" adlı musiqili-ədəbi gecə keçirilib









**Bakı Kitab Mərkəzində ölkəmizin tanınmış elm, mədəniyyət və ictimaiyyət xadimlərinin iştirakı ilə Vətən müharibəsində qazanılan tarixi Qələbənin 5 illiyinə həsr olunmuş "Zəfər sevinci" adlı ədəbi-musiqili gecə təşkil olunub.**

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbirin əvvəlində Vətənimizin azadlığı və torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbiri açan Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva şəhidlərimizin qəhrəmanlığının hər zaman xalqımızın qürur mənbəyi olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun otuz ilə yaxın düşmən işğalı altında olan torpaqları azad etməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması müstəqil dövlətçilik tariximizin ən şərəfli səhifəsidir.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi çıxışında Vətən müharibəsində qazandığımız Qələbənin xalqımız üçün mənəvi əhəmiyyətindən, şəhidlərin igidliyinin və qəhrəmanlığının gələcək nəsillər üçün örnək rolundan danışıb.

Tədbirdə şəhid Rövşən Nurzadənin atası Xalq artisti Əli Nur, Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin qrup komandiri, Vətən Müharibəsi Qəhrəmanı, şəhid baş gizir Camal İsmayılovun həyat yoldaşı Fatimə İsmayılova, Vətən Müharibəsi Qəhrəmanı, şəhid mayor Elçin Mansurovun anası Məleykə Məcidova çıxış ediblər.

Daha sonra tədbir bədii hissə ilə davam etdirilib. Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının nəzdində fəaliyyət göstərən Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin solistlərinin və Beynəlxalq Muğam Mərkəzinin Cahangir Cahangirov adına xor kollektivinin ifasında xalq mahnıları və bəstəkar əsərləri səsləndirilib.

Tədbirdə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qəhrəmanlıq səhnələrini, azad edilmiş şəhər və kəndlərin görüntülərini, eləcə də şəhidlərin xatirəsinin əbədiləşdirilməsini əks etdirən videoçarx nümayiş olunub.



# AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

## ŞANLI ZƏFƏR - 5 İL





# Qürur və fəxarət günü

## Bakı tarixi Zəfərimizin beş illiyi münasibətilə möhtəşəm parada hazırlaşır

**"Bir neçə gündən sonra biz tarixi Zəfərimizin beş illiyini qeyd edəcəyik. Hərbi parad təşkil ediləcək. Beş il əvvəl, 2020-ci ilin dekabrında Zəfər paradı keçirilmişdir. 2023-cü ildə Xankəndidə hərbi parad keçirilmişdir ki, Azərbaycanın suverenliyi tam bərpa edilmişdir. Bir neçə gündən sonra Azadlıq meydanında hərbi paradın keçirilməsi böyük hadisədir, qürurverici hadisədir. Azərbaycan xalqı bu Şanlı Zəfərlə bundan sonra əbədi fəxr edəcək". Bunu Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında çıxışı zamanı deyib.**

Bir neçə gündür parada hazırlıqla bağlı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin, o cümlədən Azərbaycan Ordusunun bölmələri ilə məşqlər keçirilir.

Hazırlıq məşqləri zamanı Bakı şəhəri və ətraf ərazilərdə aviasiya vasitələrinin uçuşları, avtomobil və döyüş texnikalarının, həmçinin gəmilərin müəyyən edilmiş marşrutlar üzrə hərəkəti və yerdəyişməsi icra olunur.

Ümumiyyətlə, Zəfər paradı Azərbaycan xalqının müstəqillik və ərazi bütövlüyü uğrunda apardığı mübarizənin simvolu olaraq böyük əhəmiyyət kəsb edir. Bu paradın keçirilməsi həm də xalqın milli qürurunun və tarixi qalibiyyətinin təntənəsidir. Zəfər paradı 2020-ci il noyabrın 8-də Böyük Qələbənin və 44 günlük Vətən müharibəsinin şanlı qalibiyyətinin qeyd olunması məqsədilə təşkil olunur. Zəfər paradı Azərbaycanın Silahlı Qüvvələrinin, xüsusilə də ordu və polisin peşəkarlığının, döyüş hazırlığının və vətənpərvərliyinin təntənəsidir. Hərbi parad qalibiyyətin yalnız siyasi rəhbərlik tərəfindən deyil, həm də Azərbaycanın güclü ordu quruculuğu ilə mümkün olduğunu göstərir. Bu, eyni zamanda Azərbaycan Ordusunun beynəlxalq miqyasda tanınması və gücünün nümayişidir. Bu paradın keçirilməsi Azərbaycanın ərazi bütövlüyünün bərpasını, Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edildiyini simvolizə edir. Bu, illərlə davam edən münaqişənin sona çatması, həmçinin Azərbaycan xalqı üçün uzun müddət gözlənilən bir qələbənin əlamətidir. Parad həm də Azərbaycan dövlətinin ərazi bütövlüyünü və müstəqilliyini qorumaq istiqamətində atdığı mühüm addımların təntənəsidir.

Zəfər paradı Azərbaycanın zəngin tarixini və mədəniyyətini dünyaya nümayiş etdirmək üçün bir vasitədir. Paradda iştirak edən zabit və əsgərlər, hərbi texnikalar ordumuzun qüdrətini, döyüş qabiliyyətini göstərir.

Qələbə paradı beynəlxalq aləmə də mühüm bir mesaj verir. Bu, Azərbaycanın milli suverenliyini və müstəqilliyini qorumaq haqqının tanınması, habelə torpaqlarını işğaldan azadetmə haqqının təsdiqidir. Parad digər ölkələrə və xalqlara münaqişələrin sülh yolu ilə həllinin, amma eyni zamanda xalqın və dövlətin öz hüquqlarını qorumaq üçün son dərəcə qətiyyətli olmasının vacibliyini təsdiqləyir.

Beş il öncə Vətən müharibəsində qələbəni bizə bəxş edən qüdrətli Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni əzəli torpaqlarımızdan qovub. Müzəffər Ali Baş Komandan İlham Əliyev bu qələbəni belə dəyərləndirib: "Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir".

Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirən reallıqdır.

Zəfər paradı həm də gələcək nəsillərə Azərbaycanın müstəqilliyi uğrunda göstərdiyi fədakarlıqların və qazandığı zəfərlərin əhəmiyyətini anladan simvoldur. Bu, xalqın tarixini və bu günə qədərki mübarizəsini gələcək nəsillərə tanıtmaq üçün bir fürsətdir. Tədbir həm də gələcəkdə Azərbaycanın qələbələrini daha da artırması və müstəqilliyini qorumağa davam etməsi üçün bir motivasiya mənbəyi olacaq.

Bir sözlə, bu parad təkcə hərbi qələbənin deyil, həm də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, milli birlik və qürurunun simvoludur. Bu tədbir Azərbaycanın tarixi zəfərinin təntənəsi olmaqla yanaşı, xalqın və dövlətin gələcəkdəki məqsədlərinə doğru daha da irəliləməsinə və beynəlxalq aləmdə güclü bir mövqe tutmasına zəmin yaradır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Zəngilanda "Zəfərin beş ili: Dövlətçilik və hüququn qələbəsi" mövzusunda konfrans keçirilib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş tarixi Zəfərin beşinci ildönümü münasibətilə Baş Prokurorluq tərəfindən Zəngilan Konqres Mərkəzində "Zəfərin beş ili: Dövlətçilik və hüququn qələbəsi" mövzusunda konfrans təşkil olunub.**

İştirakçılar Ulu Öndər Heydər Əliyevin Zəngilan rayonunun Ağalı kəndində ucaldılmış büstünü və Zəngilan şəhərində yerləşən Şəhidlər xiyabanını ziyarət edərək gül dəstələri qoyublar, Ulu Öndərin və şəhidlərimizin əziz xatirəsini ehtiramla yad ediblər.

Konfransdan əvvəl Ümummilli Lider Heydər Əliyevin, eləcə də Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılmış mübarizələrdə şəhid olmuş qəhrəman əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın xatirəsi birdəqiqəlik sükutla yad edilib, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.






Baş prokuror Kamran Əliyev tədbiri giriş sözü ilə açaraq Zəfərin beşinci ildönümünün dərin mənəvi və tarixi əhəmiyyətindən danışıb. O, Azərbaycan xalqının bu möhtəşəm Qələbə üçün Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi milli dövlətçilik kursuna, Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasətinə, eləcə də xalq-ordu birliyinə borclu olduğunu vurğulayıb. Baş prokuror bildirib ki, 44 günlük Vətən müharibəsi Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi olmaqla, beynəlxalq hüququn və ədalətin qələbəsini təmin edib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun misilsiz qəhrəmanlığı nəticəsində ərazi bütövlüyümüz bərpa olunub, dövlət suverenliyi tam təmin edilib.

Kamran Əliyev həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vətən müharibəsi və sonrakı bərpa-quruculuq dövründə göstərdiyi humanitar və mənəvi liderlik fəaliyyətini qeyd edib. O, Birinci vitse-prezidentin qayğısı sayəsində şəhid ailələrinə, qazilərə və müharibədən zərər çəkmiş insanlara göstərilən dəstəyin dövlətimizin sosial ədalət siyasətinin bariz nümunəsi olduğunu bildirib.

Baş prokuror çıxışında işğaldan azad edilmiş ərazilərdə prokurorluq orqanlarının fəaliyyətinin təşkili, hüquqi sistemin bərpası və qanunçuluğun təmin olunması istiqamətində görülən işlərdən danışıb, bu sahədə qarşıda duran prioritet vəzifələri diqqətə çatdırıb.

Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev çıxışında dövlət başçısının rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin aparıldığını, qısa müddətdə müasir infrastrukturun qurulduğunu qeyd edib. O, Zəngilan rayonunda keçirilən bu kimi tədbirlərin dövlətçiliyimizin möhkəmlənməsinə və Zəfərin ideoloji dəyərinin gənc nəslə ötürülməsinə xidmət etdiyini vurğulayıb.

Azərbaycan Respublikasının hərbi prokuroru, baş prokurorun müavini Bəhruz Əhmədov Vətən müharibəsi dövründə və ondan sonrakı mərhələdə hərbi prokurorluq orqanlarının həyata keçirdiyi hüquqi nəzarət tədbirlərindən danışıb, dövlətin müdafiə qabiliyyətinin və hərbi intizamın qorunmasında prokurorluğun mühüm rolunu qeyd edib.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik və Təhqiqat Baş İdarəsinin rəisi Azər İbrahimov hərbi sahədə şəffaflıq və qanunçuluğun təmin edilməsi istiqamətində görülən tədbirləri, həmçinin Baş Prokurorluqla əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırıb.

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Qubadlı Əlahiddə Sərhəd Diviziyasının komandiri Azad Abdullayev sərhəd təhlükəsizliyinin təminində əldə olunan uğurları, azad edilmiş sərhəd bölgələrində yaradılan yeni infrastruktur və xidmət şəraitini iştirakçılara təqdim edib.

Milli Məclisin deputatı Ceyhun Məmmədov çıxışında Azərbaycan Zəfərinin həm siyasi, həm mənəvi, həm də hüquqi qələbə olduğunu vurğulayıb və ölkəmizin regionda sülhün və sabitliyin təminatçısına çevrildiyini qeyd edib.

Zəngilan rayon prokuroru Qibləli Kərimov isə rayonun azad edilməsindən sonra prokurorluq orqanlarının fəaliyyətinin təşkili, hüquq-mühafizə strukturları ilə koordinasiya və qanunçuluğun təmin olunması istiqamətində görülən işlər barədə məlumat verib.

Konfrans çərçivəsində Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli tərəfindən "Qarabağ Azərbaycandır!" kitabının II cildinin təqdimatı keçirilib. Təqdimatda iştirakçılara məlumat verilib ki, kitabın yeni nəşri Vətən müharibəsi dövründə və sonrakı bərpa mərhələsində hüquq-mühafizə orqanlarının fəaliyyətini, ədalətin bərpası istiqamətində görülmüş işləri və beynəlxalq hüququn tətbiqi məsələlərini əhatəli şəkildə təqdim edir. Kitabda həmçinin işğaldan azad edilmiş ərazilərdə dövlətçilik, hüquq və təhlükəsizlik sahəsində həyata keçirilmiş tədbirlər, müharibə zamanı və sonrasında prokurorluq orqanlarının həyata keçirdiyi hüquqi nəzarət tədbirləri barədə geniş məlumatlar yer alıb. Təqdimat zamanı tədbir iştirakçılarının bir qisminə kitab nüsxələri hədiyyə olunub və Zəfərin ideoloji və tarixi əhəmiyyəti geniş auditoriyaya çatdırılıb.

Konfrans çərçivəsində Zəfərin beşinci ildönümünə həsr olunmuş videoçarx nümayiş etdirilib, səmərəli müzakirələr aparılıb.

Müzakirələr zamanı Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor Ayxan Rüstəmzadə, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru Zaur Əliyev, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının professoru, hüquq elmləri doktoru Namiq Əliyev, Vəkillər Kollegiyası Tədris Mərkəzinin direktoru, hüquq elmləri doktoru, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ üzrə UNESCO kafedrasının professoru Əmir Əliyev, Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının prorektoru, hüquq üzrə fəlsəfə doktoru Elçin Xələfov, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Fəlsəfə-hüquqi təlimlər və suverenlik şöbəsinin müdiri, hüquq elmləri doktoru, professor Habil Qurbanov, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü İlhamə Həsənova, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Cinayət prosesi kafedrasının rəisi, hüquq üzrə fəlsəfə doktoru Səyyad Ağayev, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin rəis müavini, iqtisad üzrə fəlsəfə doktoru, hüquq elmləri doktoru Mirəli Kazımov, eləcə də Qarabağ Universitetinin birinci kurs tələbəsi Ayan Əliyeva öz qeydlərini bildirib və konfransın əhəmiyyəti barədə fikirlərini bölüşüblər.

Xatirə fotoşəkli çəkildikdən sonra işğaldan azad edilmiş bölgələrin yenidən qurulması, "yaşıl bərpa" və davamlı inkişaf istiqamətində həyata keçirilən layihələrə dəstək məqsədilə Zəngilan şəhərində ağacəkmə aksiyası keçirilib.

Aksiya çərçivəsində hər ağacın torpağa əkilməsi Azərbaycanın milli birliyi, müstəqilliyi və tarixi Zəfərin simvolu kimi qiymətləndirilib, həm rəmzi, həm də ekoloji əhəmiyyət daşıyıb.

# Addım-addım Zəfərə doğru...

**Azərbaycan xalqı bu günü - Zəfər Gününü çox gözləmişdi. Otuz ilə yaxın Ermənistanın işğal altında saxladığı Qarabağ və Şərqi Zəngəzur torpaqlarının həsrətini çəkdi.**

## Azərbaycanın haqq səsi

Azğınlaşmış ermənilərin zülmlərindən, işgəncələrindən canını götürüb qaçmış neçə-neçə soydaşımız bu illər ərzində doğma, isti ocağına qovuşmaq ümidi ilə gözlərini əbədi yumdu.

Sağ qalanlar onların da dərdlərini, yurd həsrətlərini öz nisgillərinə, mənəvi ağrılarına çevirdilər. Bir gün haqqın, ədalətin qalib gələcəyinə, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin azad ediləcəyinə ümid bəslədilər.

Qarabağı, Şərqi Zəngəzuru böyüklərin söhbətindən tanıyan uşaqlar böyüdülər. Onlar da böyüklərin yağıların at oynatdıqları vətən torpaqları nisgilinə və qələbə ümidlərinə şərik oldular.

Ərazilərinin iyirmi faizi 1990-cı illərdə işğalçı ermənilər tərəfindən qəsb edilən, bir milyon vətəndaşı dədə-baba yurdundan qovulan, məcburi köçkün kimi yaşamaq məcburiyyətində qalan Azərbaycan dövləti on illər boyu haqq səsini dünyaya çatdırmağa çalışdı. Rəsmi Bakı münaqişənin sülh yolu ilə həllinə səy göstərdi. Təəssüf ki, bu istiqamətdə qətiyyətlə atdığı addımlar, həyata keçirdiyi işlər nəticəsiz qaldı.

İşğalçı ölkə cinayət əməllərinə görə beynəlxalq hüquq çərçivəsində cavab vermədi. Çünki bir sıra ölkələr və nüfuzlu beynəlxalq təşkilatlar rəsmi İrəvanın işğalçılıq siyasətini gizli və ya açıq şəkildə dəstəklədilər. 1992-ci ildə ATƏM (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi 1995-ci il yanvarın 1-dən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlandırıldı) tərəfindən Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məqsədilə yaradılmış, Amerika Birləşmiş Ştatları (ABŞ), Fransa və Rusiyanın həmsədrlik etdiyi Minsk qrupu da üzərinə götürdüyü vəzifəni yerinə yetirmədi. Əksinə, öz fəaliyyəti ilə problemin həllini daha da müşkülə saldı və beləliklə, sülhə zərbə vurdu. ATƏT-in Minsk qrupu iyirmi səkkiz il ərzində Ermənistanla Azərbaycan arasında münaqişənin dayandırılması, sülhün bərqərar olunması istiqamətində uğurlu addım atmaq əvəzinə erməni vandalizminə göz yumdu.

Beynəlxalq səviyyədə cəzasız qalması işğalçı Ermənistanı yalnız arxayınlaşdırmadı, həm də daha da azğınlaşdırdı. Qəsb etdiyi Azərbaycan ərazilərini xarabalığa çevirdi. Bir zamanlar gözəlliyi, abadlığı ilə görənləri heyran edən Qarabağı və Şərqi Zəngəzuru qəddar ermənilər yerlə yeksan etdilər. İşğalçılar nəinki müasir tikililəri, həmçinin ölkə və dünya əhəmiyyətli qədim abidələri də məhv etdilər. Qarabağın və Şərqi Zəngəzurun gözəl və zəngin təbiəti də erməni vandalizminə məruz qaldı. Həmin ərazilərdəki nadir ağacların və quşların məskəni olan sıx meşələri qırdılar, saf bulaqları qurutdular. Qarabağın və Şərqi Zəngəzurun təbii sərvətlərini taladılar.

## Düşmənə xəbərdarlıq

Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur əraziləri böyük bir xarabalığa çevrildi.

1994-cü il mayın 12-də atəşkəs sazişi imzalandı. Ancaq rəsmi İrəvan atəşkəs rejiminə əməl etmədi. Otuz ilə yaxın davam etdirdiyi işğal müddətində Ermənistan Azərbaycana qarşı təxribatlarından və terror əməllərindən əl çəkmədi. İşğalçı ölkənin silahlı qüvvələri tərəfindən ordumuzun mövqeləri və dinc soydaşlarımızın yaşayış yerləri intensiv olaraq iriçaplı silahlardan atəşə tutuldu. Nəticədə atəşkəs dövründə də Azərbaycanın əsgər və zabitləri, mülki vətəndaşları şəhid oldular.

2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın silahlı qüvvələrinin yenidən atəşkəs rejimini pozması səbəbindən İkinci Qarabağ müharibəsi başladı. Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə qarşı əks-hücum əməliyyatına başlamalı oldu. Həmin gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində dedi: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var".

Prezident İlham Əliyev hər zaman dövlətimizin və xalqımızın iradəsini, məqsədini qətiyyətlə ifadə etmiş, ən yüksək kürsülərdən dönə-dönə bəyan etmişdi ki, biz heç zaman torpaqlarımızın işğalı ilə barışmayacağıq. Lazım gələrsə, döyüş yolu ilə ərazilərimizi erməni işğalçılarından geri alacağıq. Artıq həmin zaman gəlmişdi.

Sentyabrın 27-də xalqa müraciətində dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev Ermənistanın davamlı olaraq həyata keçirdiyi təxribatları diqqətə çatdıraraq, Azərbaycanın heç bir təxribata əl atmadığını, sadəcə olaraq, öz maraqlarını müdafiə etdiyini, öz mövqeyini dəstəklədiyini və öz siyasətini alnıaçıq apardığını bildirdi: "Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır".

Prezident, Ali Baş Komandan İlham Əliyevin "Əgər erməni əsgəri ölmək istəmirsə, rədd olsun Azərbaycan torpaqlarından!" deyə bəyan etməsi düşmənə xəbərdarlıq idi.

## Tariximizin unudulmaz səhifələri

İşğalçı ölkənin silahlı qüvvələri 2020-ci ilin payızında Azərbaycan Ordusunun qarşısında nə qədər gücsüz və aciz olduğunu gördü. Nə illərlə məğlubedilməzlikləri barədə uydurduqları mif, nə də Qarabağ və Şərqi Zəngəzur torpaqlarında qurduqları istehkamlar, qazdıqları səngərlər köməklərinə çatdı. Azərbaycan Ordusunun əsgər və zabitlərinin mərdliyi, rəşadəti, cəsarəti qarşısında qorxuya düşən Ermənistan silahlı qüvvələrinin əsgər və zabitləri çarəni döyüş meydanlarından qaçmaqda gördülər.

Azərbaycanın igid oğulları otuz ilə yaxın düşmən işğalı altında qalmış kəndlərimizi, rayonlarımızı, şəhərlərimizi azad etdilər və addım-addım böyük Zəfərə yaxınlaşdılar. 44 gün davam edən İkinci Qarabağ müharibəsinin hər günü Azərbaycan tarixinə şanlı qələbələrlə yazıldı.

2020-ci il noyabrın 8-də Qarabağın tacı, Azərbaycanın mədəniyyət mərkəzi Şuşa düşmən işğalından azad edildi. Hələ müharibənin davam etdiyi günlərdə Prezident İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində müxbirin Şuşa ilə bağlı sualına cavabında bildirmişdi: "İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının öz torpaqlarına bağlılığını bir daha nümayiş etdirdi. Azərbaycanın igid oğullarının rəşadəti qəhrəmanlıq salnamələrinə çevrildi. Onlar vətən torpaqlarının Ermənistanın işğalından azad olunması naminə bir an belə öz canlarını düşünmədən şiddətli döyüşlərə atıldılar, sinələrini düşmən güllələrinə sipər etdilər.

Bu gün qalib xalqın nümayəndəsi olmağın qüruru, iftixarı ilə yaşayan hər bir azərbaycanlı üçün 44 günlük İkinci Qarabağ müharibəsi yalnız Zəfər təntənəsi deyil, həm də tariximizin unudulmayacaq, hər zaman ibrət alınacaq səhifələrindəndir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# İlham Əliyev elmin inkişafına xüsusi önəm verir



# Prezidentdən xoş müjdə

## Qarabağ və Şərqi Zəngəzurda bizim çox zəngin təbii resurslarımız var

**Dünya iqtisadiyyatı sürətlə rəqəmsallaşır. Süni intellekt (Sİ) artıq elmi-fantastik filmlərin mövzusu olmaqdan çıxaraq, gündəlik həyatın, xüsusən də ticarət sektorunun ayrılmaz hissəsinə çevrilib. Mağazalarda alıcı davranışlarını təhlil edən sistemlərdən tutmuş, onlayn platformalarda fərdi təkliflər təqdim edən alqoritmlərə (yəni hər hansı bir problemi həll etmək və ya müəyyən bir məqsədə çatmaq üçün əməliyyatların dəqiq və məntiqi şəkildə təsviri) qədər hər yerdə Sİ-nin izi görünür.**

Bu texnologiya sayəsində şirkətlər müştərilərini yaxşı tanıyır, satışlarını optimallaşdırır və bazar tendensiyalarını daha dəqiq proqnozlaşdıra bilirlər. Artıq rəqabət üstünlüyü yalnız məhsulun keyfiyyətindən deyil, həm də süni intellektdən nə dərəcədə səmərəli istifadə olunmasından asılıdır. Qlobal rəqabətin artdığı bir şəraitdə süni intellektdən istifadə edən müəssisələr bazarda üstün mövqe qazanır, resurslara qənaət edir və müştəri təcrübəsini yaxşılaşdırırlar. Bu səbəbdən ticarət əməliyyatlarında Sİ tətbiqi müasir iqtisadiyyatın əsas istiqamətlərindən biri kimi diqqət mərkəzindədir.

Sİ ticarət proseslərinə müxtəlif səviyyələrdə inteqrasiya olunur. Ən geniş tətbiq sahələrindən biri müştəri davranışlarının analizidir. Böyük məlumat bazalarını təhlil edən Sİ insanların maraqlarını və xərcləmə meyillərini müəyyən edir. Nəticədə həm ənənəvi mağazalar, həm də onlayn platformalar hər bir müştəriyə fərdi yanaşma göstərir, alış vərdişlərinə uyğun təkliflər təqdim edir və endirim kampaniyalarını daha dəqiq planlaşdıra bilirlər. Ehtiyatların idarə olunması, məhsul tələbatının proqnozlaşdırılması və logistik qərarların optimallaşdırılmasında da Sİ böyük rol oynayır. Məsələn, bəzi iri ticarət şəbəkələri artıq süni intellektin köməyi ilə məhsul çatışmazlığını əvvəlcədən təxmin edir və anbar ehtiyatlarını vaxtında yeniləyirlər.

Ümumdünya Ticarət Təşkilatının (ÜTT) "World Trade 2025" hesabatına əsasən, kiçik və orta müəssisələrin təxminən 70 faizi hesab edir ki, Sİ tətbiq etməklə ticarət xərclərini əhəmiyyətli dərəcədə azaltmaq mümkündür. Burada söhbət yalnız əməliyyat səmərəliliyinin artmasından getmir. Məsələnin kökündə həm də bazar tendensiyalarının təhlili, qiymət strategiyasının formalaşdırılması və müştəri davranışlarının dəqiq proqnozlaşdırılması dayanır ki, bu da müəssisələrə daha çevik qərarlar qəbul etməyə, rəqabət üstünlüyü qazanmağa və satış strategiyalarını real vaxt rejimində optimallaşdırmağa imkan verir. Sİ ticarətdə insan faktorundan asılılığı azaldır, məlumatların daha dəqiq emalını təmin edir və sürətli qərarvermə imkanı yaradır. Bu, xüsusilə qlobal rəqabətin kəskinləşdiyi dövrdə müəssisələr üçün strateji üstünlük hesab olunur. Məsələn, süni intellektlə idarə olunan satış sistemləri real vaxtda bazar qiymətlərini izləyərək optimal satış strategiyasını müəyyənləşdirə bilir.

Sİ texnologiyaları artıq biznesin müşahidəçisi deyil, onun qərarvericisidir. O, bazar siqnallarını vaxtında tutur, resurs itkisini azaldır və idarəetməni daha çevik edir. Bu baxımdan süni intellektə sadəcə texnoloji yenilik demək doğru olmaz. Bu texnologiyalar rəqabətqabiliyyətli iqtisadiyyatın mühüm tərkib hissəsi olmaqla, iqtisadiyyatın bütün sahələrində keyfiyyətcə yeni mərhələnin əsasını qoyur. Həmin istiqamət Azərbaycanda da dövlət siyasətinin prioritetlərindən biridir. Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyində səsləndirdiyi fikirlər bu baxışın bariz nümunəsidir: "Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır və əlbəttə ki, biz burada Azərbaycan alimlərinin fəal iştirakını gözləyirik. Bu istiqamətdə aparılan digər islahatlar nəticəsində əldə edilmiş uğurlar rəqəmsallaşma ilə bağlıdır. Biz rəqəmsallaşmanı ölkəmizdə geniş miqyasda tətbiq edirik və bunun faydasını görürük. Yəni bəlkə də geniş ictimaiyyət bunu yaxından izləmir. Ancaq biz görürük ki, rəqəmsallaşma olan sahələrdə artıq işin keyfiyyətinin əmsalı da artır, səmərə də artır və nəticə etibarilə daha gözəl nəticələr hasil edilir. Ona görə təsadüfi deyil ki, artıq bir müddət bundan əvvəl bizim hökumət strukturunda nazirliyə "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" adı verilmişdir və bu istiqamətdə də addımlar atılır".

"World Mining Data 2025" hesabatının nəticələrinə əsasən, Azərbaycanda Sİ texnologiyalarının inkişafı üçün strateji əhəmiyyət kəsb edən mineral ehtiyatlar sırasında qızıl, mis və gümüş mühüm yer tutur. Ölkənin dünya bazarındakı payı qızıl üzrə 0,08, mis üzrə 0,01, gümüş üzrə isə 0,02 faiz təşkil edir. Region miqyasında Gürcüstan gümüş, İran mis və gümüş, Qazaxıstan isə hər üç metal üzrə istehsal göstəriciləri ilə fərqlənərək beynəlxalq bazarda əhəmiyyətli mövqe qazanıb. Azərbaycanın strateji mineral ehtiyatları təkcə iqtisadi deyil, həm də texnoloji baxımdan böyük potensiala malikdir. Prezident İlham Əliyev AMEA-dakı çıxışında bu fakta da toxunaraq, ölkənin təbii sərvətlərinin gələcək inkişaf üçün əhəmiyyətini belə ifadə edib: "Hesab edirəm ki, yaxın bir neçə ay ərzində bizə çox yaxşı xəbərlər gələcək. Bizim çox zəngin təbii resurslarımız var - qızıl, gümüş, mis yataqları, polimetal yataqlar. Onların aşkarlanması, kəşfiyyatı, işlənməsi bizə böyük xeyir gətirəcək, Qarabağ və Şərqi Zəngəzur regionlarımızda iş yerlərinin böyük sayda yaradılmasına gətirib çıxaracaqdır".

Beləliklə, süni intellekt artıq gələcəyin deyil, bu günün reallığıdır. Həmin reallıqdan maksimum fayda əldə etmək üçün resurslarımızı, elmi potensialımızı və innovativ yanaşmamızı birləşdirmək vacibdir. Azərbaycanın qarşısında duran əsas vəzifə imkanları iqtisadi üstünlüyə çevirmək və Sİ dövrünün regional liderlərindən biri olmaqdır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Dövlətimizin başçısı diqqəti elmin milli inkişaf modelindəki roluna çəkdi

**Bu ilin mart ayında Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi ilə bağlı sərəncam imzalamışdı. Noyabrın 3-də isə AMEA-nın 80 illik yubiley tədbiri keçirildi. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi yalnız bir tarix deyil, həm də ölkəmizin intellektual inkişaf yoluna verilən yüksək siyasi dəyərin təsdiqidir.**

Yubiley tədbirində Prezident İlham Əliyevin iştirakı, eləcə də səsləndirdiyi fikirlər, sadəcə, hesabat xarakteri daşımırdı, bu həm də çağdaş dünyada sürətlə dəyişən ideoloji, texnoloji və təhlükəsizlik mühitinə Azərbaycanın öz mövqeyini necə müəyyənləşdirdiyini göstərən yol xəritəsi oldu. Dövlət başçısının elmin milli inkişaf modelindəki roluna, insan kapitalına qoyulan sərmayəyə, texnoloji suverenliyə, kibertəhlükəsizliyə, postmüharibə dövrünün reallıqlarına verdiyi qiymət isə ölkənin qarşıdakı onilliklər üçün müəyyən etdiyi strateji kursu bir daha aydın şəkildə ortaya qoydu. Dövlət başçısı həm ölkə elminin keçdiyi yolu dəyərləndirdi, həm də gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən strateji mesajlar verdi.

Prezident İlham Əliyev Azərbaycan alimlərinin müasir dövrdə də ölkənin inkişafına əhəmiyyətli töhfələr verəcəyinə əminliyini ifadə etdi. Prezident Ulu Öndər Heydər Əliyevin ötən əsrin 70-ci illərindən Azərbaycan elminə göstərdiyi qayğını xüsusi olaraq qeyd etdi. Həmin illəri xatırlayanda gözlərimiz önündə elm sahəsində görülən işlərin panoraması yaranır. Həmin illərdə yeni tədqiqat institutlarının yaradılması, yüz minlərlə gəncin SSRİ-nin aparıcı universitetlərinə göndərilməsi respublikamızın intellektual potensialının gücləndirilməsində mühüm rol oynadı. Bu siyasət müstəqillik dövründə də uğurla davam etdirilir və yenə də minlərlə azərbaycanlı gənc dünyanın nüfuzlu ali məktəblərində təhsil alıb, təcrübə kursları keçib ölkəyə qayıdırlar.

Prezident İlham Əliyev vurğuladı ki, elm və təhsil sahəsində Ulu Öndərin xətti bu gün yeni forma və məzmunla davam edir. Son on ildə elmin inkişafına qayğı, bu sahəyə ayrılan vəsaitin iki dəfədən çox artırılması, "Elm haqqında" qanun və elmi strategiyaların qəbulu bunun bariz nümunəsidir.

Dövlət başçısı çıxışında dünyanın sürətlə dəyişən geosiyasi və iqtisadi mənzərəsini də təhlil etdi. Müharibələrin, toqquşmaların artması, beynəlxalq hüququn zəifləməsi, qlobal təhlükəsizlik sisteminin aşınması müasir dövrün əsas reallıqları kimi qiymətləndirildi.

Cənab İlham Əliyev vurğuladı ki, son on ilədək Azərbaycanın əsas hədəfi ərazi bütövlüyünün bərpası idi. Bu gün isə ölkə artıq işğaldan azad edilmiş torpaqlarda quruculuq mərhələsinə qədəm qoyub və Zəfərin beşinci ildönümünü iftixarla qeyd edir.

Prezident İlham Əliyev texnoloji inkişafı ölkəmizin gələcək təhlükəsizliyinin əsas şərti kimi qiymətləndirərək bildirdi: "Təbii sərvətlər tükənəndir, tükənməz sərvət isə intellektual potensialdır. Əsas sərmayə məhz insan kapitalına qoyulmalıdır".

Dövlət başçısı süni intellektin sürətlə genişlənən rolundan danışaraq ölkənin bu sahədə geri qalmamalı olduğunu qeyd etdi. Kibertəhlükəsizlik məsələsi isə müasir dövrdə fiziki təhlükəsizliyin ayrılmaz hissəsi kimi qiymətləndirildi. İndi dünyada kiberhücumlar geniş vüsət alıb. Azərbaycan da bu hücumlara məruz qalmışdır. Odur ki, Kibertəhlükəsizlik Mərkəzinin yaradılması vaxtında atılmış addımdır: "Biz beynəlxalq tərəfdaşlarla, bu sahədə böyük təcrübəyə malik olan şirkətlərlə çox geniş proqramlar üzərində işləyirik ki, özümüzü maksimum dərəcədə qoruya bilək, müdafiə edə bilək. Çünki kibertəhlükəsizlik, yəni virtual təhlükəsizlik deyil. Bu, hər bir ölkənin fiziki təhlükəsizliyidir. Bu gün həm müharibələrin, deməli, aparılma qaydaları dəyişir, təhlükələrin mənbələri dəyişir və dünya dəyişir. Ona görə bu sahəyə əgər lazımi diqqət göstərilməsə, heç bir başqa müdafiə imkanı bizi böyük problemlərdən qoruya bilməz. Ona görə kibertəhlükəsizliklə bağlı həm dövlət, həm Azərbaycanın elm ictimaiyyəti birgə işləməlidir" .

Dövlət başçısı nitqində həyatımızın bütün sahələrinə sirayət etmiş, gündəlik iş normasına çevrilmiş süni intellektdən də bəhs etdi: "On il bundan əvvəl bu barədə heç kim heç nə danışmırdı. Bu gün artıq bu, ölkələrin gələcək inkişafının ayrılmaz hissəsidir. Biz burada geri qalmamalıyıq. Ona görə dövlət lazımi addımları atır. Biz hər zaman əsas aparıcı xəttin, yəni, "mainstream"in, əgər belə demək mümkündürsə, arxasınca gedirik və geri qalmamalıyıq. Ona görə Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır və əlbəttə ki, biz burada Azərbaycan alimlərinin fəal iştirakını gözləyirik".

Müdafiə sənayesi sahəsində əldə olunan uğurlar, hərbi məhsulların ixracı, PUA texnologiyalarında Azərbaycanın regionda lider mövqeyə yüksəlməsi tədbirin diqqətçəkən məqamlarından biri oldu. Azərbaycan artıq bir çox ölkəyə hərbi təyinatlı məhsul ixrac edir. Qarşıya vəzifə qoyulub ki, həm daxili tələbatı ödəmək, həm də ixrac etmək üçün ölkəmizdə bu istiqamətdə çox ciddi sənaye klasteri yaradılsın. Çünki bu, çox gəlirli sahədir və nəzərə alsaq ki, bu gün dünyanın bütün yerlərində müharibələr alovlanır, dayanmır, hərbi təyinatlı məhsullara bundan sonra da ehtiyac olacaq. Ona görə bu istiqamətdə ölkəmizdə fəal iş aparılır. Azərbaycan alimləri də bu işə töhfələrini verməlidirlər.

Zəfərin beşinci ildönümünə təsadüf edən yubiley tədbirində Prezident xüsusi olaraq vurğuladı ki, Vətən müharibəsi dünyanın aparıcı hərbi strukturlarında öyrənilən nümunəyə çevrilib: "Bildiyiniz kimi, onun hər bir mərhələsi, hər bir günü öyrənilir, öyrənilib və bir çox beynəlxalq hərbi ali məktəblərində də tədqiq edilir".

Prezident çıxışında ölkədə qeyri-neft sektorunun genişlənməsini, xarici borcun rekord dərəcədə aşağı olmasını, valyuta ehtiyatlarının artmasını sağlam iqtisadi modelin göstəricisi kimi qiymətləndirdi. Dövlət başçısı azad edilmiş ərazilərdə bərpa və enerji layihələrinin miqyasına diqqət çəkərək bildirdi ki, artıq Qarabağ və Şərqi Zəngəzurda 30-dan çox su-elektrik stansiyası tikilib, yeni günəş və külək parkları inşa olunur.

Prezident İlham Əliyev həmçinin gələcək geoloji kəşfiyyat işlərinin müsbət nəticələr verəcəyini, yeni yataqların iqtisadiyyat üçün ciddi dividendlər gətirəcəyini vurğuladı.

Çıxışda milli-mənəvi dəyərlər, tariximizin öyrənilməsi və Azərbaycan dilinin saflığının qorunması xüsusi yer tutdu. Prezident bildirdi ki, Azərbaycan vətəndaşları öz tarixini dərindən bilməli, ana dilini qorumağı milli vəzifə kimi qəbul etməlidirlər.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Elmin inkişafı Azərbaycanın yüksəlişinin prioritetlərindən biridir

**Noyabrın 3-də Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyi münasibətilə keçirilən təntənəli mərasimdə geniş və dərin məzmunlu çıxış etdi. Bu çıxış yalnız elmi ictimaiyyət üçün deyil, ümumilikdə Azərbaycan cəmiyyəti üçün böyük əhəmiyyət daşıdı. Tədbirdə səslənən fikirlər ölkəmizin daxili və xarici siyasətinin strateji istiqamətlərini aydın şəkildə ortaya qoydu, Azərbaycanın bugünkü inkişafının elm, təhsil, milli iradə və zəka üzərində qurulduğunu bir daha təsdiqlədi.**



Prezident İlham Əliyev çıxışında vurğuladı ki, Azərbaycan Milli Elmlər Akademiyası səkkiz onillik ərzində böyük inkişaf yolu keçərək elmi fikrin təşəkkülündə, milli elmi kadrların formalaşmasında və elmi potensialın artmasında mühüm rol oynamışdır. Müxtəlif ictimai-siyasi mərhələlərdən keçməsinə baxmayaraq, elm hər zaman dövlətin diqqət mərkəzində olmuş, bu sahəyə dəstək heç vaxt zəifləməmişdir. Bu ənənənin əsası ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və həmin dövrdə akademiyanın fəaliyyəti təkmilləşdirilmişdir. Yeni elmi-tədqiqat institutları yaradılmış, elmin maddi-texniki bazası gücləndirilmişdir.

Ulu Öndərin təşəbbüsü ilə minlərlə Azərbaycan gənci keçmiş sovet ittifaqının ən nüfuzlu ali məktəblərinə göndərilmiş, bu addım gələcək nəsillər üçün möhkəm intellektual təməl formalaşdırmışdır. Məhz həmin siyasətin davamı kimi bu gün gənclərin xaricdə təhsili istiqamətində dövlət proqramları uğurla həyata keçirilir, Azərbaycan elminin gələcəyini təmin edən yeni nəsil mütəxəssislər yetişdirilir.

Dövlət başçısı çıxışında xatırlatmışdır ki, müstəqilliyin ilk illəri ölkəmiz üçün ağır sınaqlarla dolu bir dövr olmuşdur. Dövlətçiliyin bərpası, sabitliyin yaradılması və inkişaf yoluna çıxmaq üçün elmi potensialın səfərbər edilməsi zəruri idi. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra ilk görüşlərindən birinin Milli Elmlər Akademiyasında keçirilməsi təsadüfi deyildi - bu, elmin dövlətin dirçəlişində və strateji qərarların qəbulunda mühüm rol oynadığını nümayiş etdirirdi. Həmin dövrdə maliyyə imkanları məhdud olsa da, elmin inkişafına xüsusi diqqət ayrılmış, tədqiqat sahələrinin genişlənməsi üçün məqsədyönlü addımlar atılmışdır. Bu siyasət nəticəsində elm dövlətin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Son onilliklərdə Azərbaycan elminin maddi-texniki bazası əsaslı şəkildə yenilənmiş, akademiyanın fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılması təmin edilmişdir. Elmə ayrılan vəsait iki dəfədən çox artırılmış, yeni Elmi Kitabxana və Milli Ensiklopediya üçün müasir binalar inşa edilmiş, institutların avadanlıq təminatı yenilənmişdir. 2009-cu ildə yaradılan Elm Fondu vasitəsilə alimlərə qrant dəstəyi göstərilmiş, "Elm haqqında" qanun və Milli Strategiyanın qəbul edilməsi elmi idarəetmədə keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymuşdur.

Çıxışda dövlət başçısı tərəfindən xüsusi olaraq qeyd olundu ki, elmin inkişafı ölkənin iqtisadi və siyasi müstəqilliyinin əsas dayaqlarından biridir. Azərbaycanın bu gün müstəqil, güclü və öz daxili imkanlarına arxalanan bir dövlət kimi formalaşması məhz elmi potensiala və bilik əsaslı iqtisadiyyata söykənir. Son illərin iqtisadi göstəriciləri də bunu təsdiqləyir. Neft hasilatının azalmasına baxmayaraq, qeyri-neft sektoru iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib. Xarici borcun ÜDM-ə nisbətinin cəmi 6 faiz olması, valyuta ehtiyatlarının isə bu borcdan 16 dəfə çox olması Azərbaycanın maliyyə sabitliyinin və siyasi müstəqilliyinin real göstəricisidir.

Bu iqtisadi dayanıqlılıq azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işlərinin aparılmasına imkan yaratmışdır. Kəlbəcərdən Zəngilana, Şuşadan Xankəndiyə qədər həyata keçirilən layihələr, müasir şəhərsalma nümunələri və elmi-tədqiqat yönümlü təşəbbüslər Azərbaycanın gələcəyinə hesablanmış strateji proqramlardır.

Dövlətimizin başçısı çıxışında həmçinin Azərbaycan tarixinin elmi əsaslarla tədqiqinin vacibliyinə də toxundu. Çar Rusiyası dövrünə aid xəritələr belə Azərbaycanın tarixi torpaqlarını və indiki Ermənistan ərazisindəki Azərbaycan mənşəli toponimləri aydın şəkildə göstərir. Alimlərin bu istiqamətdə daha geniş tədqiqatlar aparması, beynəlxalq səviyyədə həqiqətləri elmi dəlillərlə təqdim etməsi vacib amil kimi vurğulandı. "Azərbaycan gəncləri öz tarixini dərindən öyrənməli, dünya ictimaiyyəti isə bu həqiqətləri elmi əsaslarla tanımalıdır" - fikri çıxışın əsas mesajlarından biri kimi səsləndi.

Azərbaycan dilinin saflığının qorunması məsələsi də nitqin mühüm hissəsini təşkil etdi. Təmiz, saf və ədəbi Azərbaycan dilinin dövlətin milli kimliyinin təməl sütunlarından biri olduğu vurğulandı. Dilin kənar təsirlərdən qorunması, onun zəngin ifadə imkanlarının saxlanılması hər bir azərbaycanlının mənəvi borcu kimi dəyərləndirildi. Bu istiqamətdə alimlər, yazıçılar, jurnalistlər və ictimaiyyət nümayəndələri birgə fəaliyyətə çağırıldı.

Çıxışın mühüm məqamlarından biri də Azərbaycanın 2020-ci ildə qazandığı tarixi Qələbəyə həsr olunmuş hissə idi. 44 günlük Vətən müharibəsi nəticəsində əldə edilən bu Qələbə yalnız hərbi gücün deyil, milli birliyin, elmin, zəkanın və müasir dövlət siyasətinin təntənəsidir. Bu uğur həmçinin Azərbaycanın müstəqil qərar qəbul etmək, öz taleyinə sahib çıxmaq əzminin təcəssümüdür.

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi yalnız bir elmi qurumun tarixi yolunu deyil, həm də elmin dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrildiyi böyük bir mərhələni simvolizə edir. Mərasimdə səslənən fikirlər elmi-ictimai düşüncənin inkişaf istiqamətlərini, milli tərəqqinin prioritetlərini və gələcəyə baxışı müəyyənləşdirdi.

Elm, dil, tarix və vətənpərvərlik - bu dörd dəyər Azərbaycan dövlətçiliyinin sabahını formalaşdıran sütunlardandır. Məhz bu dəyərlərə söykənərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha güclü, daha müasir və elmi əsaslara dayanan bir dövlət kimi dinamik inkişafını davam etdirir.

***Zaur ŞÜKÜROV,***
***Milli Məclisin deputatı***

# İlham Əliyev elmin inkişafına xüsusi önəm verir

## Gələcək inkişafın strateji manifesti



**"Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində çıxışı bir daha göstərdi ki, dövlətimizin elmə, təhsilə və intellektual inkişaf strategiyasına yanaşması sistemli, uzaqgörən və milli dövlətçilik maraqlarına tam uyğundur. Dövlətimizin başçısı bu tarixi çıxışı ilə həm Azərbaycan elminin keçdiyi böyük inkişaf yoluna qiymət verdi, həm də gələcəyə yönəlik konkret və strateji prioritetləri müəyyənləşdirdi. Azərbaycan elminin bugünkü səviyyəyə çatmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri vardır".**



Bunu qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Fatma Yıldırım deyib. Deputatın sözlərinə görə, hələ ötən əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə elmi-tədqiqat institutlarının yaradılması, elmin maliyyələşdirilməsi və gənclərin keçmiş ittifaqın aparıcı ali məktəblərinə göndərilməsi siyasəti ölkəmizin intellektual potensialını köklü şəkildə gücləndirmişdir. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən müasir dövrdə uğurla davam etdirilməsi elmi inkişafın dayanıqlı modelini formalaşdırmışdır. Azərbaycan elminin müstəqillik illərində əldə etdiyi nailiyyətlər məhz bu strateji xəttin davamının nəticəsidir.

Bu gün dünyada hər bir ölkənin gücü onun texnoloji potensialı ilə ölçülür. Süni intellektin, rəqəmsal iqtisadiyyatın və müdafiə sənayesinin inkişafı istiqamətində Azərbaycanın əldə etdiyi nəticələr bu gün reallığa çevrilmişdir. Təbii resurslar bir gün tükənə bilər, lakin elmi potensial, intellektual güc və insan kapitalı Azərbaycanın əbədi və tükənməz sərvətidir. Bu baxımdan, dövlətin elmə, gənclərin təhsilinə, innovasiyaya və texnologiyaya yatırdığı sərmayə, əslində, Azərbaycanın gələcəyinə, milli təhlükəsizliyinə qoyulan sərmayədir. Bu barədə danışan Fatma Yıldırımın sözlərinə görə, elm, süni intellekt, rəqəmsallaşma və kibertəhlükəsizlik sahələrində dövlətimizin atdığı addımlar göstərir ki, Azərbaycan artıq postneft dövrünün reallıqlarına tam hazırdır.

Deputat qeyd edib ki, Azərbaycan son 10 ildə inkişaf və zəfərlərlə dolu bir dövr yaşayıb. Torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası və suverenliyin tam təmin olunması müasir Azərbaycan tarixinin ən şanlı səhifəsidir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda gedən bərpa və yenidənqurma işləri, həyata keçirilən enerji, sənaye və geoloji layihələr ölkəmizin gələcək inkişafında mühüm yer tutur.

Fatma Yıldırımın sözlərinə görə, Prezident İlham Əliyevin Azərbaycan dili ilə bağlı dərinməzmunlu fikirləri hər birimizi düşündürməlidir: "Bu çağırış hər bir ziyalının, jurnalistin, müəllimin, ictimai xadimin və vətəndaşın məsuliyyətini artırır. Ana dilimizin saflığının qorunması milli kimliyimizin əsas sütunudur və dövlət başçısının bu məsələni prioritet səviyyəsində qaldırması strateji əhəmiyyət daşıyır".

Bu gün ölkəmizin iqtisadi göstəriciləri bir daha təsdiqləyir ki, Azərbaycanın iqtisadiyyatı sağlam təməllər üzərində qurulub. Deputat qeyd edib ki, bu güc bizə həm təhlükəsizliyimizi qorumağa, həm də azad edilmiş torpaqlarda böyükmiqyaslı bərpa və quruculuq işlərini sürətlə aparmağa imkan verir: "Bu gün Azərbaycanın enerji siyasəti artıq yeni mərhələyə qədəm qoyub. Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpaolunan enerji layihələri, su, külək və günəş stansiyalarının yaradılması ölkəmizi "yaşıl enerji" ixracatçısına çevirəcək. Eyni zamanda Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı geoloji tədqiqatlar yeni iqtisadi imkanların əsasını qoyur. Bu istiqamətdə Azərbaycan alimlərinin iştirakı dövlətin onlara verdiyi yüksək etimadın təzahürüdür".

Cənab Prezidentin çıxışında vurğuladığı əsas məqamlardan biri də Azərbaycan xalqının tarixi həqiqətlərinin təhrifinə qarşı elmi əsaslı mübarizənin vacibliyi idi. Fatma Yıldırım bildirib ki, bu məsələdə alimlərimizin, tarixçilərimizin, ictimai təşkilatların üzərinə böyük məsuliyyət düşür: "Biz öz tariximizi yalnız tədqiq etməməli, həm də dünyaya elmi əsaslarla təqdim etməliyik. Cənab Prezident İlham Əliyevin AMEA-nın 80 illiyində etdiyi çıxış təkcə elm bayramı münasibətilə deyilmiş sözlər deyil, bu, gələcək inkişafın strateji manifestidir. Elm, təhsil, texnologiya, milli tarix, dil və dövlətçilik məsələlərini vahid ideoloji xətdə birləşdirən bu nitq müasir Azərbaycan dövlətçiliyinin yeni mərhələsinin ideya təməlini təşkil edir. Azərbaycan alimləri, ziyalıları və gəncləri bu çağırışlardan ruhlanaraq ölkəmizin dayanıqlı, texnoloji və intellektual inkişafı naminə daha əzmlə çalışmalıdırlar. Çünki bu gün biz təkcə müstəqil dövlətin deyil, həm də Zəfər qazanan, elmə və intellektə söykənən qalib millətin nümayəndələriyik".

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Prezident İlham Əliyev intellektual potensialın inkişafının əsas ölçülərini və meyarlarını müəyyən etdi

**Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində çıxışı zamanı səsləndirdiyi fikirlərə ayrı-ayrılıqda toxunmadan öncə mütləq onu vurğulamalıyıq ki, bununla Liderimizin yüksək erudisiyalı bir insan, siyasi xadim olduğu bir daha təsdiqini tapdı. Elm ictimaiyyətinin mövcud reallığı, qarşıda dayanan çağırışlar, dövlət başçımızın gözləntiləri, tapşırıq və tövsiyələri çıxış zamanı ardıcıllıqla səsləndirildi. Çıxış proqram xarakterli olmaqla yanaşı, həm də Azərbaycan elminin keçdiyi inkişaf yoluna nəzər yetirdi.**



Dövlətimizin başçısının da bildirdiyi kimi, Milli Elmlər Akademiyası Azərbaycan elminin lokomotividir. Bu baxımdan, bu sahə xüsusi diqqət və qayğıdan kənar qalmamalı, hətta dövlətin və cəmiyyətin fəaliyyətinin nüvəsində yerləşməlidir. Qürurverici məqam odur ki, həqiqətən də Azərbaycan tarixin müxtəlif dönəmlərindən, quruluşlardan, sınaqlardan keçsə də, elmin inkişafı diqqətdən kənar qalmamışdır. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin hərtərəfli fəaliyyətini hər zaman əsas tutaraq elmin inkişafına da yüksək diqqət və qayğı göstərmişdir. Hələ sovetlər dövründə Ulu Öndər Heydər Əliyev alimlərimizin fəaliyyətini dəstəkləməkdən ötrü dövrün risklərini belə gözə almışdır. Akademiyanın fəaliyyətinin təkmilləşdirilməsi, onun maddi-texniki təminatının yaxşılaşdırılması, yeni elmi-tədqiqat institutlarının yaradılması, elmin inkişafına nəzərəçarpan vəsaitin ayrılması Ulu Öndərin adı ilə bağlıdır. Azərbaycanlı gənclərin bilik və bacarıqlarının artırılması, onların ölkənin siyasi, iqtisadi sferalarında, orducu quruculuğunda iştirakının artırılması məqsədilə sovet ittifaqının nüfuzlu ali məktəblərində təhsil almaları üçün göndərilməsi Azərbaycanın dayanıqlı əsaslarla inkişafının, özünüdərkin daha da dərinləşdirilməsinin əsasını qoydu.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra ilk görüşünü də elə ziyalılarımızla Milli Elmlər Akademiyasında keçirmişdir. Ulu Öndərimiz məhz həmin insanların əhatəsində xalqa müraciət edərək inkişaf prioritetlərimizi ardıcıllıqla, açıq formada oradan səsləndirmişdir. Məhz bu addımın özü də yeni, çətin yola çıxan bir xalqın öz elmi, mədəni səviyyəsinin dünyaya layiqli nümayişi idi. Ən həssas dönəmlərdən biri olmasına və maddi-mənəvi çətinliklərə baxmayaraq, akademiyanın iş fəaliyyətinin dəstəklənməsi məqsədilə maddi vəsait ayrıldı.

Prezident İlham Əliyev hər bir sferada olduğu kimi, elm və təhsil sahəsində Ulu Öndərimizin müəyyən etdiyi xətti davam etdirir. Bu gün on minlərlə gəncimiz dünyanın ən reytinqli universitetlərində təhsil almaq üçün dövlət qayğısı ilə təmin olunurlar, həmin ali məktəbləri bitirdikdən sonra Vətənimizə qayıdaraq ölkəmizin daha da inkişaf etməsi üçün töhfə verirlər. Bu gün Azərbaycan elminə ayrılan vəsait iki dəfədən çox artmışdır. Yeni böyük elmi kitabxananın, Milli Ensiklopediya üçün yeni binanın, yeni elmi-tədqiqat institutlarının inşa və müasir avadanlıqlarla təchiz edilməsi Azərbaycan Prezidentinin şəxsi diqqət və qayğısı ilə həyata keçirilmişdir. Elmin inkişafı üzrə Milli Strategiyanın, "Elm haqqında" qanunun, dövlət proqramının qəbul edilməsi isə proseslərə sistematik, fundamental, koordinasiyalı baxışdır. Bu siyasətin davam etdirilməsi bilavasitə Heydər Əliyev siyasətinin davam etdirilməsi deməkdir, bu iki amil bir-biri ilə ayrılmaz şəkildə bağlı olduğundan bu, dövlətimizin və cəmiyyətimizin elmi olduğu qədər, mədəni, mənəvi və ən əsası ideoloji baxımdan da sağlam təməllər üzərində inkişafını təmin edən məsələdir.

Prezident İlham Əliyevin AMEA-dakı çıxışı müasir cəmiyyətin intellektual potensialının inkişafına və bu inkişafın önəminə bir daha işıq tutdu. Hətta deyərdim ki, bu çıxış ömürlük təhsil kontekstində intellektual potensialın inkişafının əsas ölçülərini və meyarlarını müəyyən etdi. Çıxış boyu qloballaşma, davamlı inkişaf, müasir cəmiyyətin informasiya və bilik əsaslı yüksəlişi, təhsil fəlsəfəsi, davamlı təhsil sahəsində xarici və yerli alimlərin elmi-tədqiqat işlərinin ümumiləşdirilməsi və təhlili kimi məsələlər önə çəkildi. Bir daha müəyyən olundu ki, cəmiyyətin intellektual potensialı ilə intellektual mədəniyyəti üzvi surətdə bir-biri ilə bağlıdır. Bunu möhkəmləndirən amil odur ki, Zəfərimiz haqqında dünyanın aparıcı tədqiqat institutları araşdırmalar aparır. Bu gün dünyada fərdin cəmiyyətə töhfə verə bilmə qabiliyyəti tədqiq olunur, buna sərmayə qoyulur. Müasir dövrün nəbzini tutan dövlət başçımız buna görə də bildirir ki, resurslar bir vasitədir, əsasən, kapital insanın bilik və bacarıqlarına yönləndirilməlidir. "İntellektual kapital", onun tərkib hissələrindən biri kimi "insan kapitalı" anlayışı müasir iqtisadi təhlildə aparıcı anlayış hesab olunur. Dövlət başçımız çıxış boyu intellektual potensialın inkişafı və risklərin təhlilini də dəqiqliklə verdi. Bu baxımdan, qarşıda bəzi tapşırıqlar da qoydu. Belə ki, dövlət qurumları ilə alimlərimiz arasında ünsiyyətin artırılması olduqca önəmli məsələdir ki, burada söhbət hərtərəfli amillərdən gedir. Postsənaye cəmiyyətinin transformasiyası şəraitində intellektual iqtisadiyyatın formalaşması vacib amillərdən biridir. Müasir dövrdə iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi həm resurs, həm də məhsul kimi çıxış edən bilikdir. Bilik ən böyük məhsuldur ki, buna iqtisadi sistemin bütün səviyyələrində xüsusi tələbat var. Müasir informasiya texnologiyaları və sistemlərinin inkişafı şəraitində cəmiyyətin intellektual kapitalına əsaslanaraq sosial rifahın artımını, ölkələrin beynəlxalq rəqabət qabiliyyətini təmin edirlər. Bilik cəmiyyəti dəyişdirən, yaradan, formalaşdıran, tərəqqini yayan bir iqtisadi sistem növüdür. Yəni bilik iqtisadi sistemin inkişafının nüvəsindədir.

Müasir cəmiyyətdə inkişafın sürətli dəyişiklikləri onu diktə edir ki, insan biliklərinin, səriştələrinin və bacarıqlarının davamlı və geniş şəkildə yenilənməsinə ehtiyac var. Bu ehtiyac ölkənin və ya böyük bir regionun iqtisadi səmərəliliyinə, insan kapitalının əhəmiyyətli artmasına təsir edir. İntellektual iqtisadiyyatın, inkişafın müxtəlif istiqamətlərinin, bütövlükdə cəmiyyətin formalaşması üçün milli proqramların qurulması, eləcə də bu proqramların uğurunun qiymətləndirilməsi vacib amildir. Bu, hesabatlılıq deməkdir. Yəni intellektual potensiala dövlət sərmaye qoysa da, fərd də, ölkənin elm ictimaiyyəti öz üzərinə düşən işi layiqincə yerinə yetirməli, səylərini əsirgəməməlidirlər.

Çıxışında tariximiz, şanlı Zəfərimiz və ana dilimizin incəliklərinə varan dövlət başçımız bir daha bütün cəmiyyəti səfərbər etdi ki, həm tariximizin, həm dilimizin keçmişinə olduğu qədər mövcud durumuna, gələcəyinə də bərk əllə sahib çıxaq. Azərbaycan bütün beynəlxalq konvensiyalara riayət edərək müharibə apardı. Zəfərimiz ləyaqətli Zəfərdir. Azərbaycan xalqının xislətində dağıtmaq, talan etmək, separatizm düşüncəsi tarix boyu olmayıb. Azərbaycanlılar dünyanın dörd bir yanına səpələnsələr də, həmin ölkənin, dövlətin təməl prinsiplərindən uzaq düşməyiblər. Xalqımız tarix boyu qurub-yaradan xalq olmuşdur. Məhz bu yüksək keyfiyyətlər Azərbaycan xalqını dünyada ləyaqətli xalq kimi tanıdır. Qarabağ və Şərqi Zəngəzurun bərpası sadəcə dövlətimizin deyil, xalqımızın ümdə arzularından, məqsədlərindən biridir. Qurub-yaradan xalqımızın bu məqsədi regionun inkişafına, region xalqlarının sülh və rifah içində yaşamasına gətirib çıxardacaq. Bu ali məqsəd Cənubi Qafqaz səmalarından artıq müharibə riskini təmizləyəcək.

Elm və texnologiya inkişaf etdikcə, onun arealı böyüdükcə, dünya kiçilir, bu mərhələdə ana dilimizin kiçilməsinə qəti icazə verməməliyik. Ümummilli Liderimiz Heydər Əliyev dilimizə özünəməxsus yanaşırdı, onu "ləzzətli dil" kimi xarakterizə edirdi. Düşünürəm ki, hər birimiz bu ləzzəti qoruyub saxlamalıyıq. Müzəffər Ali Baş Komandanımızın olduqca müdrik bir sözü var ki, Zəfəri qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir. Odur ki, elmli cəmiyyət formalaşdıraraq, tariximizi, dilimizi, dəyərlərimizi yüksək tutaraq bütöv Azərbaycanımızın töhfəsi üçün, tam Qələbəmizin davamlı olması üçün hər kəs çalışmalıdır.

***Azər BADAMOV,***
***Milli Məclisin deputatı***

## Prezident İlham Əliyevin AMEA-dakı çıxışı elmi ictimaiyyət üçün yeni yol xəritəsidir

**"Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasındakı (AMEA) çıxışı dövlətin elmin inkişafına dəstəyinin ifadəsidir. Prezident elm adamlarını ruhlandırmaqla, onları dövlət qurumları ilə sıx işləməyə səsləməklə, Qarabağ və Şərqi Zəngəzurda geoloji işlərə azərbaycanlı alimlərin cəlb edilməsi mesajını verməklə bu sahədə səmərəli əməkdaşlığa ehtiyac olmasına diqqət çəkib. Həmçinin dövlət qurumlarını alimlərlə işləməyə, onların tədqiqatlarından yararlanmağa və elmi bilikləri müvafiq sahələrdə tətbiq etməyə çağırıb. Elmin nailiyyətləri, tədqiqatlardan əldə olunan sübut əsaslı nəticələr istənilən sahədə dövlət qurumlarına dəstəkdir. Əldə olunan tapıntılar yeni siyasətlər hazırlamağa, cavab tədbirlərini gücləndirməyə, həmçinin mövcud siyasətləri korrektə etməyə imkan verir. Elmi sübutlara əsaslanaraq hazırlanmış istənilən siyasət uğurludur və dəqiqdir. Prezident İlham Əliyev elmin praktiki nəticələrinin olmasının, onun təkcə əsərlərdə qalmamasının vacibliyini vurğulayıb".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Pərvanə Vəliyeva səsləndirib.

O bildirib ki, Ümummilli Lider Heydər Əliyevin də apardığı dövlət siyasətinin başlıca hədəflərindən biri elmin inkişafı, bu sahəyə dövlət dəstəyinin artırılması olub. Ulu Öndərin sovet dövründə Azərbaycana rəhbərlik etdiyi vaxtda ölkədə 5 yeni ali təhsil müəssisəsi fəaliyyətə başlayıb, ali məktəblərdə təhsil alan tələbələrin sayı 70 mindən 100 minə qədər artıb. Ümummilli Lider azərbaycanlı gənclərin keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almasına xüsusi diqqət yetirərək bu sahədə əsaslı dönüş yaradıb. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə 1970-ci ildən etibarən hər il 800-900 nəfər gənc SSRİ-nin qabaqcıl ali təhsil ocaqlarına göndərilib. Bu da respublikanın milli kadr potensialının əhəmiyyətli dərəcədə güclənməsinə şərait yaradıb. Müstəqillik illərində də Ulu Öndər təhsilin inkişafını daim diqqət mərkəzində saxlayıb. Ümummilli Lider təhsil sahəsində mövcud problemlərin aradan qaldırılması, eləcə də Azərbaycanın inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanan müasir təhsil strategiyasının həyata keçirilməsi məqsədilə mühüm addımlar atıb, əhəmiyyətli fərman və sərəncamlar imzalayıb.

Deputat vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin də dövlət idarəçiliyində elmin inkişafı prioritet vəzifələrdən biri kimi qoyulub: "Son 10 ildə elmə ayrılan vəsait iki dəfədən çox artırılıb. Akademiyanın maddi-texniki bazası möhkəmləndirilib, yeni böyük elmi kitabxana, həmçinin Milli Ensiklopediya üçün yeni bina inşa edilib. 2009-cu ildə Elm Fondu yaradılıb. Bu fondun yaradılmasının əsas məqsədi isə Azərbaycan alimlərinə maddi dəstək, elmin inkişafına qrantlar çərçivəsində təkan verməkdir. Bundan başqa, Elmin inkişafı üzrə Milli Strategiya, eyni zamanda "Elm haqqında" qanun qəbul olunub və dövlət proqramı hazırlanaraq tətbiq edilib. Daha bir çox işlərin də görülməsi planlaşdırılır".

Pərvanə Vəliyeva Prezident İlham Əliyevin AMEA-dakı çıxışının Azərbaycan tarixi yaddaşının qorunması və gələcək nəsillərə doğru şəkildə çatdırılması baxımından dərin məna daşıdığına diqqət çəkib: "Dövlətimizin başçısı Qarabağ və Şərqi Zəngəzur mövzusundan söz açarkən qeyd edir ki, bu bölgələr barədə danışmaq, əslində, bütövlükdə Azərbaycan tarixindən danışmaq deməkdir. Çünki xalqımızın çoxəsrlik dövlətçilik ənənələri və mədəni irsi bu torpaqlarla sıx bağlıdır. Təəssüf ki, uzun illər ərzində Ermənistan və erməni diasporu Azərbaycanın tarixini saxtalaşdırmaq, həqiqətləri təhrif etmək istiqamətində məqsədyönlü fəaliyyət aparıb, bu təbliğat bu gün də davam edir. Prezident bildirir ki, bu cür saxtakarlıqlara qarşı ən güclü silah Azərbaycanın öz həqiqətləridir və bu həqiqətlər elmi əsaslarla dünyaya təqdim edilməlidir. Dövlətimizin başçısı xüsusilə alimlərin və elmi ictimaiyyətin bu sahədə rolunu vurğulayır. Dövlətimizin başçısı bildirir ki, Azərbaycan tarixinin araşdırılması və təbliği istiqamətində daha çox elmi əsərlərin, sərgilərin, təqdimatların, xəritələrin və hətta qısa bukletlərin hazırlanmasına ehtiyac var. Bu, həm Azərbaycan gənclərinin öz köklərini daha yaxşı tanıması, həm də beynəlxalq ictimaiyyətin ölkəmizin tarixi reallıqlarını doğru anlaması üçün vacibdir. Prezidentin diqqət çəkdiyi mühüm məqamlardan biri də tarixi xəritələrin əhəmiyyətidir. Dövlətimizin başçısı qeyd edir ki, Çar Rusiyası dövründə tərtib edilən xəritələrdə bu gün Ermənistan adlanan ərazilərdəki toponimlərin böyük əksəriyyəti Azərbaycan mənşəlidir. Bu, həmin torpaqlarda azərbaycanlıların tarixi varlığını və mədəni izlərini sübut edən faktlardandır. Beləliklə, Prezident İlham Əliyevin çıxışı həm tarixi yaddaşın qorunması, həm də elmi ictimaiyyət və cəmiyyət üçün məqsəd kimi Azərbaycan tarixinin saxtakarlıqlardan təmizlənməsinə, həqiqətlərin elmi əsaslarla dünyaya çatdırılmasına və gənc nəsildə milli kimlik şüurunun daha da möhkəmləndirilməsinə bir çağırışdır", - deyə deputat vurğulayıb.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Qusarda şəhid məzarları ziyarət edilib





**Rayon icra hakimiyyətinin əməkdaşları, Qusarın hüquq-mühafizə orqanlarının nümayəndələri, şəhid ailələri və qazilər Gədəzeyxur, Əniq, Suvacal, Çiləgir, Qayakənd, Gündüzqala, İmamqulukənd kəndlərində və Qusar şəhərində şəhid məzarlarını ziyarət ediblər.**

Ziyarət zamanı şəhidlərin xatirəsi ehtiramla yad olunub, məzarları üzərinə gül dəstələri düzülüb, ruhlarına dualar oxunub. Bildirilib ki, qəhrəman ordumuzun əsgərləri Ali Baş Komandanın rəhbərliyi altında 30 illik bir intizara son qoydu. 44 gün davam edən müharibə qələbəmizlə başa çatdı. Qusarlı gənclər bu döyüşlərdə şücaət göstərdi, onlarla döyüşçü şəhidlik zirvəsinə yüksəldi. Bu gün hər bir şəhid və qazi ailəsinə hörmət bəslənilir, onların problemləri həll edilir, şəhidlərin adları əbədiləşdirilir.

Mərasimdə iştirak edən rayon icra hakimiyyətinin başçısı Sahir Məmmədxanov şəhid ailələri və kənd sakinlərinin qayğıları ilə maraqlanıb, müraciətlərini dinləyib. Bir çox məsələlər yerindəcə həllini tapıb.

Şəhid ailələri, valideynlər və qazilər onlara göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Vətən müharibəsi şəhidi Elvin Kərimovun ailəsi ilə görüş olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyəti sədrinin müavini Faiq Ağayev Vətən müharibəsi şəhidi Elvin Kərimovun ailəsini ziyarət edib, onun övladları Müşkünaz, Əsma və Zəhra ilə görüşüb.**




Agentliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ziyarət zamanı igid döyüşçünün vətənpərvərliyi və döyüş yolundan danışılıb, şəhidin xatirəsinin daim əziz tutulacağı, ailənin bundan sonra da qayğı ilə əhatə olunacağı vurğulanıb.




Şəhid Elvin Kərimovun ailəsi nazirlik tərəfindən Ramana qəsəbəsindəki yeni yaşayış kompleksində üçotaqlı, tam təmirli mənzillə təmin olunub, həmçinin müvafiq sosial dəstək tədbirləri ilə əhatə olunub, ailə üzvlərinə sosial ödənişlər təyin edilib.

Qeyd edək ki, Elvin Kərimov Suqovuşan uğrunda gedən döyüşlərdə şəhid olub. Prezident İlham Əliyevin sərəncamları ilə o, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

## Şuşada "Könüllü qaliblər-2: Zəfər ilməsi" layihəsi həyata keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyi 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərin 5 illiyi münasibətilə Şuşada "Könüllü Qaliblər-2: Zəfər ilməsi" layihəsini həyata keçirib.**







Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan Milli Xalça Muzeyinin dəstəyi ilə həyata keçirilən layihə ötən il icra olunan "Könüllü qaliblər" proqramının davamı kimi reallaşıb.

Tədbir şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov tədbirdə çıxış edərək Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərin xalqımız üçün əbədi qürur mənbəyi olduğunu vurğulayıb. Nazirlik tərəfindən Vətən müharibəsi iştirakçıları, şəhid ailələri, qazilər, müharibə veteranları ilə bağlı ardıcıl sosial dəstək tədbirlərinin həyata keçirildiyi bildirilib.

Həmin kateqoriyalardan olan vətəndaşlara göstərilən DOST xidmətləri, onlar üçün həyata keçirilən sosial dəstək tədbirləri barədə məlumat verilib.

Müharibə veteranları döyüş xatirələrini tədbir iştirakçıları, o cümlədən DOST könüllüləri ilə bölüşüb, onların suallarını cavablandırıblar. Proqram çərçivəsində iştirakçılar üçün Şuşa şəhərində gəzinti təşkil olunub.

Eyni zamanda Qarabağ xalçasının son ilmələri simvolik olaraq məhz Vətən müharibəsi iştirakçıları tərəfindən vurulub.

## Ombudsman Aparatında Zəfər Günü ilə bağlı tədbir təşkil edilib

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında 8 Noyabr - Zəfər Günü ilə bağlı tədbir təşkil olunub.**



AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl ombudsman Səbinə Əliyeva və Aparatın kollektivi Hərbi Memorial Kompleksini ziyarət edərək, şəhidlərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Tədbirdə çıxış edən ombudsman Səbinə Əliyeva xalqımızın birlik, iradə və yenilməzliyinin rəmzi olan 8 Noyabr tarixinin hər bir azərbaycanlının yaddaşına əbədi həkk olunduğunu bildirib.

Müvəkkil Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi, ordumuzun qəhrəmanlığı və xalqımızın sarsılmaz birliyi sayəsində Vətən müharibəsində əldə edilmiş şanlı Zəfər nəticəsində torpaqlarımızın işğaldan azad olunduğunu, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpa edildiyini diqqətə çatdırıb, O, Böyük qayıdış proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq layihələrinin uğurla həyata keçirildiyini və keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıdışının təmin olunduğunu qeyd edib.

Səbinə Əliyeva müharibə və postmüharibə dövründə Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı törətdiyi müharibə cinayətlərinin araşdırılması ilə bağlı ombudsman tərəfindən faktaraşdırıcı missiyaların həyata keçirildiyini, həmin missiyaların nəticələri əsasında hazırlanmış hesabat, bəyanat və müraciətlərin beynəlxalq təşkilatlara təqdim edildiyini diqqətə çatdırıb. Müvəkkil təsisatın işğaldan azad olunmuş ərazilərdə insan hüquqlarının təmininə, sosial rifahın bərpasına yönəlmiş təşəbbüsləri davam etdirdiyini bildirib.

Daha sonra "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alizadə Zəfər Gününün xalqımızın birlik və qəhrəmanlıq rəmzi kimi gələcək nəsillərə örnək olduğunu qeyd edib, şəhid ailələrinə göstərilən diqqət və qayğının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb.

İkinci Qarabağ müharibəsinin iştirakçısı Mobil Əhmədzadə Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun göstərdiyi şücaətdən, müharibə iştirakçılarına və veteranlara dövlət tərəfindən nümayiş olunan diqqət və qayğıdan, Vətən müharibəsi dövründə ombudsmanın hərbi qulluqçuların hüquqlarının müdafiəsi istiqamətində həyata keçirdiyi fəaliyyətdən danışıb.

Ombudsman Aparatının əməkdaşı, Vətən müharibəsinin iştirakçısı Samir Quliyev əldə olunan şanlı Zəfərin Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında qalib ordumuzun fədakarlığı, xalqımızın birliyi sayəsində mümkün olduğunu bildirib.

Tədbir zamanı "Zəfər" Şəhid ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alizadə və Ombudsman Aparatının bir qrup əməkdaşı ombudsman Səbinə Əliyeva tərəfindən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) təsisatının 20 illiyi (2002-2022)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub.

## Zəfər Günü münasibətilə "Açıq qapı" günü

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin dəstəyi və Zəfər Günü münasibətilə muxtar respublika Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində "Açıq qapı" günü təşkil olunub.**



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub, Dövlət himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir vəzifəsini icra edən Azər Məmmədrəhimov çıxışında xalqımızın şanlı Zəfər Gününün böyük qürur hissi ilə qeyd olunduğunu bildirərək, bu tarixi günün dövlətimizin gücünü və xalqımızın birliyini bir daha nümayiş etdirdiyini vurğulayıb.

Azər Məmmədrəhimov qeyd edib ki, əldə olunan bu Qələbə ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcını qoyub və bütün sahələrdə, o cümlədən rəqəmsal inkişaf istiqamətində həyata keçirilən işlərə mühüm təsir göstərib. O, həmçinin Naxçıvan Muxtar Respublikasında rəqəmsal xidmətlərin genişləndirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi və innovativ həllərin təşviqi istiqamətində icra olunan layihələr barədə ətraflı məlumat verib.

Sonra nazirliyin cari il ərzindəki fəaliyyətinə həsr olunmuş təqdimat edilib. Tədbirdə dövlət proqramı çərçivəsində həyata keçirilən layihələrlə bağlı sual-cavab sessiyası olub. Sessiyada iştirakçılar nazirliyin həyata keçirdiyi layihələr, rəqəmsal infrastrukturun genişləndirilməsi, eləcə də poçt və nəqliyyat xidmətlərinin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə məlumatlandırılıblar.

Sonda qazilərə və media nümayəndələrinə göstərdikləri xidmətlərə və dəstəyə görə plaketlər təqdim edilib.

## ZƏFƏR gündəliyi
### 6 noyabr 2020-ci il

### Erməni hərbçiləri bir-birini güllələyib

Noyabrın 6-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Döyüş əməliyyatları müxtəlif intensivliklə, əsasən, cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

### Tərtər və Goranboy atəşə tutulub

Saat 08:00-dan başlayaraq, Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Qazyan və Hüsənli kəndlərini atəşə tutur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülüb. Gecə ərzində Goranboy rayonunun Tapqaraqoyunlu kəndi də düşmən tərəfindən artilleriya atəşinə tutulub.

### Düşmənin komandir heyəti daxil olmaqla, xeyli sayda canlı qüvvəsi məhv edilib

Müdafiə Nazirliyinin Hərbi İnformasiya Mərkəzində brifinq keçirilib. Qeyd edilib ki, əsasən, cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində gedən döyüş əməliyyatlarında düşmən bölmələri şəxsi heyət və texnika sarıdan itkilər verərək geriyə çəkilməyə məcbur edilib.

Ordumuz Ağdam və Ağdərə istiqamətlərində pusquya salmaqla və atəş zərbələri ilə düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını darmadağın edib. Düşmənin komandir heyəti daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobili, sursatla dolu iki KamAz maşını və qoşqusunda top olan üç Ural maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib.

### Qubadlı-Laçın istiqamətində erməni silahlıları mövqelərini ataraq qaçıblar

Düşmənin Tərtərin işğal olunmuş Göyarx kəndinin ərazisindəki minaatan heyəti ordumuzun dəqiq atəşi ilə məhv edilib. Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən onun yerini doldura bilmir, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatı və yanacaq çatışmır. Düşmən bölmələrinin idarə olunmasında problemlər yaranıb.



Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə ordumuzun zərbələrinə tab gətirə bilməyən erməni silahlıları mövqelərini ataraq qaçıblar.

### Füzulinin azad olunan kəndlərinin videogörüntüləri yayılıb

Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb. Görüntülərdə erməni vandalizminin izləri aydın şəkildə görünüb.

### Ağdərədə düşmənə məxsus "D-30" haubitsa topu sıradan çıxarılıb

Ermənistan silahlı qüvvələrinin Ağdərə yaxınlığındakı atış nöqtələrinə çıxarılan "D-30" haubitsası heyəti ilə birgə bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

### Düşmənin döyüş sursatları, yanacaq-sürtkü materialları tükənib

Ağdərədə yerləşən Ermənistan silahlı qüvvələri 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyası və 5-ci dağatıcı alayının bölmələrinin təminatında ciddi problemlər yaranıb. Belə ki, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatları, yanacaq-sürtkü materialları çatışmır.

Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən bu itkilərin yerini doldurmaq imkanına malik deyil.

Bundan əlavə, qeyd olunan hərbi hissələrlə komandanlıq arasında rabitə əlaqəsi kəsilib və bölmələrin idarə olunmasında problemlər yaranıb. Bəzi yerlərdə isə hərbçilər döyüşməkdən imtina ediblər. Onların qarşısını almaq istəyərkən bir-birilərini güllələməyə başlayıblar.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Bakıda "Fərqliliyin rəngi" adlı festival keçirilib





**2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə əlaqədar silsilə tədbirlər çərçivəsində noyabrın 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı, ölkəmizdə fəaliyyət göstərən müxtəlif dini konfessiyaların nümayəndələrinin iştirakı ilə "Fərqliliyin rəngi" adlı festival keçirilib.**

AZƏRTAC xəbər verir ki, "Bakı-Ekspo" Mərkəzində təşkil edilən tədbirin məqsədi ölkəmizdəki konfessiyalararası həmrəyliyin, milli birliyin, mənəvi vəhdətin, dini-mədəni müxtəlifliyin unikal nümunəsini təqdim etmək, habelə onların adət-ənənələrinin, mədəni irslərinin inkişafı üçün yaradılan şəraiti nümayiş etdirməkdir.

Festivalda dini qurumların fəaliyyətini, dini ənənə və dəyərlərini əks etdirən fotostendlər, ədəbiyyat, geyim nümunələri, əl işləri, eləcə də digər dini məzmunlu materiallardan ibarət sərgilər açılıb.

Tədbir iştirakçıları əvvəlcə Qafqaz Müsəlmanları İdarəsi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Roma Katolik Kilsəsinin Apostol Prefekturası, Bakı şəhəri Dağ yəhudiləri dini icması, Sefarad yəhudilərinin Bakı dini icması və Avropa yəhudilərinin Bakı dini icması, Azərbaycan Bibliya Cəmiyyəti, Azərbaycan Bəhailəri Dini Mərkəzi, Alban-udi, Krişna şüuru, Gürcü pravoslav və Molokan-ruhani xristian dini icmaları daxil olmaqla, bir çox dini qurumun stendləri ilə tanış olublar.

Tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Azərbaycandakı tolerantlıq mühitini əks etdirən videoçarx nümayiş olunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov çıxış edərək, festival iştirakçılarının hər birinə mənəvi birliyə töhfə verdikləri üçün təşəkkürünü bildirib. Komitə sədri deyib ki, ölkəmizdə mövcud olan sabitlik və harmoniyanın əsasında Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti və milli-mənəvi dəyərlərə verdiyi önəm dayanır. Konstitusiyamızda təsbit olunan vicdan azadlığı və bütün dini etiqadların qanun qarşısında bərabərliyi prinsipləri tolerantlıq modelimizin əsas hüquqi dayağı, xalqımızın əsrlər boyu formalaşdırdığı birgəyaşayış fəlsəfəsinin təsdiqidir.

Ramin Məmmədov qeyd edib ki, Azərbaycan beynəlxalq aləmdə sülh və sabitliyin hökm sürdüyü nadir nümunələrdən biri kimi tanınır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr isə bu mühiti daha da möhkəmləndirir, Azərbaycanın multikultural dəyərlərini dünya miqyasında tanıdır. O vurğulayıb ki, festival təkcə mədəni tədbir deyil, həm də suverenliyimizin, konstitusiya prinsiplərimizin və çoxəsrlik birgəyaşayış modelimizin canlı nümayişidir.

Milli Məclis Sədrinin müavini Rafael Hüseynov dini icmalar üçün ayrılmış çadırlarla tanış olarkən nümayiş olunan, əsrlərin sınağından çıxmış müqəddəs kitablara diqqət çəkib. Tarixən olduğu kimi, bu festivalda da müxtəlif dinlərin, inancların ahəngdar birləşdiyini və bu mühitdə yaranan milli özünəməxsusluqların ahənginin yarandığını qeyd edib. R.Hüseynov Azərbaycanda tolerantlıq, dinlərin rəngarəngliyi, xalqların müxtəlifliyinin aparılan uğurlu dövlət siyasətinin nəticəsi olduğunu qeyd edib. Bu ənənələrin tarix boyu yaşadığını və gələcək nəsillərə də ötürüləcəyindən əminliyini qeyd edib. Sərgidə nümayiş olunan kitabların Azərbaycan dilində olmasını yüksək qiymətləndirib. Bu ahəngdarlığın ilahi tərəfdən Azərbaycana bəxş edildiyini və bunu qoruyub gələcəyə ötürməyin mühüm vəzifə olduğunu deyib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Azərbaycanda tarixən yaşayan, sonradan buraya köç edən, özünə Vətən seçən insanların dini inancı, əqidəsi, dünyagörüşündən asılı olmayaraq, bizi birləşdirən dəyərləri üstün tutduqlarını deyib. O bildirib ki, müstəqillik tam mənada xalqın iradəsinə söykənməsə, dövlətin bütövlüyünü qorumaq mümkün deyil. Biz tariximizdə belə acılı günləri yaşamışıq, amma Zəfər zirvəsindən keçmişə baxanda, bu günü dəyərləndirəndə və gələcəyə yönəlik planlarımızı formalaşdıranda istinad nöqtəmiz ilk növbədə bu fərqliliyin yaratdığı vəhdətdir. Bu fərqliliyin yaratdığı həmrəylik və birlikdir.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa Azərbaycan əhalisinin əksəriyyətinin müsəlman olmasına baxmayaraq, festival çərçivəsində qurulan çadırların rəngarəngliyinə diqqət çəkib. Bildirib ki, festival Azərbaycandakı tolerantlıq mühitinin mahiyyətini əks etdirir. Dövlətin tolerantlığı onun siyasətinin tərkib hissəsidir. Amma bir xalqın, millətin tolerantlığı özlüyündə mənəvi yetkinliyin, daxili mədəniyyətin, insanlığın göstəricisidir. O qeyd edib ki, çoxəsrlik tolerantlıq ənənəsinin daşıyıcısı olan Azərbaycan cəmiyyəti bu gün haqlı olaraq dünyada başqalarına örnək ola biləcək nadir cəmiyyətlərdən biri hesab olunur.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Hacı Salman Musayev festivalın Azərbaycanda mövcud olan birgəyaşayışın əyani təzahürü olduğunu deyib. Müxtəlif dinlərə mənsub insanların azərbaycançılıq məfkurəsinin əsas prinsipləri olan tolerantlıq qarşılıqlı hörmət və milli birlik ruhu altında birləşərək, ölkəmizin sülh və həmrəylik mühitinə töhfə verdiyini bildirib. Müxtəlif dini və etnik mənsubiyyətə malik insanların Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyü uğrunda çiyin-çiyinə vuruşaraq, Azərbaycan xalqının birliyini və həmrəyliyini sübut etdiyini vurğulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, Azərbaycanın multikulturalizm modeli artıq yalnız ölkə daxilinə yönəlmiş siyasət deyil, eyni zamanda qlobal səviyyədə nümunə olaraq təqdim olunur. O qeyd edib ki, fərqliliklərin yanaşı mövcud olması və bir-birini tamamlaması festivalın əsas iki mənasıdır. R.Həsənov bildirib ki, Azərbaycanda mövcud olan müxtəlif mədəniyyətlər və inanc sistemləri bir-birini tamamlayır, zənginləşdirir və harmonik şəkildə təqdim olunur. R.Həsənov vurğulayıb ki, festival həm də dinlərarası dialoqun real nümunəsidir. Fərqli inanca sahib insanlar burada bir-birinin nəşrləri ilə tanış olur, fikir mübadiləsi aparır və əməkdaşlıq qururlar.

Festival bədii hissə ilə davam edib.

# Yeni nəsil yeni iqtisadi körpülər qurur

## Avrasiyanın gənc iş adamlarının Bakıda bir araya gəlmələri təsadüfi deyildi

**Bakıda gənclərin təşəbbüskarlığını, biznes bacarıqlarını və regional əməkdaşlıq imkanlarını ön plana çıxaran Avrasiya Gənc İş Adamları Forumu (EYBF2025) keçirilib. Tədbir "Gənc MÜSİAD"ın təşkilatçılığı, Türkiyənin Prezident Administrasiyasına bağlı İnvestisiya və Maliyyə Ofisinin, Türkiyə Cümhuriyyəti Gənclik və İdman Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Azərbaycan Sahibkarlar Konfederasiyasının dəstəyi ilə həyata keçirilib. Tədbirdə 50 ölkədən 3000-dən çox gənc sahibkar iştirak edib.**



Forum ölkəmizin gənc sahibkarlarını Avrasiya regionunun digər ölkələrindən olan həmyaşıdları ilə bir araya gətirərək, təcrübə mübadiləsinə, innovasiya ideyalarının paylaşılmasına və yeni əməkdaşlıq imkanlarının yaradılmasına şərait yaradıb. Tədbir çərçivəsində gənc iş adamları biznes strategiyaları və investisiya imkanlarını müzakirə edib, gücün, elmin və ideyaların birliyini ortaya qoyub, gələcəyə inam dolu addımlar atıblar. Qeyd edək ki, "Gənc MÜSİAD" gənclərin təşəbbüskarlığını dəstəkləyən və regionda nüfuz qazanmış beynəlxalq əməkdaşlıq platformalarında iştirak edən bir təşkilatdır. 2002-ci ildə qurulan "Gənc MÜSİAD" bu gün Türkiyənin 55 və dünyanın 40 müxtəlif nöqtəsində nümayəndəlikləri ilə fəaliyyət göstərir. Qurum milli və mənəvi dəyərlərə bağlı, müasir düşüncəli, peşəkar, rəhbərlik qabiliyyətinə malik gənc iş adamları və sahibkarların birgə işləmək, dəstək olmaq, təcrübələrini bölüşmək və sosial-iqtisadi səviyyələrini yüksəltmək üçün yaradılmış bir platformadır. Müstəqil Sənayeçilər və İş Adamları Assosiasiyasının (MÜSİAD) təcrübəsindən bəhrələnərək, gənc sahibkarlara "yüksək əxlaq və yüksək texnologiya" anlayışını təbliğ edir. Gənclərin gücünü, enerjisini və inamını birləşdirən, sabahın sahibkarlarını yetişdirən bir ideya ocağıdır.

Azərbaycanda gənclərin inkişafa cəlb olunması yalnız fərdi təşəbbüslərlə məhdudlaşmır, dövlət tərəfindən də bu sahəyə xüsusi diqqət yetirilir. Müvafiq proqramlar və strategiyalar gənclərin potensialını üzə çıxarmağa, onların bilik və bacarıqlarını artırmağa, eyni zamanda sahibkarlıq ruhunu dəstəkləməyə yönəldilib. Bu yanaşma ölkədə gənc nəslin sosial və iqtisadi sahədə fəal rol oynamasına imkan yaradır. Sirr deyil ki, Azərbaycanda gənclər siyasətinin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün Prezident İlham Əliyev onu uğurla davam etdirir. Həmin siyasət çərçivəsində ölkədə innovasiya və sahibkarlığın inkişafına xüsusi diqqət yetirilir. Bu məqsədlə müxtəlif forum və tədbirlər təşkil olunur. Məsələn, KOBİA bu günə qədər gənclər üçün dörd forum keçirib. Belə tədbirlər gənc sahibkarların bilik və bacarıqlarını artırır, onların beynəlxalq aləmdə tanıdılmasında və əlaqələr qurmasında mühüm rol oynayır.

Forumda məhz bu məsələ haqqında çıxış edən KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov vurğulayıb ki, Azərbaycan bu gün gənclərin təşəbbüskarlığına inanır və buna dəstək verir: "KOBİA gənclərin dəyişiklik yaratmaq potensialına inanır. Çünki hər bir təşəbbüs ölkəmizin sabahına qoyulan bir investisiyadır. Gənclər öz ideyalarına inanırsa, artıq qalib hesab olunurlar. Bu forumun ən başlıca məqsədi yalnız əlaqələr qurmaq deyil, bir ruh, gələcəyə doğru istiqamət yaratmaqdır. Bu, dürüstlük əməksevərlik və halal qazanc ruhudur. İstiqamət isə Avrasiyada dayanıqlı, ədalətli və yaradıcı sahibkarlığın inkişaf yoludur". Orxan Məmmədovun sözləri gənclərin təşəbbüskarlığının Azərbaycanda nə qədər strateji əhəmiyyət daşıdığını bir daha ortaya qoyur.

Dürüstlük, əməksevərlik və halal qazanc prinsipləri isə tədbirin əsas mesajını təşkil edib. Bu dəyərlər bütövlükdə Avrasiya regionunda dayanıqlı, ədalətli və yaradıcı biznes mühitinin təməl daşıdır. Belə forumlar gəncləri biznes bacarıqları ilə "silahlandırır", üstəlik də onlarda təşəbbüskarlıq və innovasiya ruhu formalaşdırır, ölkəmizin iqtisadi və sosial inkişafına töhfə verməyə hazırlayır. Bu tip təşəbbüslər gənclərin öz ideyalarını həyata keçirməsinə şərait yaradır, onları yalnız sahibkar kimi deyil, həm də cəmiyyət üçün məsuliyyət daşıyan və gələcəyə yönəlmiş liderlər kimi yetişdirir. Bu mənada "Gənc MÜSİAD" əsas məqsəd olaraq Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələri gənc nəsil vasitəsilə gücləndirməyi müəyyənləşdirib.

Türkiyənin gənclər və idman nazirinin müavini Enes Eminoğlu çıxışında sözügedən məsələyə toxunaraq vurğulayıb ki, gənc sahibkarların region ölkələri arasında iqtisadi körpü rolunu oynaya bilməsi üçün belə forumlar mühüm platformadır: "İki qardaş ölkə arasındakı münasibətlər son illərdə ən yüksək zirvəyə yüksəlib. Azərbaycanın Türkiyə ilə yaxın dostluq münasibətləri, hər iki ölkənin dövlət başçılarının ortaya qoyduğu iradə fəaliyyətimizi daha da dərinləşdirir".

"MÜSİAD Azərbaycan" İctimai Birliyinin sədri Rəşad Cabirli, "Gənc MÜSİAD"ın sədri Mağsun Usta Avrasiya Gənc İş Adamları Forumunun gənc investorlar, sahibkarlar və iş dünyası üçün mühüm platforma olduğunu vurğulayıblar. Tədbir onu da göstərdi ki, dünyanın iqtisadi tarazlığı dəyişdikcə, Avrasiyada gənclər yeni dövrün fəal iştirakçıları olmağa can atırlar. Çünki materik təbii sərvətləri ilə yanaşı, insan resursları, xüsusən də gənc sahibkarları ilə yüksəlişdədir. Forum onların potensialını ortaya qoyub. Burada irəli sürülən hər fikir, qurulan hər əməkdaşlıq Avrasiyanın gələcəyində öz izini qoyacaq.

Bir ölkənin və ya bir sahibkarın gücü artıq yalnız malik olduğu resurslarla ölçülmür. Onun əsl gücünü yarada biləcəyi tərəfdaşlıqlar müəyyən edir. Sahibkarlıq bir peşə və sivilizasiya formasıdır. İstehsal etmək, paylaşmaq və çatdırmaq mədəniyyətin iqtisadi və mənəvi təzahürləridir. Bu gün Avrasiya gənclərini birləşdirən coğrafiya deyil, ortaq dəyərlər, etimad və gələcəyə inam hissidir. Onlar ticarət, texnologiya və təhsil sahəsində təşəbbüskar olduqca, öz ölkələrinin, bütövlükdə Avrasiya regionunun rifahına fayda gətirə bilərlər. Bu kontekstdə Azərbaycan gənclərinin də gücü ideyalarda, əməkdaşlıqda və gələcəyə inamdadır və bu, Avrasiya Gənc İş Adamları Forumunda özünü tam şəkildə göstərdi. Gənclər burada təcrübələrini paylaşdı, yeni tərəfdaşlıqlar qurdu, milli və regional səviyyədə forumun hərəkətverici qüvvəsi və təşəbbüskarı rolunu oynadılar.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# 6 Noyabr Müharibə və Hərbi Münaqişələr Zamanı Ətraf Mühitin İstismarının Qarşısının Alınması Beynəlxaq Günüdür

# Qarabağın "yaşıl dünya"sı

## İşğaldan azad edilən ərazilərimizin ekologiyası da bərpa olunur

**İşğal dövrü ərzində Qarabağ və Şərqi Zəngəzur bölgəsində ekoloji terror həyata keçirilib. Bu ərazilərdəki təbiət abidələrinə, qoruqlara, meşələrə, biomüxtəlifliyə ciddi ziyan vurulub, kənd təsərrüfatı torpaqları yararsız hala salınıb. Eyni zamanda yerə basdırılan bir milyondan çox mina həmin ərazilərdə insanlar üçün böyük fəlakətə çevrilib. Buna görə işğaldan azad edilən torpaqların həm də ekoloji bərpası dövlətimizin qarşısında duran vacib məsələlərdən biridir. 44 günlük müharibədən dərhal sonra işğaldan azad edilən ərazilərin minalardan təmizlənməsinə başlanılıb və burada genişmiqyaslı quruculuq işlərinə start verilib, təbiətin bərpasına başlanılıb. Artıq bu bölgələrimizə səfər edən hər kəs işğal dövründə düşmən tərəfindən "yandırılmış torpaq"ların qısa müddətdə necə yaşıllaşdırıldığının şahidi olur.**

Bu il noyabrın 3-də Zəngilan rayonunun Ağalı və Məmmədbəyli kəndlərinin sakinləri ilə görüşündə Prezident İlham Əliyevin "Mən indi Ağalının içi ilə keçdim və yeni binalarla tanış olarkən gördüm ki, bütün həyətyanı sahələr sanki gözəl bir bağa çevrilib" deməsi də elə Qarabağ və Şərqi Zəngəzurun canlandığına, yaşıllaşdığına, bu torpaqlara yenidən həyatın qayıtmasına rəmzi işarə idi.

### Ekoloji fəlakətlərə yol açılıb

İşğaldan azad edilən bölgələrimizin ekologiyasının tam bərpası üçün qarşıda görüləsi işlər çoxdur. Bununla bağlı məlumat verən Elm və Təhsil Nazirliyinin Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya üzrə fəlsəfə doktoru Mirnuh İsmayılov bildirdi ki, Qarabağ və Şərqi Zəngəzurda işğal illərində təbii sərvətlərimiz qeyri-qanuni şəkildə talanıb, aparılan mədən işləri ekoloji fəlakətlərə yol açıb: "Bu iqtisadi rayonlar zəngin və rəngarəng yeraltı sərvətləri ilə ölkəmizin digər bölgələrindən fərqlənir. Burada kifayət qədər qızıl, civə, mis, polimetal, perlit, tikinti materialları və digər faydalı qazıntı ehtiyatları var. Yeraltı sərvətlərin zənginliyi erməni işbazlarının diqqətini cəlb etmiş, faydalı qazıntıların heç bir ekoloji standart və normalara uyğun olmayan üsullarla istismarı yalnız gəlir əldə etmək məqsədilə həyata keçirilmişdir".

Alimin sözlərinə görə, işğal dövründə "Söyüdlü" yatağının qeyri-qanuni istismarı nəticəsində subalp çəmənliklərindən ibarət zəngin bioloji müxtəlifliyə malik 800 hektardan çox dağ-çəmən ekosistemləri tamamilə məhv edilib. Buradakı filizin təmizlənməsi zamanı istifadə olunan vəhşi üsullar nəticəsində yaranan süxur tullantıları şirin su ehtiyatlarının, çayların və bulaqların çirklənməsinə, terrikon təpələrinin yandırılmasına səbəb olub. Güclü yağışlar zamanı terrikon təpələrdə süxurun tərkibindəki ağır metallar və zərərli kimyəvi elementlər səth sularının təsiri ilə miqrasiyaya məruz qalıb və ətraf ekosistemlərdə bitki örtüyü və torpaq mikroorqanizmlərini məhv edərək səhralaşmaya şərait yaradıb.

Yeri gəlmişkən bildirək ki, 2022-ci ilin sonlarından etibarən azərbaycanlı ekofəallar Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Xankəndi-Laçın yolunda etiraz aksiyası keçirərək dünya ictimaiyyətinin də diqqətini ermənilərin törətdikləri ekofəlakətlərə yönəltmişdilər.

### Su ehtiyatları çirkləndirilib

Mütəxəssisin məlumatına əsasən, Qarabağın və Şərqi Zəngəzurun şirin su ehtiyatlarının Ermənistanın çirkli sənaye və kənd təsərrüfatı suları ilə mütəmadi olaraq çirkləndirilməsi bu ərazilərdə canlı ekosistemlərə ciddi ziyan vurur. Araz çayı və onun sol qolları Ermənistanın 16-dan çox yaşayış yerinin çirkab suları ilə mütəmadi olaraq çirkləndirilir.



Aparılmış araşdırmalarla məlum olub ki, Araz çayının Ermənistandan Naxçıvana daxil olduğu hissəsində suyun tərkibində fenolların miqdarı 220-1160, ağır metalların miqdarı 36-44, azot-fosfor duzları 26-34, xloridlərin miqdarı 28, neft əsaslı çirkləndiricilər isə ekoloji normadan 73-112 dəfə çoxdur. Ermənistan ərazisindən Araz çayına tökülən Zəngi çayı çirklənmə səviyyəsinə görə həmin ölkədə ən yüksək səviyyədədir. Nəticədə Azərbaycan ərazilərindən keçən Arazın şirin su ekosistemində balıq növləri azalır və balıqlarda müxtəlif xəstəliklər yaranır. Oxçuçay Ermənistanın Mehri, Qacaran, Qafan və digər dağ-mədən sənayesinin turş suları, ağır metalları və sair ilə çirkləndirilib. Mədənlərin tam gücü ilə işlədiyi dövrdə çayda misin miqdarı ekoloji normadan 20-45, fenolların miqdarı isə 5-10 dəfə çox olur. Bu çaylarda ekoloji vəziyyətin pisləşməsi şirin su orqanizmlərinin müəyyən dərəcədə məhvinə səbəb olur.

Xonaşen, Qarqarçay, Xaçınçay, İncəsuçay, Coğazçay, Oxçuçay, Tərtərçay çayları öz mənbələrini Qarabağ və Şərqi Zəngəzurdan alır. İşğal dövründə ermənilər bu çaylara müxtəlif məişət tullantıları, zavod və mədənlərin çirklənmiş sularını axıdıblar. Bərgüşad və Həkəri çaylarının zəngin və qiymətli balıq sortları ermənilər tərəfindən elektrik cərəyanları və partlayıcı maddələrlə məhv edilib.

İşğal zamanı bu ərazilərdəki göllər də çirkləndirilib. Onların arasında ən çox antropogen təsirə məruz qalan isə sərhəddə yerləşən İşıqlı Qaragöldür. Göl Ermənistanın və Azərbaycanın təbii mühafizə zonası olub və qeyri-qanuni məskunlaşmaya məruz qalıb. Gölün suyunun Ermənistan tərəfindən suvarma üçün istifadə edilməsi (böyük nasos stansiyaları quraşdırılıb) onun tükənməsinə və biomüxtəlifliyin itirilməsinə səbəb olurdu.

M.İsmayılov vurğuladı ki, işğal dövründə şirin su ekosistemlərində yaranmış ekoloji fəlakətin aradan qaldırılması üçün torpaqlarımızın azadlığa qovuşmasından sonra dövlətimiz tərəfindən burada fövqəladə tədbirlər həyata keçirilməyə başlanıb.

### Meşə sahələri məhv edilib

Alim məlumat verdi ki, işğala qədər Qarabağ və Şərqi Zəngəzurda meşələr 247 min hektar ərazini əhatə edirdi. İşğal zamanı isə ermənilər 40 min hektar meşə sahəsini tamamilə məhv ediblər: "Qarabağ və Şərqi Zəngəzurda 460 növ qiymətli ağac və bitki növü vardır ki, bunlardan 70 növü endemikdir. Təəssüf ki, hazırda ərazidə bu bitki növlərinə rast gəlinmir. Ağdamın Şelli, Seyidli, Sarıcallı və Əliağalı kəndlərində yaşı 150-250 il olan 8 Şərq çinarının və dövlət qeydiyyatına alınmış yaşı 400 ildən çox olan 71 təbiət abidəsinin məhv edildiyi və ya yandırıldığı müəyyən edilib.

Mirnuh İsmayılov qeyd etdi ki, Zəngilan rayonunun Bəsitçay vadisində təbii çinar meşəsi var. Ərazinin ölçüsü 170 hektardır. Bunun 107 hektarı 1974-cü ildə yaradılan Bəsitçay Dövlət Təbiət Qoruğunda mühafizə olunur. Ermənilər Zəngilanın Razdərə kəndində, çinar meşələrinin yaxınlığında ağac emalı zavodu açmışdılar: "Bank-İnformasiya" Beynəlxalq Strateji Araşdırmalar Mərkəzi də məlumat verib ki, Zəngilan rayonunun qiymətli təbii çinar meşələri tamamilə qırılaraq dağıdılıb, ağacların köklərini məhv etmək üçün partlayışlar törədilib".

Alimin sözlərinə görə, Kəlbəcər rayonunda 986 hektar ərazidə "Qırmızı kitab"a daxil edilmiş Azərbaycanın çox qiymətli və endemik bitkisindən ibarət unikal meşə ayıfındığı ekosistemi də işğal dövründə ekoloji terrora məruz qalıb: "Şuşa yaxınlığındakı Topxana meşəsindəki ağaclar ya qırılıb, ya da ciddi şəkildə zədələnib. "Haça yal" adlanan ərazidəki meşədə isə 2000-dən çox sağlam palıd ağacı qırılaraq məhv edilib. Cıdır düzündəki və ətraf ərazidəki meşə ekosistemləri eyni aqibəti yaşayıb, 18 hektarda unikal əhəmiyyətli yaşıllıqlar məhv edilib. Şuşa şəhərindəki yaşıllıqlar da ekoloji fəlakətə məruz qalıb".

Regionda işğala qədər 63 növ məməli məskunlaşmışdı. Bunlardan səfsər, çay su samuru, qonur ayı, zolaqlı kaftar, qamış pişiyi, səhra pişiyi, vaşaq, Qafqaz bəbiri, bezoar keçisi, nəcib maral və sair "Qırmızı kitab"a da düşüb. Bu heyvanların bəzi növləri isə "Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı siyahısı"na (IUSN) daxil edilib. Ermənilərin Azıx mağarasında apardıqları qeyri-qanuni arxeoloji qazıntılar nəticəsində bu ərazini yaşayış yeri seçmiş nadir yarasa növlərinə də ciddi ziyan dəyib. İşğal zamanı həyata keçirilən yanğınlar müxtəlif fauna növlərinin kütləvi şəkildə məhvinə yol açıb. Laçın meşələrində qırmızı palıdın, tozağacı və fındığın qırılması bir sıra quş və heyvan növlərinin ekosisteminin dağılmasına və onların sayının azalmasına səbəb olub.

### Qarabağın landşaft ekoloji karkas şəbəkə xəritəsi yaradılıb

Mirnuh İsmayılov dedi ki, "Böyük qayıdış" proqramına uyğun olaraq Coğrafiya İnstitutunun Landşaftşünaslıq və landşaft planlaşdırılması şöbəsi son iki il ərzində Qarabağ və Şərqi Zəngəzur ərazisində ekogeokimyəvi tədqiqatlar aparıb: "Bitki, süxur, su, müxtəlif dərinliklərdən götürülmüş torpaq nümunələri laboratoriya şəraitində analiz edilmişdir. Məlum olmuşdur ki, bəzi ərazilərdə, xüsusilə hərbi təsirlərə məruz qalmış ərazilərdə ağır metalların anomal yüklənməsi yer qabığındakı orta normadan çoxdur. Bu da həmin ərazidə məskunlaşma işlərinin aparılması zamanı nəzərə alınması vacib məsələlərdən biridir".

Alim vurğulayır ki, əvvəlki dövrlərin, xüsusilə işğal dövründə olan ziyanların üzə çıxarılması üçün xüsusilə Oxçuçay sahillərində çay yatağından və ona yaxın sahələrdən də nümunələr götürüblər: "Həmin nümunələrin analizi ürəkaçan olmayıb. Müəyyən qədər ağır metalların torpaqda, çayətrafı ərazilərdə toplanması müşahidə edilib. Hələlik təhlillər davam etdirilir. Yaxın günlərdə bunların irimiqyaslı xəritələnməsi həyata keçiriləcək və bu da olduqca vacib məsələdir".

Onun sözlərinə görə, son zamanlar gördükləri işlərdən biri də Qarabağın landşaft ekoloji karkas şəbəkə xəritəsini yaratmalarıdır: "Bu xəritə əsasən yenidən məskunlaşdırılan ərazilər üçün çox vacib irimiqyaslı xəritədir. Xəritədə hansı dərəcədə xüsusi mühafizə olunan ərazilər yaradılması, o cümlədən təbiət abidələrinin necə qorunmaları parametrləri və sair haqqında geniş məlumat verilir. Sözügedən xəritədə dörd yeni xüsusi mühafizə olunan dövlət qoruğu və ya milli park statusunda ərazinin yaradılması təklif edilib. Aidiyyəti dövlət qurumları bundan kifayət qədər istifadə edə bilərlər".

Alim deyir ki, Qarabağ və Şərqi Zəngəzur üçün ekosistemlərin antropogen, hərbi texnogen transformasiyasına aid tədqiqatlar da aparıblar və xəritələşmə həyata keçiriblər. Məlum olub ki, ən güclü transformasiya Cəbrayıl, Füzuli, Ağdam rayonlarının ərazilərindədir. Xüsusilə cəbhə xətti keçən ərazilərdə transformasiyanın yüksək səviyyədə olması müəyyən edilib, xəritələşdirilib: "Bununla əlaqədar tanınmış xarici elmi nəşrlərdə məqalə çap etdirilib və bu, kifayət qədər maraq doğurub".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Gəncədə Türkiyənin iş adamları ilə görüş keçirilib

**Şəhər icra hakimiyyətində Gəncədə fəaliyyət göstərən Türkiyənin "Parıltı Halı" şirkətinin sahibləri Recep Kızılaslan və Hasan Kızılaslanla görüş keçirilmişdir.**



Görüşdə ŞİH-in başçısı Niyazi Bayramov çıxış edərək qeyd etmişdir ki, Prezident İlham Əliyevin ölkə iqtisadiyyatına göstərdiyi diqqət və qayğı nəticəsində bu gün Azərbaycanın bütün bölgələri kimi, Gəncənin də iqtisadi inkişafı sürətlənir. Ölkənin ikinci böyük sənaye şəhərində yerli istehsalın gücləndirilməsi və iqtisadi potensialın artırılmasının xüsusi əhəmiyyət daşıdığını deyən N.Bayramov investorların cəlb edilməsi, yeni istehsal müəssisələrinin açılmasının regionda yüngül sənayenin inkişafına və yeni iş yerlərinin yaradılmasına mühüm töhfə verdiyini söyləmişdir.

Recep Kızılaslan öz növbəsində səmimi görüşə görə şəhər rəhbərinə təşəkkür etmiş və bildirmişdir ki, hazırda müəssisədə 40-dan çox daimi işçi çalışır: "Parıltı Halı" şirkəti müasir texnologiyalarla təchiz olunmuş avadanlıqlarla fəaliyyət göstərir. İstehsal olunan xalçalar keyfiyyət və dizayn baxımından beynəlxalq standartlara cavab verir. İllik istehsal gücü 800 min kvadratmetr olan müəssisənin məhsulları artıq xarici bazarlara da ixrac olunur".

Görüş zamanı Gəncənin sənaye potensialı, yerli istehsalın gücləndirilməsi və iqtisadi inkişafla bağlı məsələlər də müzakirə olunmuşdur.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## I Quba kitab sərgisi maraqla qarşılanıb

**Quba rayon Heydər Əliyev Mərkəzində "Zəfərin uşaqları ilə oxu marafonu - Şimal bölgəsi məktəblilərinin mütaliə yarışı" layihəsi çərçivəsində I Quba kitab sərgisi keçirilib.**



Kitab sərgisi 3 gün davam edib. Bu müddət ərzində oxuculara minlərlə yeni çap olunmuş kitab almaq imkanı, onlarla yazıçı və şairin imza mərasimi, şeir saatları, uşaqlar üçün nağıl və əyləncə saatları təşkil edilib. Bundan əlavə, sərgidə uşaqlar üçün intellektual masterklaslar, əyləncəli tədbirlər, oxu saatları və səhnəciklər təşkil olunub.

Tədbirdə qubalılarla yanaşı, Qusar, Xaçmaz və digər rayonlardan olan yüzlərlə məktəbli iştirak edib. İştirakçılar daha çox dedektiv, qəhrəmanlıq və əyləncəli kitablara üstünlük veriblər. Yazarlarla birbaşa keçirilən görüşlər, diskussiyalar da maraqla qarşılanıb.

Tədbirin sonunda fərqlənən məktəblilərə mükafatlar təqdim olunub.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## 9 ayda məhsul buraxılışı 9,4, orta aylıq nominal əməkhaqqı 8,7 faiz artıb




**Son illər həyata keçirilən irimiqyaslı layihələr, iqtisadiyyata cəlb olunan investisiyalar regionların da inkişafına təsirsiz ötüşmür. Regionların inkişafı isə əhalinin həyat səviyyəsinin yüksəlməsi deməkdir.**

Bu baxımdan, Göygöl rayonu da istisna deyil. Rayon icra hakimiyyəti başçısının müavini, Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Arzu Qocayev deyir ki, iqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil edən rayonda məhsul istehsalını artırmaq üçün bütün imkanlardan maksimum istifadə edilir: "Götürək üzümçülüyü. Rayonda, əsasən, "Bayan-Şirə", "Mədrəsə", "Rkasiteli", "Saperavi", "Kaberne-Savinyon", "Pino" və başqa sortlar becərilir. Hər il olduğu kimi, cari ildə də bağbanlar plantasiyalarda bol məhsul yetişdirməyə nail oldular. Nəticədə 717,7 hektar sahədən 4632,2 ton üzüm yığıldı. Onu da deyim ki, üzüm bağlarımızın böyük hissəsi Göygöl Şərab Zavoduna və "Azəraqroinvest" MMC-yə məxsusdur".

Digər sahələrdə də müsbət göstəricilərə nail olunmuşdur. İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışının dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 9,4 faiz artaraq 210 milyon manat olmuşdur. İstehsal edilmiş məhsulun rayon əhalisinin hər nəfərinə düşən dəyəri isə 3227,5 manata çatmışdır. Məhsul və xidmətlərin 68,3 faizi istehsal, 31,7 faizi xidmət sahələrinin payına düşmüşdür. Həmçinin öyrəndik ki, cari ilin ötən dövrü ərzində istehsal edilən kənd təsərrüfatı məhsullarının faktiki qiymətlərlə dəyəri 63 milyon 64,9 min manat olmuşdur. Bunun 41 milyon 66,3 min manatlığı heyvandarlığın, 21 milyon 998,6 min manatlığı bitkiçilik sahəsinin payına düşmüşdür. Rayon üzrə ümumi məhsul buraxılışında kənd təsərrüfatının xüsusi çəkisi 30 faiz təşkil etmişdir. 2025-ci ilin yanvar-sentyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalının dəyəri sabit qiymətlərlə 2,9 faiz artmışdır.

Göygöldə taxılçılığın inkişafına xüsusi fikir verilir. Rəqəmlərə gəldikdə, bu il 4382,5 hektarda dənli bitkilər əkilmişdir. Onun 2310,5 hektarı buğda, 2016,5 hektarı arpa, 55,5 hektarı xəsil olmuşdur. Sahələrdən 12328 ton taxıl götürülmüşdür. Məhsuldarlıq əvvəlki ilə nisbətən 12 sentner artmışdır.

Hazırda kənd təsərrüfatı məhsullarının yığımı davam edir və oktyabr ayının 1-nə kimi tarlalardan 14897,8 ton dənli paxlalı bitkilər, 112,2 ton qarğıdalı, 2951,3 ton tərəvəz, 2908,8 ton meyvə və giləmeyvə yığılmışdır.

Heyvandarlıqda da müsbət dəyişikliklər var. 9 ay ərzində quş əti də daxil olmaqla, rayon üzrə diri çəkidə 2691 ton ət, 19711 ton süd, 171 ton yun, 8 milyon 837 min ədəd yumurta istehsal olunmuşdur. 2024-cü ilin müvafiq dövrünə nisbətən diri çəkidə ət istehsalı 0,6, süd istehsalı 0,1, yun istehsalı 3, yumurta istehsalı 0,2 faiz artmışdır. Bundan başqa, oktyabrın 1-dək rayon üzrə 20,5 min baş qaramal (onun 9,9 min başı inək və camışdır), 119,7 min baş qoyun və keçi bəslənilir.

Yola salınan aylar ərzində sənaye müəssisələrində məhsul istehsalının dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 18,4 faiz artaraq 45 milyon 831,9 min manat olmuşdur. Sənayenin dövlət mülkiyyətində 13 milyon 836 min, qeyri-dövlət mülkiyyətində 31 milyon 995,9 min manatlıq məhsul istehsal edilmişdir. Sənaye məhsullarının həcmində qeyri-dövlət mülkiyyətinin xüsusi çəkisi 69,8 faizə çatmışdır.

Tikinti sahəsində də müsbət dinamika qeydə alınmışdr. 9 ayda tikinti müəssisələri tərəfindən 34 milyon 683,7 min manatlıq iş yerinə yetirilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 31,3 faiz çoxdur.

Rayonda həyata keçirilən tədbirlər əhalinin gəlirlərinə də müsbət təsir etmişdir. Hesabat dövründə orta aylıq nominal əməkhaqqı 728,9 manata çatmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,7 faiz artm deməkdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Meyvə bağları üzrə aqrar sığorta ödənişləri 1 milyon manata çatıb

**Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmindən faydalanan fermerlərin sayı və onlara sığorta ödənişləri sürətlə artmaqdadır. Fermerlərin faydalandığı sahələrdən biri də meyvə bağlarıdır. Aqrar Sığorta Fondunun meyvə bağlarının sığortası üzrə həyata keçirdiyi ödənişlərin ümumi məbləği 1 milyon manata çatıb.**



Meyvə bağları üzrə ödənişlər alça, alma, armud, badam, ərik, fındıq, gavalı, gilas, xurma, qoz, limon, nar, naringi, nektarin, portağal, şaftalı, üzüm bağları üzrə həyata keçirilib. Ən böyük sığorta ödənişləri üzüm, gilas, şaftalı-nektarin, badam, armud, ərik, alma və alça bağları üzrə həyata keçirilib.

Üzüm bağlarına dəymiş zərərlər üzrə indiyədək 168 min manat, gilas bağlarına dəymiş zərərlər üzrə 136 min manat, şaftalı-nektarin bağları üzrə 110 min manat, badam bağlarına dəymiş zərərlər üzrə isə 93 min manat sığorta ödənişi həyata keçirilib. Müxtəlif hadisələrdən zərərçəkmiş alma və alça bağlarına müvafiq olaraq 77 min manat və 67 min manat sığorta ödənişi edilib.

İndiyədək olan hadisələr göstərir ki, meyvə bağlarına ən çox zərər vuran hadisələr fırtına, dolu, şaxtavurma və sel-subasmadır.

Xatırladaq ki, aqrar sığorta üzrə ümumilikdə 41 növ bitki və bitki məhsulu sığortalamaq mümkündür. Sığortalanan bitkilərin bir hissəsi meyvələrdir. Aqrar sığorta vasitəsilə albalı, alça, alma, armud, badam, çiyələk, ərik, fındıq, gavalı, gilas, heyva, xurma, qoz, limon, nar, naringi, nektarin, portağal, şaftalı, üzüm, zeytun bağlarını sığortalamaq mümkündür. Aqrar Sığorta Fondu meyvə bağlarını çoxsaylı risklərdən - dolu, qasırğa, fırtına, sel və subasma, leysan, şaxtavurma (donvurma), normadan artıq yağan qar yağıntıları, vəhşi heyvanların hücumu, üçüncü şəxslərin hərəkətləri, yanğın, dolu yağması nəticəsində keyfiyyət itkisi kimi risklərdən sığorta edir. Eləcə də aqrar sığorta meyvə bağlarını bitki xəstəlikləri, zərərvericilər və xüsusi təhlükəli ziyanvericilərin yayılması, habelə zəlzələ, torpaq sürüşməsi, ildırım nəticəsində yarana bilən risklərdən qoruyur. Fermerlər dövlət dəstəkli aqrar sığortanın yaratdığı bu üstünlüklərdən faydalanaraq bağlarını sığortalayırlar. Hadisə baş verdikdə isə fermerlərə sığorta ödənişləri həyata keçirilir.

Qeyd edək ki, aqrar sığorta vasitəsilə meyvə bağlarında toplanacaq məhsulla yanaşı, tingləri və ağacları da ayrıca sığorta etmək mümkündür. Dövlət tərəfindən təqdim olunan 50 faizlik sığorta haqqı güzəşti nəticəsində fermerlər sığorta haqqının yalnız yarısını ödəyirlər, qalan hissəni fermerlərə dəstək üçün dövlət özü ödəyir.

*"Azərbaycan"*

## Göl balıqçılığı: istehsalçı razı, istehlakçı məmnun

**Hazırda Bakı, Sumqayıt, Gəncə və ölkənin digər şəhərlərinin bazarlarında istənilən qədər balıq və balıq məhsulları var. Çəki və belamor balıqlarının bir kiloqramı 6-7, tolstolobunku 4-5 manatadır. Bu qiymət isə ürəyi balıq istəyən hər kəsə imkan verir ki, ondan ala bilsin. Yəni ətdən təxminən 3-4 dəfə ucuz qiymət alıcının cibinə uyğundur.**

Belə bir ucuzluğu yaradanlar əsasən göl balıqçılığı ilə məşğul olanlardır. Balıqçı fermerlər Neftçala, Salyan, Biləsuvar, Sabirabad, Hacıqabul, İmişlidə daha çoxdur. Onlar əkinə yaramayan şoran torpaqlardan icarəyə sahə götürərək dambalar, süni göllər yaradıblar. Bu, onlara heç də ucuz başa gəlməyib. Həmin şoran torpaqlarda ekskavatorlar, buldozerlər işlədiblər. Amma bu, işin yalnız başlanğıcıdır. İndiki şəraitdə həmin göllərin su təminatı da bəzən problemə çevrilir. Lakin dənizə axıdılan şor sulardan istifadə edənlərin işi əkin suyundan istifadə edənlərə nisbətən yüngül olur.





Əsas məsələlərdən biri də balığın yemidir. Xüsusi yem olmadığından balıqlara əsasən arpa yarması, buğda və yaşıl yem kimi yonca, habelə qamış bitkisinin yarpaqları verilir.

Fermerlərin dediyinə əsaslanaraq göl balığının yetişdirilməsi texnologiyasını belə səciyyələndirmək olar. Aprel ayının birinci ongülüyündə balıq sürfələri bu işlə məşğul olan xüsusi adamlardan paket şəklində alınaraq göllərə vurulur. Həmin sürfələr xüsusi sexlərdə ana balıqların kürüsündən alınır. Bu işlə məşğul olan sahibkarların sayı o qədər də çox deyil. Bəzən də elə olur ki, fermerlər balıq sürfəsini Bərdədən və digər yerlərdən alırlar. Kürüdən mayalanma yolu ilə alınan tozşəkilli həmin canlılar xüsusi göllərə vurularaq qara un və yumurta sarısı ilə mayalandırılır. Bir ay keçəndən sonra, yəni sürfələr balıq şəklinə düşən zaman daha böyük göllərə köçürülür. Bu da təxminən may ayının əvvəllərinə təsadüf edir. Sürfələr gələn il üçün nəzərdə tutulur. Onlar oktyabr-noyabr aylarında göllərdən alınaraq qışlama üçün hazırlanan nisbətən kiçikhəcmli göllərə köçürülür və müəyyən həcmdə yemlənir. Qış aylarında onların qənimi qarabataq quşlarıdır. Xəstəliklər də yayıla bilər. Bütün bunlar - xırda balıqların bəslənməsi böyük diqqət və zəhmət tələb edir.

Mart ayının gəlişi ilə havalar isinəndə 5-7 balaca balığın 1 kiloqrama çatan vaxtında onlar qışlama gölündən tutulub daşınaraq böyük göllərə - bəsləmə yerinə köçürülür. Burada suyun, yemin dərəcəsindən, keyfiyyətindən asılı olaraq xırda balıqlar inkişaf etməyə başlayır. Balıqyetişdirənlər bu balıqları xüsusi torla ən azı ayda bir dəfə seçmə üsulla tutaraq inkişaf səviyyəsini, xəstəliyə tutulub-tutulmadığını təyin edir, lazımi tədbirlər həyata keçirir, müvafiq bəsləmə işlərini davam etdirirlər.

Balıqçı fermer, Salyanın Baranıkənd sakini Samit Əhədov deyir ki, balıq yetişdirmək maraqlı olduğu qədər də çətindir: "İlk növbədə gərək kifayət qədər su olsun. Yem rasionuna ciddi əməl olunması da vacibdir. Bu işləri həyata keçirmək üçün vəsait tələb olunur. Onu da deməliyəm ki, bir neçə il əvvəl balıq yetişdirmək sərfəli idi. Qoyduğun xərcin, çəkdiyin zəhmətin əvəzində sənə qazanc qalırdı. Bunu görüb çox adam balıq yetişdirməklə məşğul olmağa başladı. Göllərin sayı çoxaldıqca balıq istehsalı da artdı. Aydın məsələdir ki, məhsul çox olanda bazarda qiymətlər aşağı düşür. Qazancımız azalsa da, atalar demişkən, yoxa lənət. Allah bərəkət versin. Bilirik ki, mən də, həmkarlarım Mərdan Feyzullayev, Farid, Nazim, Oqtay Əhədovlar, Alim Eyvazov, Əfsərağa Cavadov da istehsalla, ərzaq bolluğu yaratmaqla xeyirxah bir işin qulpundan yapışmışıq".

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Ekofestival ilk dəfə Lerikdə qonaq oldu

**Rayon icra hakimiyyəti və Dövlət Turizm Agentliyi Lənkəran Regional Turizm İdarəsinin birgə təşkilatçılığı ilə Lerikdə ilk dəfə Ekofestival keçirilib.**

Əsas məqsəd yerli turizm məhsullarını tanıtmaq, kənd turizminə dəstək olmaq, bölgə adət-ənənələrini və mədəni irsi təşviq etmək, eyni zamanda ekoturizm və aqrobiomüxtəliflik ehtiyatlarının inkişafına və fermerlərin turizm sahəsində fəaliyyətlərinə töhfə vermək olan festivalda cənub bölgəsinin turizm, o cümlədən eko və aqroturizm imkanları üzrə sərgi, yerli istehsalçı və fermerlərin məhsullarının, eləcə də sənətkarlıq nümunələrinin yarmarkası keçirilib. Ziyarətçilər festivalda həm regionun ekoloji cəhətdən təmiz məhsulları ilə tanış olmaq, həm də Lerikin turizm potensialını daha yaxından tanımaq imkanı əldə ediblər.

## Özünüməşğulluq proqramı üzrə son bir ayda 650-dən çox şəxs üçün təsərrüfatlar yaradılıb

### Onların əksəriyyəti regionlarda yerləşir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi özünüməşğulluq proqramı iştirakçılarının aktivlərlə təminatını davam etdirir.**

Ötən ay paytaxt və regionlarda daha 654 işsiz və işaxtaran şəxsə bu proqram çərçivəsində mal və materiallar formasında aktivlər təqdim olunub. Verilmiş aktivlər hesabına onlardan 372-si istehsal və xidmət, qalanları kənd təsərrüfatı üzrə kiçik ailə təsərrüfatlarını yaradıblar. Proqrama cəlb olunanlar üçün əvvəlcə təlimlər təşkil edilir, onlara kiçik biznesin təşkili və idarə olunmasına dair bilik və bacarıqlar öyrədilir.

Təlimlərdən sonra özünüməşğulluq istiqaməti üzrə biznes planlarına uyğun aktivlərlə təmin olunurlar.

*"Azərbaycan"*

## Yardımlıda payızlıq bitkilərin əkin kampaniyası davam edir

**Rayonda 2026-cı ilin məhsulu üçün payızlıq bitkilər üzrə səpin işləri davam edir.**

Yardımlı Rayon Statistika İdarəsindən verilən məlumata görə, cari il noyabr ayının 1-nə payızlıq əkinləri üçün 2347,9 hektarda şum qaldırılmış, 1867 hektarda payızlıq bitkilər əkilmişdir. Əkin aparılan sahənin 1708 hektarı buğda, 159 hektarı arpa sahələridir.

Payızlıq əkin sahəsinin 127 hektarında əkin işləri kənd təsərrüfatı yönümlü müəssisələr tərəfindən yerinə yetirilib. Buğda məhsulu üzrə ən çox səpin işləri Ərsilə (190 hektar), Aşağı Astanlı (190 hektar) və Telavar (150 hektar) İƏD üzrə nümayəndəliklərin əhali təsərrüfatları tərəfindən həyata keçirilib.



Qeyd edək ki, 2024-cü ilin eyni dövrü ilə müqayisədə dən üçün payızlıq bitkilərin ümumi əkin sahəsi 3,6, o cümlədən buğda məhsulu üzrə əkin sahəsi 3,7, arpa sahəsi üzrə 2,5 dəfə artıb.

*"Azərbaycan"*





# Mədəniyyət





● Yeni nəşrlər

**Dahi Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı, istedadlı publisist, dramaturq və pedaqoq, tanınmış ictimai xadim, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyi ölkəmizdə geniş qeyd olunur. Yubiley münasibətilə bir sıra silsilə tədbirlər həyata keçirilir, elmi tədqiqatlar aparılır, yeni nəşrlər işıq üzü görür. Bu istiqamətdə mühüm işlərdən biri də ADA Universiteti tərəfindən reallaşdırılıb. Belə ki, ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə "Azərbaycan" yazıları" seriyasından "Üzeyir Hacıbəyli" kitabı nəşr olunub.**

## Üzeyir bəy Hacıbəylinin 140 illiyinə ADA Universitetinin töhfəsi

Xatırladaq ki, "Azərbaycan" yazıları" seriyası ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə həyata keçirilən "Azərbaycan" qəzeti (1918-1920) külliyyatının nəşrinə (20 cildliyə) paralel olaraq, qəzetdə bəzi şəxsiyyətlərin fəaliyyətini, yaxud müəyyən vacib mövzuların işıqlandırılmasını oxucuların diqqətinə toplu halda təqdim etməyi nəzərdə tutur. Bu seriyanın birinci kitabı "Ömər Faiq Nemanzadə" adlanır. Azərbaycan Respublikası Prezidentinin "Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında" 2022-ci il 3 oktyabr tarixli sərəncamına müvafiq olaraq çap edilib.

"Məhəmməd Əmin Rəsulzadə" isə bu seriyanın ikinci kitabıdır. Kitab Azərbaycan Respublikası Prezidentinin "Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli sərəncamına uyğun olaraq işıq üzü görüb.

"Azərbaycan" yazıları" seriyasının üçüncü kitabı "Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2025-ci il tarixli sərəncamına müvafiq olaraq ərsəyə gətirilib. Nəşrdə Üzeyir bəy Hacıbəylinin Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin orqanı olan "Azərbaycan" qəzetində dərc etdirdiyi məqalələr toplanıb. "Üzeyir Hacıbəyli" kitabına daxil edilmiş bütün materiallar filologiya üzrə fəlsəfə doktoru, dosent Mehdi Gəncəli, filoloq, tərcüməçi Azad Ağaoğlu tərəfindən transliterasiya edilərək akademik Teymur Kərimlinin elmi redaktorluğu ilə nəşrə hazırlanıb.

Mətndə çətin anlaşılan ərəb-fars sözlərinin izahı verilib. Həmçinin "İzah və şərhlər" bölməsi oxucu üçün faydalıdır. Bütün bunlar oxucuya dövrün ruhunu və ab-havasını duymağa, eyni zamanda Üzeyir bəy Hacıbəylinin toxunduğu mətləbləri dərindən anlamağa kömək edir.

Üzeyir bəy Hacıbəyli jurnalistlik fəaliyyətinə gənc yaşlarında başlayıb. XX əsrin əvvəllərində Azərbaycan mətbuatının ən fəal jurnalistlərindən biri kimi tanınıb. Üzeyir bəyin məqalə, felyeton




və tərcümələri "Kaspi" (1881-1919), "Həyat" (1905-1906), "İrşad" (1905-1908), "Tərəqqi" (1908-1909), "Həqiqət" (1909-1910), "Yeni iqbal" (1915-1917), "Azərbaycan" (1918-1920) və digər mətbu orqanlarda müntəzəm olaraq işıq üzü görüb.

Üzeyir bəy Hacıbəyli bir sıra mətbu orqanların, o cümlədən "Azərbaycan" qəzetinin həm də redaktorlarından biri olub.

Çoxşaxəli yaradıcılığında əhəmiyyətli yer tutan jurnalistlik fəaliyyəti Üzeyir bəy Hacıbəylinin irsinin öyrənilməsi, tədqiq olunması ilə yanaşı, o illərdə baş verən ictimai, siyası və mədəni hadisələr barədə dərin məlumatlar almaq baxımından da olduqca əhəmiyyətlidir.

Üzeyir Hacıbəylinin 140 illiyinə həsr edilmiş, ADA Universitetinin təqdirəlayiq və dəyərli töhfəsi olan "Üzeyir Hacıbəyli" kitabına müəllifin "Mühüm məsələlər", "Partiyalarımıza", "Azərbaycan Parlamanı", "Vəzifəmiz nədir?", "İstiqlal və istiqbal ümidi", "Tarixi günümüz", "Andranik məsələsi", "Təəssürat", "Fitnələr qarşısında", "Qarabağ haqqında", "Üzərimizdəki qara buludlar", "Başlanır", "Rusiya əhvalı", "Səmimiyyət lazım", "Əsassız tələb", "Qonşuluq", "Çörək bahalanması" və başqa yazıları daxil edilib.

Kitabda ictimai-siyasi xadim, publisist, redaktor Üzeyir bəy Hacıbəylinin "Azərbaycan" qəzetində "Filankəs", "Bir nəfər", "Ayn", "Ayn H", "Mizrab", "Çi" və başqa təxəllüslərlə, eləcə də Hacıbəyli Üzeyir, Üzeyir, Ü.Hacıbəyli. Üzeyir Hacıbəyli imzaları ilə dərc etdirdiyi məqalələr yer alıb.

"Azərbaycan" yazıları" seriyasından nəşr olunmuş "Üzeyir Hacıbəyli" kitabında yer verilmiş məqalələr həm görkəmli publisistin yaradıcılığı, həm də Azərbaycan Xalq Cümhuriyyəti illərində baş vermiş mühüm hadisələr barədə oxuculara geniş məlumat verir. Yeni nəşrə daxil edilmiş məqalələr Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ictimai-siyasi mühiti, mürəkkəbliyi, problemləri haqqında geniş təsəvvür yaradır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Ədəbi simalar

## Əsərləri ona əbədilik ömrü qazandırıb

**1958-ildə "Sınaq" şeiri ilə ədəbiyyat aləmində ilk addımlarını atmağa başlayan Səyavuş Məmmədzadə qısa müddət ərzində oxucular tərəfindən tanınmış və sevilmişdir. Təkcə şeirləri deyil, bir-birindən maraqlı nəsr əsərləri və publisistikası az vaxt ərzində ona böyük şöhrət gətirmişdir.**

Az sonra Səyavuş Məmmədzadə tərcüməçi kimi də özünü sınamış və bu sahədə də böyük uğurlar qazanmışdır. Tərcümə etdiyi bir-birindən maraqlı əsərlərlə oxucuların görüşünə gələn S.Məmmədzadənin Azərbaycan poeziyasından rus dilinə ilk poetik tərcüməsi - Ağacavad Əlizadənin Səməd Vurğuna həsr etdiyi şeiri olmuşdur. Görkəmli tərcüməçi Azərbaycan ədəbiyyatı nümunələrini rus dilinə, rus, bolqar, Ukrayna, polyak və s. dillərdən isə ədəbi əsərləri Azərbaycan dilinə tərcümə etmişdir. Siyavuş Məmmədzadə Azərbaycan ədəbiyyatı və tərcümə sənəti sahəsindəki xidmətlərinə görə Rusiyanın ölkəmizdəki səfirliyinin, "Azərbaycan-Ukrayna Dostluğu" Xeyriyyə Cəmiyyətinin və başqa təşkilatların mükafatlarına layiq görülmüşdür.

Səyavuş Məmmədzadə təkcə ölkəmizdə deyil, keçmiş ittifaqda tanınmış tərcüməçilərdən sayılır. O, dəfələrlə Bolqarıstanda yaradıcılıq ezamiyyətlərində olmuşdur. Klassik macar şairi Endre Adinin anadan olmasının 100 illiyi yubileyində iştirak edən sovet nümayəndə heyətinin tərkibində Macarıstana getmişdir. Harada olmuşdusa, respublikamızı və xalqımızı layiqincə təmsil etmişdir.

Səyavuş Məmmədzadənin rus dilində nəşr olunmuş "Nebo", "Tverskoy bulvar", "Samoutverjdeniye", "Noçnıye yabloki", "Komedantskiy ças", "Vremya sobirat kamni", Azərbaycan dilində "Bir yuxusuz gecə", "Günəşə baxan insanlar", "Həqiqət sorağında. Mirzə Kazım bəyin ömür yarpaqları" və s. kitabları oxucular tərəfindən rəğbətlə qarşılanmış və maraqla oxunmuşdur.

85 il ömür sürmüş Səyavuş İmran oğlu Məmmədzadə 1935-ci il oktyabrın 2-də Bakıda müəllim ailəsində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə qəbul olub. Ədəbi fəaliyyətə tələbəlik illərindən başlayıb. İlk şeirləri 1956-cı ildə universitetin çoxtirajlı qəzetində dərc olunub. Həmin vaxtdan "Molodyoj Azerbaydjana" qəzetində mütərcim, sonralar ədəbi işçi işləyib.

Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun bədii tərcümə bölməsində təhsil alan Səyavuş Məmmədzadənin ədəbi fəaliyyətində poeziya, nəsr, publisistika, bədii tərcümə xüsusi yer tutur. O, müxtəlif illərdə Azərbaycan Dövlət Nəşriyyatında redaktor, "Literaturnıy Azerbaydjan" jurnalında ədəbi işçi, tənqid və publisistika şöbəsinin müdiri, Azərbaycan Yazıçılar Birliyində referent-məsləhətçi və başqa vəzifələrdə çalışmışdır.

Ümummilli Lider Heydər Əliyev görkəmli tərcüməçi Siyavuş Məmmədzadəni şəxsən tanıyırdı. Ulu Öndərin sağlığında Siyavuş müəllim heç vaxt bu dahi insana şeir ithaf etməmişdir. Amma bu böyük şəxsiyyətin ölümündən təsirlənərək "Ürək çatışmazlığı" adlı şeir yazmışdır. Ümummilli Liderin itkisini, kədərini bu misralarda ifadə etmişdir:

*Təbiət varını əsirgəmədi,*
*Belə qüdrətlə siz yüz yaşayardız.*
*Bağlı qapıları bir-bir açardız,*
*Yaralar, acılar aman vermədi.*

*Onların hesabı gələrmi saya,*
*Qorbaçov Kremlinin soyuq havası,*
*Yurd "naqqallarının" dayaz harayı,*
*Doğma obaların aciz davası...*



*Möhtərəm təbiblər, can nasazlığı,*
*Sizin səriştəniz üçün nədir ki...*
*Əsrimizin ürək çatışmazlığı,*
*Mərhəmət qıtlığı üzdü nəhəngi...*

Azərbaycan Yazıçılar Birliyinin katibi, Xalq yazıçısı Çingiz Abdullayev zamanında S.Məmmədzadə haqqında bu fikirləri söyləmişdir: "Özünəməxsus qələmi, istedadı, dünyagörüşü olan Səyavuş Məmmədzadə digər ədəbiyyat adamlarından, qələm ustalarından yazdığı əsərlərin orijinallığı ilə seçilir. Bundan başqa, Səyavuş Məmmədzadə tanınan və tanınmayan yazarların, şairlərin əsərlərini də tərcümə edərək onların geniş oxucu kütləsinə təqdim olunmasında əhəmiyyətli işlər görür. Azərbaycan ədəbiyyatının təbliğatında onun xarici dillərə tərcümə olunması olduqca vacibdir. Səyavuş Məmmədzadənin Azərbaycan və rus dillərini mükəmməl bilməsi bu missiyanı layiqincə həyata keçirməsinə yardımçı olur".

Yaxın dostu tanınmış yazıçı Məmməd Oruc isə belə demişdir: "Bir dəfə müsahibimin qəfil sualı ilə qarşılaşdım: "Siz həyatı boyu, bir dəfə də olsun, yalan danışmayan adam tanıyırsınızmı?" Bir anlığa duruxsam da, yadıma Səyavuş Məmmədzadə düşdü. Mənə elə gəlir ki, o, bütün uğurlarını, məhz, bir dəfə də olsun, yalan danışmamaqla qazanıb. Nədir onun uğurları? Bu gün o, ədəbiyyatımızdakı xidmətlərinə görə Azərbaycan Prezidentinin fərdi təqaüdçüsüdür, Əməkdar incəsənət xadimidir. Böyük Nizamidən üzü bəri, klassiklərimiz öz yerində, son 50 ildə az-çox tanınan elə bir Azərbaycan şairi, yazıçısı tapmaq olmaz ki, Səyavuş müəllim onun şeirlərini, ya da povest və hekayələrini rus dilinə çevirib çap etdirməsin. Şəxsən, özü isə, Füzulinin "Leyli və Məcnun" poemasının rus dilinə tərcüməsini əsas yaradıcılıq nailiyyəti sayır".

Artıq haqq dünyasına qovuşmuş Xalq şairi Fikrət Qoca görkəmli tərcüməçi ilə tələbə yoldaşı olmuşlar. Şair, dostunun 80 illiyinə həsr olunmuş tədbirdə çıxışında həmin illəri bu cür xatırlamışdır: "Gecələr şeirlərimi yazıb Səyavuşa oxuyardım. O da təmkinlə, diqqətlə qulaq asardı, fikirlərini bildirərdi. İndi də şeir yazanda Səyavuşu axtarıram. O, canını ədəbiyyata fəda etmiş, yaxşı mənada ürəyi qabar olmuş ədəbiyyat fəhləsidir. Səyavuş ədəbiyyatla dərdlərini bölüşür. Ona elə bu ədəbiyyat eşqi ilə də yazıb-yaratmaq arzu edirəm".

Səyavuş Məmmədzadənin ədəbi fəaliyyəti dövlətimiz tərəfindən zaman-zaman layiqincə qiymətləndirilmişdir. 1984-cü ildə Əməkdar mədəniyyət işçisi, 2003-cü ildə Əməkdar incəsənət xadimi fəxri adlarına layiq görülmüş, Prezident təqaüdçüsü olmuşdur. "Xəzər balladası" baletinin liberettosuna görə isə Ümumittifaq müsabiqəsində 3-cü dərəcəli diplom qazanmışdır.

Görkəmli tərcüməçi Səyavuş Məmmədzadə 3 sentyabr 2022-ci ildə dünyasını dəyişmişdir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## UNESCO-nun Baş Konfransının 43-cü sessiyasında Türk Mədəniyyəti və İrsi Fondunun unikal layihələrinin təqdimatı olub

**Özbəkistanın Səmərqənd şəhərində UNESCO-nun Baş Konfransının 43-cü sessiyasının platformasında Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı ilə ilk dəfə olaraq türk sivilizasiyasının dərinliyini və böyüklüyünü əks etdirən unikal layihələrin təqdimatı keçirilib.**

Bu barədə AZƏRTAC-a Türk Mədəniyyəti və İrsi Fondundan məlumat verilib.

Bildirilib ki, tədbir çərçivəsində türk dövlət başçılarının qəbul etdiyi "Türk dünyasına baxış - 2040" və "TÜRKTIME" strateji sənədlərinə uyğun olaraq hazırlanmış "Türk dünyasının mədəni kodu" adlı türk dünyasının mədəni irsinə dair kataloq, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü və türk dövlət başçılarının dəstəyi əsasında fond tərəfindən həyata keçirilən çoxcildli, çoxdilli "Türk folklor irsi" antologiya nəşrinin təqdimatı baş tutub.

Təqdimatın davamında noyabrın 3-də UNESCO Baş Konfransının 43-cü sessiyasının qətnaməsi ilə qəbul edilmiş "15 dekabr - Türk Dili Ailəsi Gününün (World Turkic Language Family Day)" qeyd olunması ilə bağlı tədbir keçirilib.

Mərasimdə çıxış edən Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti






Aktotı Raimkulova fond tərəfindən nəşr olunan "Türk dünyasının mədəni kodu" adlı çoxdilli kataloq və "Türk folklor irsi" antologiyası haqqında məlumat verib və türk dünyasının mənəvi körpüsünə çevrilən bu layihələrin ərsəyə gəlməsində əməyi olan mütəxəssisləri, alimləri və Məşvərət Komitəsinin üzvlərini təbrik edib, onlara təşəkkürünü bildirib.

Kataloqun layihə kuratoru Rüstəm Müzəffərov, eləcə də Özbəkistandan tanınmış alim, "Türk folklor irsi" antologiyasının hazırlanmasında iştirak edən Jabbor Eşonqulov təqdim olunan nəşrlərin əhəmiyyətini vurğulayaraq, bu layihələrin təşəbbüskarı olan Türk Mədəniyyəti və İrsi Fondunun fədakar fəaliyyətini və türk dünyasının mədəni irsinin qorunmasına verdiyi töhfəni yüksək qiymətləndiriblər.

Fəxri qonaq qismində Qırğız Respublikasının Prezidentinin müşaviri Arslan Qoyçiyev, Türkiyə Ədalət və İnkişaf Partiyasının sədr müavini, professor Kürşad Zorlu, Özbəkistan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti, professor Baxrom Abduxalımov iştirak ediblər. Onlar bu tarixi qərarın türk dillərinin zənginliyinin və ortaq mənəvi köklərinin beynəlxalq səviyyədə tanıdılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb, tədbirin həyata keçirilməsində Türk Mədəniyyəti və İrsi Fondunun gördüyü işləri və səylərini yüksək qiymətləndiriblər.

Təqdimat zamanı çıxış edənlər arasında Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəsi, səfir Elman Abdullayev, Qazaxıstanın elm və ali təhsil nazirinin müavini Talqat Yeşenkulov, Türkmənistanın Fransadakı səfiri və UNESCO yanında Daimi Nümayəndəsi Maksat Çariyev, eləcə də Macarıstanın UNESCO yanında Daimi Nümayəndəliyinin müavini xanım Kinqa Simon yer alıblar.

Tədbir Türk mədəniyyəti və irsinin səfiri, etnofolklor "TURAN" ansamblının solistlərinin ifası ilə davam edib.

## İki ölkənin muzeyi arasında əməkdaşlıq memorandumu imzalanıb

**Azərbaycan Milli Xalça Muzeyi ilə Gürcüstan Milli Muzeyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənədi Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova və Gürcüstan Milli Muzeyinin direktoru David Lordkipanidze imzalayıblar.**



Azərbaycan tərəfi ümid edir ki, yaxın gələcəkdə Gürcüstanın müxtəlif muzeylərində xalçaçılıq və tekstil mədəniyyətini əks etdirən sərgilər, interaktiv tədbirlər və təlim proqramları təqdim olunacaq.

Muzeylərarası əməkdaşlıq həm Azərbaycan, həm də Gürcüstan mədəni irsinin qorunması və geniş ictimaiyyətə təqdim olunması baxımından önəmli addım hesab olunur.

Qeyd edək ki, memorandum imzalanması Azərbaycanın Xalq rəssamı Arif Hüseynovun Gürcüstanın Bolnisi Muzeyində açılmış sərgisi çərçivəsində baş tutub.

## Zəfər Gününə həsr olunmuş konsert proqramı

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) nəzdində Humanitar Kollecdə Həmkarlar İttifaqı Komitəsinin dəstəyi ilə 8 Noyabr - Zəfər Günü münasibətilə konsert proqramı təşkil edilib.**



Kollecdən bildirilib ki, tədbir 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş kollecin altı məzununun xatirəsinin anılması ilə başlanıb. İştirakçılar şəhidlərin xatirə lövhəsinin önünə tər güllər düzərək onların əziz xatirəsini ehtiramla yad ediblər. Ardınca Dekorativ-tətbiqi sənət və Bədii xalça ixtisası tələbələrinin hazırladıqları, Zəfər Gününə həsr olunmuş əl işlərindən ibarət sərgi ilə tanışlıq olub.

Tədbirin açılışında Humanitar Kollecin direktoru musiqişünas dosent Nərmin Qaralova çıxış edərək iştirakçıları Zəfər Günü münasibətilə təbrik edib.

Sonra Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatının sədr müavini Sevinc Abdullayeva, Naxçıvan Musiqi Kollecinin direktoru Əməkdar müəllim Məhəbbət Babayeva və sənət adamı Xədicə Sənanqızı da çıxış edərək, Azərbaycan Ordusunun qəhrəmanlığından və Zəfərin xalqımız üçün mənəvi qürur mənbəyi olmasından danışıblar. Onlar gəncləri vətənpərvərlik ruhuna sadiq qalmağa, sənət vasitəsilə bu dəyərləri yaşatmağa çağırıblar.

Kollecin tələbələri Gülçin Tanrıverdiyeva və Canəli Canəliyev isə Zəlimxan Yaqubun "Qələbə, qələbə, yalnız qələbə" və Asim Yadıgarın "Zəfər yolu" şeirlərini səsləndirərək tamaşaçılara təsirli anlar yaşadıblar.

Tədbir Zəfər Gününə həsr olunan qürur və minnətdarlıq duyğuları ilə yekunlaşıb.

## Dövlət Film Fonduna yeni fotosənədlər daxil olub

**Azərbaycan Dövlət Film Fonduna şəxsi arxivdən yeni fotosənədlər daxil olub. Təqdim olunan fotosənədlər 1974-cü ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında istehsal olunmuş "Qatır Məmməd" filminin çəkiliş prosesini əks etdirir.**



Bu barədə Dövlət Film Fondundan məlumat verilib. Bildirilib ki, fotoşəkillərdə Xalq artisti, filmin quruluşçu rejissoru Rasim Ocaqovun və çəkiliş qrupunun digər üzvlərinin nadir görüntülərinə rast gəlmək mümkündür. Yeni əldə olunmuş fotosənədlər Azərbaycan kino tarixinin öyrənilməsi baxımından əhəmiyyətli rola malikdir.

# Çempionlar Liqası: Zəfər Günü ərəfəsində "Qarabağ"ın zəfəri

## Ağdam təmsilçisi klublar üzrə dünya çempionundan xal aldı

**Dünən "Qarabağ" UEFA Çempionlar Liqasının əsas mərhələsində növbəti oyununu keçirib. Azərbaycan çempionu Liqa mərhələsinin IV turunda Bakıda "Çelsi"ni qəbul edib. Tofiq Bəhramov adına Respublika Stadionunda oynanılan qarşılaşmada qalib müəyyənləşməyib - 2:2.**





Rəqib klublar üzrə dünya çempionudur və bu nəticə futbolçularımız üçün möhtəşəm qələbəyə bərabərdir.

Matçda hesabı qonaqlar açıblar. 16-cı dəqiqədə Estevao yaxın küncü dəqiq nişan alıb. Buraxılan qoldan sonra hücuma çıxan Ağdam klubu 29-cu dəqiqədə hesabı bərabərləşdirib. Leandro Andrade topu tora qovuşdurub. "Qarabağ" 39-cu dəqiqədə ikinci topu rəqibin qapısından keçirib. Təyin olunan penalti zərbəsini Marko Yankoviç dəqiq yerinə yetirib. İlk hissə bu hesabla başa çatıb. İkinci hissə də qarşılıqlı hücumlar şəraitində keçib. Fasilədən sonra meydana daxil olan Alexandro Qarnaço 53-cü dəqiqədə hesabı bərabərləşdirib. Bu, eyni zamanda matçda vurulmuş sonuncu qol olub.

Bu nəticədən sonra xallarını 7-yə çatdıran "Qarabağ" 12-ci pilləyə yüksəlib. Eyni xala malik "Çelsi" isə 10-cu sırada qərarlaşıb.

Qeyd edək ki, "Qarabağ" Liqa mərhələsində 5-ci oyununu noyabrın 26-da İtaliyada "Napoli"yə qarşı keçirəcək.

*"Azərbaycan"*

# Almaniyada islamçıların "Muslim Interaktiv" birliyi qadağan edildi

**AFR-in daxili işlər naziri Aleksander Dobrindt islamçıların "Muslim Interaktiv" təşkilatını Almaniyanın konstitusiya quruluşuna və ölkə xalqları arasında qarşılıqlı anlaşma ideyasına qarşı çıxdığı üçün qadağan edib.**




Noyabrın 5-də səhər tezdən Daxili İşlər Nazirliyinin əməkdaşları Hamburqda bir neçə evdə və mənzildə axtarış aparıb və birliyin əmlakını müsadirə ediblər.

Bundan əlavə, paytaxt Berlində və Hessendə "Muslim Interaktiv" birliyi ilə əlaqəli iki islamçı təşkilatın - "Generation Islam" və "Realitat Islam"ın fəallarına qarşı reydlər keçirilib. Bu qruplar "qadağa üçün eyni əsasları tətbiq etməkdə" və birliyin qolları olmaqda şübhəli bilinirlər. Yerli medianın məlumatına görə, bu iki qrupla bağlı araşdırmalar davam edir.

Dobrindt Almaniya Daxili İşlər Nazirliyinin saytında dərc olunmuş açıqlamasında bildirib: "Küçələrimizdə xilafətin qurulmasına aqressiv şəkildə çağırış edən, İsrailə və yəhudilərə qarşı nifrət təhrik edən, qadınların və azlıqların hüquqlarına xor baxan hər kəs qanunun bütün sərtliyi ilə cəzalandırılacaq. Biz "Muslim Interaktiv" kimi təşkilatların azad cəmiyyətimizi nifrətləri ilə məhv etməsinə, demokratiyamıza xor baxmasına və ölkəmizə daxildən hücum etməsinə icazə verməyəcəyik".

Almaniyanın hakimiyyət orqanlarının məlumatına görə, "Muslim Interaktiv" 2020-ci ilin mart ayından bəri əsasən Hamburqda fəaliyyət göstərib və internetdə fəal şəkildə ünsiyyət qurub. İslamçılar sosial media vasitəsilə gənclərə təsir göstərib, "İnstaqram", "TikTok" və "Yutub" kanallarına minlərlə izləyici cəlb edib. Qrup videolarında Qərb ölkələri tərəfindən müsəlmanlara qarşı iddia edilən təzyiqlərdən, xüsusən də Almaniyada inanclarını düzgün şəkildə yerinə yetirməyə icazə verilməməsindən şikayətlənib.

2023-cü ilin fevral ayında "Muslim Interaktiv" təşkilatı İsveçdə "Quran"ın yandırılmasına etiraz olaraq Hamburq küçələrinə 3500 nəfər çıxarıb. 2024-cü ilin aprel ayında qrupun himayəsi altında Hamburqun Ştayndamm meydanında 1000-dən çox insan "Xilafət həll yoludur" yazılı lövhələrlə toplaşıb.

Hamburq Konstitusiyasının Müdafiəsi Ofisi bu birliyi ideoloji olaraq 2003-cü ildə Almaniyada fəaliyyəti tamamilə qadağan edilmiş qlobal islamçı təşkilat Hizb ut-Təhrir əl-İslami (İslam Azadlıq Partiyası) ilə əlaqələndirir.

Ötən il Daxili İşlər Nazirliyi Hamburq İslam Mərkəzinin də fəaliyyətini dayandırıb.

Hamburq, Bremen, Aşağı Saksoniya və Bavariya da daxil olmaqla, Almaniyanın 8 əyalətində 53 yerdə axtarışlar aparılıb. Berlin agentliyinin verdiyi məlumata görə, təşkilatın aktivləri müsadirə edilib.

Almaniya Daxili İşlər Nazirliyi vurğulayıb ki, mərkəz Almaniyada "İslam inqilabı" ideologiyasını aqressiv və döyüşkən şəkildə yayır və onu həyata keçirməyə çalışır.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Nyu Yorkun ilk müsəlman meri Zohran Mamdani kimdir

**İlkin nəticələrə görə, Zohran Mamdani noyabrın 4-də Nyu York şəhər meri seçkilərində səslərin 50,4 faizini toplayaraq qələbə qazanıb. Seçkilərdə müstəqil namizəd kimi iştirak edən digər iki namizəd - respublikaçı Körtis Sliva və Nyu Yorkun sabiq qubernatoru Endryu Kuomo müvafiq olaraq səslərin 7,1 və 41,6 faizini toplayıblar.**




34 yaşlı Zohran Mamdani immiqrant əsilli amerikalıdır. O, Uqandada hindli ailəsində anadan olub. Anası Mira Nair tanınmış hind-amerikalı kinorejissor, atası Mahmud Mamdani Uqanda alimidir.

Zohran Mamdani 5 yaşında olanda ailəsi Uqandadan Cənubi Afrikaya, cəmi iki il sonra isə Nyu Yorka köçüb. 2018-ci ildə naturalizasiya yolu ilə ABŞ vətəndaşlığını alan Zohran Mamdani 2025-ci ilin əvvəlində suriyaəsilli rəssam Rama Duvaci ilə evlənib.

Mamdaninin siyasi karyerası sürətlə inkişaf edib. 2020-ci ildə o, Nyu York ştatının Assambleyasına üzv seçilib. 2024-cü ilin oktyabrında Nyu York şəhərinin meri vəzifəsinə namizədliyini irəli sürmək niyyətində olduğunu açıqlayanda bir çoxu onun Demokrat Partiyasından namizəd olmaq şansının az olduğunu düşünürdü. Lakin Mamdani partiya daxilində səslərin 56,4 faizini toplayaraq ilkin seçkilərdə böyük qələbə qazandı.

2017-ci ildən bəri Mamdani ABŞ-nin ən böyük sosialist təşkilatı olan "Amerika Demokratik Sosialistləri"nin üzvüdür. Digər məsələlərlə yanaşı, o, varlıların vergilərinin artırılmasını və minimum saatlıq əməkhaqqının 2030-cu ilə qədər 16,50 dollardan 30 dollara qaldırılmasını müdafiə edir. Z.Mamdani həmçinin pulsuz məktəbəqədər təhsil müəssisələrinə universal çıxışı təmin etmək və Nyu Yorkda tədricən ictimai nəqliyyatı pulsuz etmək istəyir.

Nyu Yorkda doğulub böyüyən ABŞ Prezidenti Donald Tramp Zohran Mamdanini bəyənmədiyini gizlətməyib və seçkilərdə Endryu Kuomonun namizədliyini dəstəkləyib.

Səsvermə ərəfəsində ABŞ Prezidenti bildirmişdi ki, Mamdani qalib gələrsə, Ağ Ev Nyu York şəhərinə qanunla müəyyən edilmiş minimumdan artıq federal vəsait ayırmayacaq. Mamdani isə şəhərin rifahı naminə Prezident Trampla əməkdaşlıq etməyə çalışacağını bildirib.

*R.CƏFƏROV, "Azərbaycan"*

# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə *abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycanın gələcəyi elm, bilik və milli ruh üzərində qurulacaq
Zəfərə aparan elmi idarəçilik
Qərbi Azərbaycana qayıdış etimad quruculuğunun vacib şərtidir
Prezidentin çağırışı
Dövlət başçısı alimləri bərpaolunan enerji layihələrində fəal iştiraka dəvət etdi
Ermənistanda seçkiqabağı gərginlik indidən hiss olunmağa başlayıb
44 günlük Vətən müharibəsi
Düz 5 il əvvəl həmin gün
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 07.11.2025-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə imkanı təmin ediləcəkdir.

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Müvafiq qanunvericiliyə əsasən imtiyazlı kateqoriyadan olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması" adlı müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 20 noyabr 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 21 noyabr 2025-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***

# Hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda bu gün gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 5-dən 6-na keçən gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-13, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 768 millimetr civə sütunu, nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi şərq rayonlarında qısamüddətli yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 6-11, gündüz 17-22 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 5-9 dərəcə isti olacağı bildirilir.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək, arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-5, gündüz 17-21 dərəcə isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək, arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1-5, gündüz 8-13 dərəcə isti olacağı gözlənilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək, arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5 dərəcə isti, dağlıq ərazilərdə 2 dərəcəyədək şaxta, gündüz 8-13 dərəcə isti olacağı proqnozlaşdırılır.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-10, gündüz 15-19 dərəcə isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şərq rayonlarında qısamüddətli çiskinli yağış yağacağı gözlənilir. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8, gündüz 14-18 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Lakin bəzi şərq rayonlarda arabir yağış yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 17-22 dərəcə isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-12, gündüz 16-19, dağlarda gecə 3-6, gündüz 7-10 dərəcə isti olacağı gözlənilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4040
Sifariş 2242

Qiyməti 60 qəpik